RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 85 (8964) BAZAR, 24 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan qarşı tərəflə "Bakı-Yerevan" formatında danışıqlara hazırdır



→ 2

## Şuşada Zəfər qurultayının bağlanış mərasimi keçirilib



→ 2

## Azərbaycan gimnastları medal hesabını açdı




→ 12



# Zəfər manifesti

## İlham Əliyev dünya azərbaycanlılarının yeni fəaliyyət platformasını müəyyənləşdirdi

→ 3

## Qarabağ və Şərqi Zəngəzurda ən müasir həyat standartları yaradılır



→ 4

## Güclü Azərbaycan dövləti qondarma erməni iddialarını darmadağın edir



→ 7

## Ermənilərin saxta mifləri tam iflasa uğrayıb




→ 7

## Sözdə deyil, əməldə əsl dost qayğısı

### Azərbaycan indiyədək Ukraynaya 28 milyon manat dəyərində humanitar yardım göstərib

Prezident İlham Əliyevin siyasətinin mərkəzində hər zaman insan amili dayandığı üçün Azərbaycan dövləti darda olan, köməyə ehtiyacı yaranan başqa ölkələrin vətəndaşlarına da humanitar yardımlarını əsirgəmir. Xüsusən də dost ölkələrdə müəyyən narahatçılıq yarandıqda ilk yardım göstərən dövlətlərdən biri hər zaman Azərbaycan olur. Elə son aylarda Ukraynada yaşanan münaqişə zəminində ölkəni tərk edən əhalinin ehtiyaclarının ödənilməsi istiqamətində də atılan addımlar bunu bir daha təsdiqləyir. Azərbaycan Prezidentinin göstərişi ilə dost ölkənin əhalisinə indiyədək 4 dəfə humanitar yardım göndərilib. Sonuncu dəfə humanitar yardım aprelin 21-də reallaşdı. Çəkisi 170 tondan çox olan yardıma 3,37 milyon manat məbləğində dərman vasitələri və tibbi sərfiyyat malları, eləcə də 1 milyon manat məbləğində qida məhsulları Polşa ərazisində məskunlaşan ukraynalı məcburi köçkünlərin ehtiyaclarını qarşılamaq üçün Varşava Hava Limanına yola salındı.

Ümumilikdə ölkəmizin Ukraynadakı böhranla bağlı göstərdiyi humanitar yardımın ümumi məbləği 27,6 milyon manat (15 milyon avro), çəkisi isə 720 ton təşkil edir.

Azərbaycan dövlətinin Ukrayna xalqına qarşı göstərdiyi diqqəti dəyərləndirən səfir Vladislav Kanevski mətbuata açıqlamasında bildirib ki, Ukrayna üçün böyük əhəmiyyət daşıyan 7-ci təyyarə yola düşüb. Çox çətin bir məqamda Azərbaycanın göndərdiyi humanitar yardımlar Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlığın yüksək səviyyəsinin parlaq təsdiqidir.

→ 4

**"Azərbaycan" qəzeti, 19 sentyabr 1918-ci il, 2-ci nömrə**

## BAKININ ALINMASI HAQQINDA

16 sentyabrda Azərbaycan Hökuməti tam tərkibdə xüsusi qatarla Bakıya yola düşmüşdür. Hökumət qurumları hələlik Gəncədə fəaliyyət göstərir və nazirlər bir neçə gündən sonra Gəncəyə qayıdacaqlar. Əlverişli şərait yaranan kimi, bütün mərkəzi qurumlar Bakıya köçürüləcək.

* * *

Şəhər ermənilərinin 6 nəfərlik nümayəndə heyəti, arximandrid Levonun rəhbərliyi ilə 15 sentyabrda Baş Nazir F.x.Xanxoyskini və Nuri paşanın Gəncə şəhərindəki müavinini Bakının alınması münasibətilə təbrik etmişdir. Ruhanilər adından təbrikləri arximandrid Levon, şəhər xalqı adından isə İ.N.Xocayev və Q.M.Şahnazarov çatdırmışdır. Nümayəndə heyəti, Nuri paşanı təbrik etmək üçün cəbhəyə və şəhərin erməni əhalisini sakitləşdirmək üçün Bakıya getmək icazəsini Türk Komandanlığından istəmişdir. Nuri paşanın müavini, bunun üçün cəbhədən razılıq almağa çalışacağını söyləmişdir.

* * *

Bakı süqut etdi. Bakıyla bərabər, beynəlxalq dələduz və oğruların Zaqafqaziyadakı axırıncı dayağı da süqut etdi. Onlar ki, sosializm bayrağı altında bu gün bolşevik, sabah menşevik qılığına girərərək, bəzən də sadəcə olaraq çernosotenlərə qarışaraq, yerli xalqa və məmləkətin qanuni hakimiyyətinə müxtəlif formada zülm edərək və ən axırda da ingilis qızılına satılaraq, bütün Zaqafqaziyanı geniş çaplı qanlı döyüşlərin səhnəsinə çevirmək istəmişdilər.

Bu həqiqəti xüsusilə də bizim qonşularımız erməni içində yer alan, öz maraqlarını qonşularının maraqları ilə uyğunlaşdırmaqdan və qonşularıyla dinc yanaşı yaşamaqdan imtina edərək yadelli "xilaskarlar"ın ətəyindən yapışan ünsürlər yaddan çıxarmamalıdırlar.

→ 5

# Gecikən nikahlar

## Yaxud gənclər ailə qurmağa niyə tələsmir

→ 6

## Manatın məzənnəsi dəyişəcəkmi?



Manatın məzənnəsinin sabit qalmasında əsas amil olan neftin qiymətlərinin dünya bazarında yüksək olması məzənnə dayanıqlığını təmin edir. Bununla yanaşı, Rusiya-Ukrayna münaqişəsi, geosiyasi vəziyyət fonunda dünya bazarında qiymət artımları, ölkədə manatın məzənnəsi ilə bağlı müxtəlif fikirlər formalaşdırır.

→ 4

## YAP və ETSN Beynəlxalq Yer Günü münasibətilə birgə ağacəkmə aksiyası keçiriblər

→ 2

## "Ağ qılçıqlı", "Yetim", "Lənkəran sədrisi"...

→ 6

## Günəş panelləri ilə gecələr də elektrik enerjisi əldə olunacaq

→ 11

## Yuxu - müvəqqəti ölüm

XX əsrin ortalarında aparılan araşdırmada əksəriyyətin ağ-qara yuxular gördüyü ortaya çıxıb. İllər keçdikcə bu nəticələr dəyişməyə başlayıb. Araşdırmalarda insanların rəngli yuxular gördüyü aşkarlanıb. Bu da dediyimiz kimi, insan yuxularının daha çox gördüyü, xəyal etdiyi hadisələrlə bağlı olduğundan, həyatdakı rənglənmənin yuxularımızdakı rəngarəngliyə gətirib çıxarmasından xəbər verir.



→ 10

# Azərbaycan qarşı tərəflə "Bakı-Yerevan" formatında danışıqlara hazırdır

Aprelin 23-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında aprelin 6-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə keçirilmiş üçtərəfli görüş qeyd olunub və əldə edilmiş razılaşmalara uyğun olaraq praktiki və nəticəyönümlü işin aparılmasının önəminə toxunulub.

Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin demarkasiyası və delimitasiyası, iki ölkə arasında sülh müqaviləsinin hazırlanması, nəqliyyat-kommunikasiya xətlərinin açılması məqsədilə verdiyi dəstəyinə və bu məsələləri daim diqqətdə saxladığına görə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə təşəkkürünü bildirib.



Dövlət başçısı Brüssel görüşünün nəticələrinə uyğun olaraq Azərbaycan tərəfinin Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası üzrə milli komissiyanın və iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə nümayəndə heyətinin tərkibini müəyyən etdiyini və qarşı tərəflə "Bakı-Yerevan" formatında danışıqlara hazır olduğunu vurğulayıb. Prezident İlham Əliyev sülh müqaviləsi üzrə danışıqlar üçün Azərbaycanın təqdim etdiyi beş prinsipin əsas götürüldüyünün vacibliyini vurğulayıb.

Prezident Şarl Mişel Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və Cənubi Qafqaz regionunda davamlı sülhün təmin olunması məqsədilə səylərini bundan sonra da davam etdirəcəyini qeyd edib.

Söhbət zamanı minaların təmizlənməsi və Birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən itkin düşmüş hesab olunan 4000 nəfərə yaxın azərbaycanlının taleyinin müəyyən edilməsi məqsədilə Avropa İttifaqının ölkəmizə dəstək vermək niyyəti təqdir olunub.

Danışıq əsnasında, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2019-cu il oktyabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təliminə dair" Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 aprel 2022-ci il*

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 116-cı kitabı çapdan çıxıb

Azərbaycan sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqdir. Bizim səylərimiz regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsi məqsədi daşıyır.

Bunun üçün ən yaxşı yol kommunikasiyaların açılması, aktiv dialoqun qurulması və yenidən qonşu olmağı öyrənməkdir. Bizim siyasətimiz çox açıq və aydındır. Ümidvaram ki, əgər Ermənistan tərəfindən xoş məram olsa, biz təklif etdiyimiz kimi, iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 116-cı kitabında yer alan bu fikirləri dövlət başçısı 2021-ci il dekabrın 14-də Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberq ilə birgə mətbuat konfransında söyləyib.

Çoxcildliyin bu kitabındakı materiallar 2021-ci ilin noyabr - 2022-ci ilin yanvar aylarını əhatə edir. Kitaba Azərbaycan Prezidentinin Rusiyanın Soçi şəhərinə işgüzar səfəri, Prezident Vladimir Putin ilə ikitərəfli görüşü, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri arasında üçtərəfli görüş və yekun bəyanat, mətbuata birgə bəyanatlar haqqında informasiyalar daxil edilib.

Prezident İlham Əliyev 2021-ci il dekabrın 13-15-də Belçikanın paytaxtı Brüsseldə işgüzar səfərdə olub, səfər çərçivəsində Avropa İttifaqı Şurasının prezidenti




Şarl Mişel, NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşüb. Həmçinin Şimali Atlantika Şurasının iclasında iştirak edib, Yens Stoltenberq ilə birgə mətbuat konfransı keçirib. Bütün bunlar haqqında məlumatlar, eləcə də Azərbaycan Prezidenti, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistan baş nazirinin Brüsseldə üçtərəfli görüşü, dövlət başçısının Avropa İttifaqı "Şərq Tərəfdaşlığı"nın VI Sammitində iştirakı barədə materiallar, İspaniyanın "El Pais", İtaliyanın "İl Sole 24 Ore" qəzetlərinə müsahibələrinin mətnləri yeni kitabda toplanıb.

Oxucu 116-cı cilddə Azərbaycan Prezidentinin Türkmənistana işgüzar səfərinə, İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə toplantısında iştirakına, Pakistan, Tacikistan, İran, Türkiyə prezidentləri ilə Aşqabadda keçirdiyi görüşlərə dair məlumatlarla da tanış ola bilər.

Həmçinin yeni kitaba Prezident İlham Əliyevin Türkiyə, Koreya Respublikası, Rusiya, Pakistan, Gürcüstan, İran, Bosniya və Herseqovina və digər dövlətlərin Azərbaycana səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair informasiyalar daxil edilib.

Dövlət başçısının Quba rayonuna, Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Şuşa şəhərinə səfərindən bəhs edən materiallar da bu nəşrdə yer alıb.

Yeni kitabda Prezident İlham Əliyevin "Azərbaycan Dəmir Yolları" QSC-nin Yeni Biləcəri lokomotiv deposunun açılışı mərasimində iştirakı, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın yeni binası ilə tanışlığı haqqında informasiyalar, yerli televiziya kanallarına müsahibəsinin mətni də oxuculara təqdim edilir.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 116-cı kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Prezident İlham Əliyevin Zəfər qurultayındakı nitqi xarici mətbuatda işıqlandırılıb




Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayındakı nitqi Moldovanın nüfuzlu KİV-i tərəfindən geniş işıqlandırılıb.

Moldovanın "Tribuna", "Noi", "TV 8" xəbər portallarında AZƏRTAC-ın xəbərlərinə istinadla dövlətimizin başçısının nitqindən əsas məqamların təqdim olunduğu məqalələr dərc edilib.

Məqalələrdə Prezident İlham Əliyevə istinadla qeyd olunur ki, Minsk qrupu faktiki olaraq 2019-cu ildən iflic olub. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdi. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, o, məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdı.

Daha sonra dövlət başçısının Zəfər qurultayındakı nitqinə istinadla vurğulanır: "Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".




* * *

Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Qurultayındakı nitqi Gürcüstanın KİV-i tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, 24news.ge, aktual.ge və interpress.ge portallarında Azərbaycan Prezidentinin çıxışı Azərbaycan, ingilis, rus və gürcü dillərində yayımlanıb.

Xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin torpaqlarımızın erməni işğalından azad edilməsi istiqamətində görülən işlər, Gürcüstanda yaşayan soydaşlarımızın 44 günlük Vətən müharibəsindəki roluna verdiyi yüksək qiymət barədə fikirləri əksini tapıb.

Dövlət başçısının söylədiyi nitqlərdən gətirilən sitatlarda deyilir: "Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq dayanırdı. Biz buna öz gücümüzlə nail olduq".

Dövlət başçısı qeyd edib ki, məhz buna görə ordu quruculuğu sürətlə aparılıb, Azərbaycan müasir ordu yaradıb. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi. Bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyil.

# Şuşada Zəfər qurultayının bağlanış mərasimi keçirilib

## Bağlanış mərasimində Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yeni tərkibi müəyyən edilib







Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının - Zəfər qurultayının bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə təltif edilən diaspor nümayəndələrinə "Əməkdar elm xadimi" fəxri adı, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", "Dostluq" ordeni və "Tərəqqi" medalı təqdim edib.

Prezident Administrasiyasının şöbə müdiri Fərəh Əliyeva çıxışında diaspor nümayəndələrini əziz, doğma Şuşada görməkdən şad olduğunu bildirib.

Sonra Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov çıxış ediblər.

Bildirilib ki, Zəfər qurultayının Azərbaycan mədəniyyətinin incisi Şuşa şəhərində baş tutması mühüm tarixi hadisədir. Bu tədbir xaricdə yaşayan soydaşlarımızın doğma Vətən ətrafında daha sıx birləşməsinə və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanmasına mühüm töhfə verəcək.

Qeyd edilib ki, indi əsas məqsəd işğaldan azad edilmiş torpaqların bərpası və azərbaycanlıların ata-baba yurduna qayıdışını təmin etməkdir. Baxmayaraq ki, işğaldan əvvəlki dövrdə Şuşa şəhəri "Qarabağın cənnəti", "Qafqazın konservatoriyası" adlandırılıb, son 30 ildə düşmən Şuşada azərbaycanlılara məxsus bütün tarixi-mədəni irsi dağıtmaqla məşğul olub. İndi Şuşanın, eləcə də bütünlüklə Qarabağın əvvəlki şöhrətini qaytarmaq, Qarabağı dirçəltmək qarşıda duran əsas məqsədlərdəndir. İşğaldan azad olunmuş ərazilərdə qısa müddətdə müasir yol infrastrukturunun qurulması, tarixi, dini və mədəni abidələrin bərpa edilməsi, bir sıra sosial layihələrin həyata keçirilməsi, Şuşanın Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı seçilməsi, tarixi Şuşa Bəyannaməsinin imzalanması və nəhayət, Dünya Azərbaycanlılarının V Qurultayının bu şəhərdə keçirilməsi bir daha sübut edir ki,



Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Şuşa tezliklə dirçələcək, inkişaf edəcək, özünün əvvəlki şöhrətini qaytaracaq və yenə də mühüm mədəni tədbirlərin keçirildiyi məkana çevriləcəkdir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız nəinki Şuşanın, eləcə də işğaldan azad olunmuş digər torpaqlarımızın gələcək sosial, iqtisadi və mədəni inkişafına öz fəaliyyətləri ilə töhfə verə bilərlər.

Eyni zamanda, vurğulanıb ki, tezliklə Şuşada, Daşaltı kəndində müasir beşulduzlu hotellər, turizm və ictimai-iaşə mərkəzləri fəaliyyətə başlayacaq. Qarabağın səfalı təbiəti, füsunkar mənzərələri və turizm imkanlarını nəzərə alsaq, bu potensialın inkişafında və xarici turistlərin buraya cəlb olunmasında soydaşlarımız yaxından iştirak edə bilərlər.

Daha sonra bir qrup diaspor fəalına "Diaspor fəaliyyətində xidmətə görə" medalı təqdim edilib.

Aparılan müzakirələr nəticəsində qurultayın yekun sənədləri - qurultayın qətnaməsi, Dünya Azərbaycanlılarının V Qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayı nümayəndələrinin dünya azərbaycanlılarına müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayının BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatına (UNESCO) və BMT-nin Ətraf Mühit Proqramına (UNEP) müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayının Azərbaycanın Ermənistanın işğalından azad olunmuş ərazilərində yaratdığı mina problemi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciəti yekdilliklə qəbul edilib.

Tədbirdə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yeni tərkibi təsdiq olunub. Prezident İlham Əliyev qurultay iştirakçıları tərəfindən Şuranın sədri, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Şuranın icraçı katibi seçilib.

Yekun sözü ilə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycan diasporuna dövlət qayğısından, diaspor fəaliyyətinin yeni inkişaf mərhələsinə qədəm qoymasından, komitə tərəfindən həyata keçirilən layihələr və tədbirlərdən, beynəlxalq sahədə əməkdaşlıq və perspektiv imkanlardan, milli kimliyin və ana dilinin qorunması məsələlərindən, rəhbərlik etdiyi qurumun informasiya və təşviqat fəaliyyətindən danışıb. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, pandemiya dövründə diasporla işin təşkili, Azərbaycan diasporunun Tovuz döyüşlərindən sonrakı fəaliyyətinə toxunan F.Muradov diasporumuzun Vətən müharibəsi dövründə fəaliyyətindən bəhs edib, xaricdə yaşayan soydaşlarımızın ölkəmizdə şəhid ailələrinə və qazilərə, Azərbaycan Diasporuna Dəstək Fonduna və Silahlı Qüvvələrə Yardım Fondu vasitəsilə, eləcə də komitənin koordinasiyası ilə birbaşa yardımlar etdiklərini diqqətə çatdırıb. Azərbaycanın tanıtımı və təbliğatı istiqamətində görülən işlərə nəzər salan komitə sədri, həmçinin qarşıdakı problemlər və perspektivlər barədə məlumat verib. Vətən müharibəsindəki tarixi Zəfərdən sonra Azərbaycan dövləti kimi, xaricdəki Azərbaycan diasporunun da yeni mərhələyə qədəm qoyduğunu vurğulayan Fuad Muradov deyib: "Təbii ki, amalımız birdir, dəyişməyib və dəyişməyəcək - Azərbaycanın regionda və dünyada daha da güclü, qüdrətli dövlətə çevrilməsi və tanıdılması, yaşadıqları ölkələrdə dövlətimizin imicinin gücləndirilməsi, xalqlar arasında dostluğun gücləndirilməsi. Təbii ki, postmüharibə dövründə diaspor artıq yeni metod və yanaşmalar ortaya qoymalıdır. Gələcək fəaliyyət proqramımızda əsas yeri milli dövlətçiliyimizin intibah dövründə - Zəfər mərhələsində Azərbaycan diasporunu Qarabağın dirçəlişi prosesinə cəlb etmək tutur".

Sonra Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və soydaşlarımıza azərbaycançılıq ideologiyası və yeni məqsədlər uğrunda gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

# YAP və ETSN Beynəlxalq Yer Günü münasibətilə birgə ağacəkmə aksiyası keçiriblər





Aprelin 23-də Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə Beynəlxalq Yer Günü münasibətilə ağacəkmə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı-Şamaxı yolunun Müşfiqabad qəsəbəsi ərazisində keçirilən aksiyada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Milli Məclisin deputatları, YAP İdarə Heyəti, Təftiş Komissiyası, Gənclər Birliyinin üzvləri, YAP Mərkəzi Aparatının əməkdaşları, partiya fəalları və ETSN-in nümayəndələri iştirak ediblər.

Aksiya çərçivəsində Müşfiqabad qəsəbəsi ərazisində 3 hektar sahədə 2000-dən çox müxtəlif növ ağac, əsasən zeytun və Eldar şamı əkilib.

Xatırladaq ki, Beynəlxalq Yer Günü 190-dan çox ölkədə, o cümlədən Azərbaycanda qeyd olunur. Hər il bu əlamətdar gün ilə əlaqədar dünyada milyonlarla insan müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə ağac əkir, yaşıllıqlara qulluq edir, yaşadıqları əraziləri müxtəlif tullantılardan təmizləyir.

# Tarıq ƏHMƏD: "Britaniya hökuməti Azərbaycan və Ermənistanın münasibətləri normallaşdırmaq üçün atdıqları addımları alqışlayır"

Böyük Britaniya hökuməti Azərbaycan və Ermənistanın münasibətləri normallaşdırmaq üçün atdıqları addımları alqışlayır və hadisələri yaxından izləyir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Böyük Britaniya xarici işlər nazirinin müavini Lord Tarıq Əhməd Lordlar Palatasının üzvü Şeyx Məhəmmədin sualını cavablandırarkən söyləyib.

Şeyx Məhəmməd sualında Britaniya hökumətinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərini necə qiymətləndirdiyini və Ermənistanın hər hansı əməkdaşlıq etməməsinin normallaşmaya mane olub-olmayacağını soruşub.

Cavabında nazir müavini Böyük Britaniya hökumətinin tərəflərin regionda sabitliyin və təhlükəsizliyin təmin olunması üçün danışıqlarda iştirakını təşviq etməyə davam edəcəyini bildirib.




## Dünya Azərbaycanlılarının ZƏFƏR QURULTAYI



# Zəfər manifesti

## İlham Əliyev dünya azərbaycanlılarının yeni fəaliyyət platformasını müəyyənləşdirdi



"Bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayında Müzəffər Komandan İlham Əliyev həm Vətən müharibəsindəki Böyük Qələbəni, postmüharibə dövrünün yeni reallıqlarını qiymətləndirdi, həm də dünya birliyinə açıq mesajlar ünvanladı.

Postmünaqişə dövrünün reallıqlarını da dəyərləndirən Prezident məğlub Ermənistan və onun havadarlarına bir daha çatdırdı ki, bundan sonra hansısa siyasi oyun oynamaq mənasızdır. Qarabağ münaqişəsi bitib, status-kvonu Azərbaycan öz gücünə dəyişib və hər kəs bu reallıqları qəbul etməlidir. Ermənistan isə İlham Əliyevin 5 prinsipdən ibarət təkliflərini özündə ehtiva edən sülh müqaviləsini imzalamağa məhkumdur. Çünki istənilən müharibənin sonunda diktə edən qalib tərəf olur.

### Zəfər qurultayının tarixi və rəmzi mənaları

Öncə onu qeyd edək ki, Dünya Azərbaycanlılarının I Qurultayı Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II qurultay Prezident İlham Əliyevin sərəncamına əsasən 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay isə 2016-cı ildə keçirilib.

Dünya Azərbaycanlılarının V qurultayının məhz "Şuşa ili"ndə qədim Zəfər qalamızda qeyd edilməsinin çox böyük tarixi və rəmzi mənası oldu.

Bu qurultay şanlı qələbədən sonra dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirdi. Müzəffər Komandan məhz buna görə də budəfəki toplantını Zəfər qurultayı adlandırdı.

İlham Əliyevin qurultayda konseptual xarakter daşıyan nitqi postmünaqişə dövründə ölkəmizin mövqeyi ilə yanaşı, diaspor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın şəkildə özündə ehtiva etdi.

Quraltay iştirakçılarının hamılıqla səsləndirdiyi "Qarabağ Azərbaycandır!" şüarının sədası bütün Qarabağa, Şərqi Zəngəzura yayıldı. Xankəndidə və Rusiya sülhməramlılarının nəzarəti altındakı Azərbaycan torpaqlarında yaşayan Qarabağın erməni əhalisinə bir daha bəlli oldu ki, bundan sonra tarix boyu Azərbaycan bayrağının kölgəsi altında yaşayacaqlar.

Prezident qurultayın həm də çox böyük tarixi mənasının olduğunu da diqqətə çatdırdı.

2016-cı ildə keçirilən IV qurultay zamanı da Azərbaycan qələbə əhvali-ruhiyyəsində idi. Aprel döyüşlərində əldə edilən qələbədən sonra düşmənin öz ordusu haqqında yaratdığı "miflər" məhv oldu. İlham Əliyev bir daha Ermənistana xəbərdarlıq edərək bildirdi ki, istənilən təxribata cavab veriləcək və növbəti əks həmlələr işğalçı üçün daha betər olacaq.

Cəmi 4 il sonra tarixi an yetişdi və Azərbaycan haqq savaşına qalxdı. Ermənistan cəmi 44 günə Azərbaycan qarşısında diz çökdü. 30 illik münaqişəyə Azərbaycan öz gücü, qüdrəti ilə son qoydu və Dağlıq Qarabağ problemini həll etdi. İlham Əliyev Azərbaycan tarixinə xilaskar və Müzəffər Komandan kimi adını yazdırdı.

### Prezident diasporumuz qarşısında yeni vəzifələr müəyyənləşdirdi

Şuşa qurultayında əsas mövzular arasında postmüharibə dövründə diaspor fəaliyyətinin təşkili dayanırdı. Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında fəallıq göstərən insanlar onillərdən bəri xalqımızın haqq mübarizəsinin ən parlaq nəticəsi - mərd oğulların dastan yazdığı doğma Şuşa şəhərində bir araya gəldilər.

Zəfər qurultayı yeni reallıqlar şəraitində Azərbaycan diasporunun fəaliyyəti üçün həm də yol xəritəsi oldu. Qeyd etməliyik ki, Vətən müharibəsi başlayarkən xarici ölkələrdə yaşayan soydaşlarımız, diaspor üzvləri mütəşəkkil şəkildə birləşərək erməni barbarlığını, Azərbaycan həqiqətlərini dünyaya bəyan etdilər.

Prezident isə onlara həm də postmünaqişə dövrünün reallıqları fonunda görüləcək işlərin yol xəritəsi və yeni vəzifələri müəyyənləşdirdi.

Müharibə zamanı xaricdə yaşayan soydaşlarımızın apardığı informasiya müharibəsinin bu gün də davam etdirilməsini vacib məsələ hesab edən İlham Əliyev bildirdi ki, müharibə bitsə də, ölkəmizə qarşı olan ərazi iddiaları hələ başa çatmayıb. Ancaq bu da tezliklə başa çatacaq: "Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki bu iddialar var və biz buna hazır olmalıyıq".

Prezident dedi ki, xaricdə yaşayan gənc azərbaycanlılar həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməli, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, milli maraqların müdafiə edilməsi, dövləti daha da gücləndirir.

Beləliklə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük rol oynayan diaspor üzvləri geri döndükdən sonra yeni layihələr işləyib hazırlayacaq, fəaliyyətlərini müasir dövrün tələblərinə uyğun formada quracaqlar.

### Ermənistanin son şansı

İlham Əliyev qurultayın açılışında çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan postmüharibə dövrünə tam hazırdır və öz sülh gündəliyini təqdim edir. Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə Azərbaycan bir daha xoş niyyətini göstərir.

Son vaxtlar isə əlaqələrin normallaşması məsələsi gündəlikdədir. Avropa İttifaqının təşəbbüsü ilə keçirilən sülh danışıqları zamanı müəyyən razılaşmalar da olub. Amma yenə də bu məsələdə gündəliyi İlham Əliyev müəyyənləşdirir. Əgər belə olmasaydı, Ermənistan Qalib Komandanın irəli sürdüyü 5 prinsipdən ibarət təklifi qəbul etməzdi.

Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. İlham Əliyev hesab edir ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və məhz beş prinsip əsasında danışıqları aparmaq fikrindədir.

Hazırda iki ölkənin xarici işlər nazirlikləri işçi qrupları formalaşdırır və yaxın gələcəkdə konkret danışıqlara başlanılacaq. İlham Əliyev danışıqların çox uzanmasının tərəfdarı deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlanıb imzalana bilər. Bu isə iki ölkə arasında münasibətlərin yenidən formalaşmasını təmin etmək üçün yetərli olacaq.

Müzəffər Komandan eyni zamanda Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələrə də səsləndi: "Həmin qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".

Beləliklə, Zəfər qurultayı Azərbaycan diasporunun tarixində yeni bir mərhələnin başlanğıcı oldu. İlham Əliyevin yeni dövrün inkişaf strategiyası ilə bağlı bütövlükdə dünya azərbaycanlıları üçün əsas hədəfləri müəyyənləşdirdi, tövsiyə və tapşırıqlarını verdi, eyni zamanda iqtisadi cəhətdən tənəzzülə uğrayan məğlub Ermənistana sonuncu şansı verdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## *Seymur NƏSİROV:* "Prezident İlham Əliyev Zəfər qurultayındakı nitqində növbəti beş il üçün diasporumuz qarşısında duran vəzifələri müəyyənləşdirdi"



*"Dünya Azərbaycanlılarının IV Qurultayında Prezident İlham Əliyev bizim gələcək 5 il ərzində fəaliyyətimizlə bağlı yol xəritəsi müəyyənləşdirmişdi. Dövlət başçısı o zaman bizim həm yaşadığımız ölkənin dilini yaxşı bilməyimizin önəmli olduğunu, həm də ana dilimizi unutmayaraq öz övladlarımıza yaxşı öyrətməyimizin vacibliyini bildirmişdi".*

Bu sözləri AZƏRTAC-a açıqlamasında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov söyləyib.

Bu günədək 1150-dən çox misirli tələbəyə Azərbaycan dilini tədris etdiklərini bildirən S.Nəsirov deyib: "Biz tələbələrə təkcə Azərbaycan dilini yox, həm də ölkəmizin mədəniyyətini, coğrafiyasını, həqiqətlərini aşılayırıq. Biz bunun Vətənimizin təbliği və əlaqələrin inkişafı üçün nə qədər önəmli olduğunu görürük".

Prezident İlham Əliyevin Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayındakı nitqində gələcək beş il üçün Azərbaycan diasporunun qarşısında duran vəzifələr barədə yol xəritəsi müəyyənləşdirdiyini vurğulayan diaspor nümayəndəsi qeyd edib ki, dövlətimizin başçısı diasporumuz qarşısında azərbaycançılıq məfkurəsinin təbliğatı ilə bağlı işlər görmək vəzifəsini qoydu.

## *Nəriman QURBANOV:* "Qurultayın Şuşa şəhərində keçirilməsi bizim üçün sevinc və qürurludur"

*"Şuşada Dünya Azərbaycanlılarının V Qurultayında iştirak etməkdən qürur duyuram. İnanıram ki, qurultayda iştirak edən Gürcüstandan olan soydaşlarımız da mənim kimi qürurludurlar. Biz bölgədə yaranmış yeni reallıqları diqqətlə izləyirik, öyrənirik. Burada həyata keçirilən quruculuq və bərpa işləri bizi çox sevindirir".*

Bu sözləri qurultayda iştirak edən Gürcüstanda Azərbaycanlı İş Adamları Birliyinin idarə heyətinin sədri Nəriman Qurbanov tədbirlə bağlı təəssüratlarını AZƏRTAC-a bölüşərkən söyləyib.

O deyib: "Dünya Azərbaycanlılarının V Qurultayının Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun düşmən işğalından azad etdiyi, Azərbaycan mədəniyyətinin paytaxtı, Qarabağın incisi olan Şuşa şəhərində keçirilməsi bizim böyük sevinc və qürur hissimizdir. 30 illik həsrətdən sonra nə xoşdur ki, biz ilk dəfə olaraq Şuşada görüşdük. Bu tarixi Zəfər hər bir azərbaycanlının qələbəsidir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bizə qələbə sevincini yaşadan qüdrətli Ordumuza bir daha təşəkkür edirəm. Allah şəhidlərimizə rəhmət eləsin".

Bildirilib ki, bu gün hər kəs Qarabağda aparılan bərpa və quruculuq işlərini böyük ruh yüksəkliyi ilə izləyir. Əlbəttə ki, Dünya Azərbaycanlılarının V Qurultayında Prezident İlham Əliyev olmaqla, hər bir iştirakçının işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı quruculuq işləri ilə əlaqədar olan fikirləri bizim üçün çox vacibdir. Bizlər də öz növbəmizdə, öz fəaliyyətimizlə bölgədə yeni imkanları nəzərdən keçiririk və bu istiqamətdə öz səylərimizi daha da artırmaqda davam etməliyik və edəcəyik".

N.Qurbanov Azərbaycanın diaspor siyasətinin inkişaf perspektivlərini də yüksək qiymətləndirib. Bildirib ki, Vətən



müharibəsində tarixi faktların dünya ictimaiyyətinə və mətbuatına çatdırılmasında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin səylərini yüksək qiymətləndiririk. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, tarixi həqiqətlərin dünyaya, o cümlədən Gürcüstan ictimaiyyətinə çatdırılması hər bir soydaşımızın diqqət mərkəzində olub və bu gün də davam edir. Azərbaycan cəmiyyətləri və dərnəklərinin fəaliyyətinin gücləndirilməsi, əməkdaşlığın daha da möhkəmləndirilməsi, diasporumuzun daha da mütəşəkkil formada təşkilatlanması işinə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin göstərdiyi dəstəyin zəruriliyi kimi vacib məqamları bizlər hər zaman hiss etmişik.

"Gürcüstanda yaşayan soydaşlarımız bundan sonra da Azərbaycan dövlətinə dəstəyini davam etdirəcək və vahid azərbaycançılıq ideyası ətrafında daha sıx birləşəcəklər. İnanıram ki, digər ölkələrdəki diaspor təşkilatlarımız da bu ideya ətrafında daha sıx birləşəcək, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında səylərini daha da artıracaqlar", - deyə N.Qurbanov vurğulayıb.

# Manatın məzənnəsi dəyişəcəkmi?

## Qlobal inflyasiyanın fəsadlarından Azərbaycan qoruna bilir



Manatın məzənnəsinin sabit qalmasında əsas amil olan neftin qiymətlərinin dünya bazarında yüksək olması məzənnə dayanıqlığını təmin edir. Bununla yanaşı, Rusiya-Ukrayna münaqişəsi, geosiyasi vəziyyət fonunda dünya bazarında qiymət artımları, ölkədə manatın məzənnəsi ilə bağlı müxtəlif fikirlər formalaşdırır.

### Valyuta bazarında tarazlığı dəstəkləyən amillər

Azərbaycan Mərkəzi Bankından (AMB) qəzetimizə bildirilib ki, ölkədə qiymətlərin sabitliyinin əsas lövbəri olan məzənnə sabitliyinə təsir göstərən fundamental faktor tədiyə balansıdır. 2021-ci ildə qlobal əmtəə bazarlarında qiymətlərin bərpası və qeyri-neft ixracının əhəmiyyətli artımı ilə cari əməliyyatlar hesabının profisiti 8,3 milyard dollar və ya ÜDM-in 15,2 faizini təşkil edib.

2022-ci ilin ötən dövründə brent markalı neftin orta qiyməti 100 ABŞ dollarına yaxın olub ki, bu da ötən ilin orta qiymətindən (71 ABŞ dolları) əhəmiyyətli dərəcədə çoxdur. Əsas ixrac əmtəələri üzrə dünya qiymətlərinin yüksəlməsi 2022-ci ilin sonuna tədiyə balansında ümumi daxili məhsula nisbətdə ikirəqəmli səviyyədə profisitin yaranacağı ehtimalını artırır ki, bu da valyuta bazarında tarazlığı dəstəkləyən başlıca amildir.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2022-ci ilin ötən dövründə qiymətlərin illik əsasda ümumi artım səviyyəsi 12,1 faiz, orta illik artım səviyyəsi isə 12,2 faiz təşkil edib.

### Manatın məzənnəsinin dayanıqlığı

AMB-nin məlumatına əsasən, mahiyyət etibarilə qiymət artımları məzənnəyə yox, əksinə, məzənnə inflyasiyaya təsir göstərən əsas amillərdən biridir. Hazırda manatın məzənnəsinin valyuta bazarında təklif kanallarının genişlənməsi şəraitində formalaşması inflyasiya səviyyəsinə və inflyasiya gözləntilərinə azaldıcı təsir göstərir.

Geosiyasi və geoiqtisadi risklərlə bağlı yaranmış yeni situasiya qlobal inflyasiya risklərini əhəmiyyətli dərəcədə yüksəldib. Belə ki, fevral ayının sonundan başlayaraq qlobal birja əmtəələrinin, xüsusilə də enerji daşıyıcılarının və taxıl məhsullarının qiymətləri tarixi rekordları yeniləyərək yüksək inflyasiyanın qalıcılığına şərait yaradıb. Bu şəraitdə ölkə iqtisadiyyatında qiymətlərin səviyyəsinin yüksələn idxal qiymətlərindən təsirlənməsi potensialı artıb. Digər tərəfdən Azərbaycanın əsas ixrac məhsullarının bahalaşması tədiyə balansının profisitini artırır ki, bu da qiymətlər sabitliyinin əsas lövbərini - milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyir. Məzənnənin dayanıqlığı isə öz növbəsində qiymətlərə azaldıcı təsir edir.

### Manatın məzənnəsinin dəyişməsi Mərkəzi Bankın mövqeyindən asılıdır

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan milli valyutasına təsir göstərən ən ciddi faktor neftin dünya bazarındakı qiymətidir, çünki neftin dünya bazarındakı qiyməti ölkəyə daxil olan valyutanın həcminə birbaşa təsir göstərir.

Deputatın sözlərinə görə, hazırda neftin dünya bazarındakı qiyməti hər barel üçün 100 dollardan yüksəkdir. Eyni zamanda Azərbaycanın ticarət tərəfdaşlarındakı mövcud məzənnə də milli valyutanın məzənnəsinə həm iqtisadi, həm siyasi, həm də psixoloji təsir göstərir. Çünki iqtisadi baxımdan həmin ölkələrlə ticari əlaqələrimizdə yalnız manat deyil, həmin ölkələrin valyutalarının məzənnəsi xüsusi əhəmiyyət daşıyır. Rusiya-Ukrayna münaqişəsi fonunda bir sıra ərzaq məhsullarının qıtlığının yaranması, həmçinin qlobal ərzaqların qiymətlərində artım müşahidə edilir. Hələlik bu, daha çox istehlak bazarına təsir göstərir. Valyuta bazarına təsirlər strateji məhsullar bazarındakı birjalarda qiymətdən asılı olaraq dəyişir. V.Bayramovun fikrincə, bunun bütövlükdə istehlak qiymətlərinə və sosial inflyasiya səviyyəsinə təsir göstərəcəyi də gözlənilir: "Birinci rübün nəticələri göstərir ki, inflyasiyada artım var, amma manatın məzənnəsi ölkəyə daxil olan valyutanın həcmindən asılıdır. Azərbaycanda üzən məzənnə rejimi tətbiq olunmadığı üçün növbəti dövrdə manatın məzənnəsinin necə dəyişməsi birbaşa Mərkəzi Bankın mövqeyindən asılıdır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qarabağ və Şərqi Zəngəzurda ən müasir həyat standartları yaradılır

İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işləri sürətlə və sistemli şəkildə davam edir. Bu torpaqları azad edən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə şəhər və kəndlərimizə yeni həyat bəxş olunur.

Bərpa və quruculuq işləri isə kompleks şəkildə həyata keçirilir. Həm yeni infrastrukturlar inşa edilir, həm Qarabağ və Şərqi Zəngəzurun iqtisadiyyatı bərpa olunur, həm də keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün təsdiqlənmiş baş planlara uyğun olaraq yaşayış məhəllələri salınır, kəndlər "ağıllı" konsepsiyalarla yenidən qurulur.

### İlham Əliyev su ehtiyatlarımızı da işğaldan azad etdi

Aprelin 21-də Prezident İlham Əliyevin Füzuli və Şuşa rayonlarında görülən və görüləcək işlərlə tanışlığı da göstərdi ki, azad edilmiş ərazilərin bərpası kompleks məzmun daşıyır. Quruculuq işləri zamanı bu ərazilərin təbii ehtiyatlarından və resurslarından səmərəli istifadə edilməsi də diqqət mərkəzindədir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurun su ehtiyatlarından səmərəli istifadə, bunun hesabına yeni torpaqların əkinçiliyə cəlb olunması, müəyyən ərazilərdə suvarmanın keyfiyyətinin yüksəldilməsi hazırda yeni iqtisadi vəzifələr kimi özünü göstərir.

Səfər zamanı Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış oldu. "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurun böyük su ehtiyatları var. Bu ərazilərdə Azərbaycanın su ehtiyatlarının 20-25 faizinin toplandığı təxmin olunur. İşğal dövründə çaylarımız, su anbarlarımız da düşmənin əsarətində idi və Ermənistan bundan Azərbaycana qarşı bir silah kimi istifadə edirdi. Yay aylarında çayların qarşısını kəsir, qışda isə açırdı. Hərbi təcavüz nəticəsində Ermənistan tərəfindən Azərbaycanın on minlərlə hektar ərazisini su ilə təmin edən suvarma kanalları şəbəkəsi, kollektor və drenajlar, artezian quyuları, hidrotexniki tikinti obyektləri, su-elektrik və nasos stansiyaları dağıdılıb, yararsız hala salınıb. Mövcud su anbarlarının qəsdən məhv edilməsi də Ermənistanın Qarabağda dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarları buna bariz misaldır. Bütün bunların nəticəsində on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olmuşdu.

Vətən müharibəsinin nəticəsi olaraq, İlham Əliyev Şərqi Zəngəzurun və Qarabağın su ehtiyatlarını da işğaldan azad etdi. Bununla həm də Ermənistan üzərində mühüm hidro qələbə qazanıldı. Qələbədən sonra dərhal başlanan bərpa işlərinin bir istiqamətini də azad edilmiş ərazilərin su ehtiyatlarından səmərəli istifadə təşkil edir. Bunu ötən il Laçın və Kəlbəcərdə su-elektrik stansiyalarının inşası da təsdiq edir. Bu il isə daha bir neçə su-elektrik stansiyası tikiləcək. Bununla yanaşı, hazırda işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı inşa olunur. Şərqi Zəngəzurun və Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə bu ərazilərin iqtisadi inkişafına və aparılan bərpa-yenidənqurma işlərinə böyük töhfə verəcək, o cümlədən aqrar sahənin yüksəlişində mühüm rol oynayacaq.

### Azad edilən bütün əraziləri bir-birinə bağlayan mükəmməl yol şəbəkəsi

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən və həcminə görə ən böyük quruculuq sahəsi yolların çəkilməsidir. Azad olunmuş ərazilərdə ilk layihələr də elə yollarla bağlı olub. Suqovuşandan başlayan bu işlər tezliklə işğaldan azad edilən bütün əraziləri bir-birinə bağlayan yol şəbəkəsinin formalaşdırılması üçün meqalayihələrin həyata keçirilməsi ilə əlamətdardır. Ötən il Şuşaya çəkilən Zəfər yolu, habelə Suqovuşana aparan yollar istifadəyə verilib.

Prezident İlham Əliyev aprelin 21-də Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə də tanış olub. Qeyd edək ki, bu yolun əsas önəmlərindən biri Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir. Hazırda yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır. Bu yol istifadəyə verildikdən sonra Şuşaya avtomobillə daha tez və rahat çatmaq mümkün olacaq.



Yolun cəmi 10 ay əvvəlki vəziyyəti ilə hazırkı mərhələsini müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyil. Bu da onu göstərir ki, Prezident İlham Əliyevin qayğısı ilə həyata keçirilən bu işlər ən yüksək standartlar səviyyəsində aparılır. İlham Əliyevin yolun inşası ilə yerində tanış olması da dövlət başçısının həyata keçirilən quruculuq işlərinə olan yüksək diqqətinin təcəssümüdür.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan bu yol-nəqliyyat infrastrukturu işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq.

Qarabağın mirvarisi, qələbəmizin rəmzi olan Şuşada da şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Bu səfər zamanı Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi, həmçinin tullantıların idarə olunması poliqonunda gedən işlərlə də tanış oldu.

Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycanın milli prioritetidir. Bunu dövlət başçısının bu ərazilərə mütəmadi səfərləri, görülən işlərdə yerində tanış olması da göstərir. Görünən odur ki, azad olunmuş ərazilərimiz yüksək səviyyədə bərpa olunur, yenidən qurulan bütün şəhər və kəndlərimizdə müasir həyat standartları yaradılır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Sözdə deyil, əməldə əsl dost qayğısı

## Azərbaycan indiyədək Ukraynaya 28 milyon manat dəyərində humanitar yardım göstərib

Müasir Azərbaycan dövləti müxtəlif sahələrdə dünyaya nümunə göstərən ölkələrdən biridir. İqtisadi qüdrəti getdikcə artan dövlətimizin həyata keçirdiyi siyasətin tərkib hissəsindən biri maddi və humanitar yardma ehtiyacı olan ölkələrə yardım etmək, əl tutmaqdır.



Ümumiyyətlə isə, humanitar yardımın göndərilməsi müxtəlif fəlakətlərə, məşəqqətlərə düçar olan ölkə ilə həmrəylik nümayiş etdirir ki, bu da bütövlükdə beynəlxalq sabitliyin və əmin-amanlığın güclənməsinə dəstək deməkdir.

Bir vaxtlar özünün humanitar yardımlara ehtiyacı olan Azərbaycan bu gün özü donor ölkəyə çevrilib. Qlobal pandemiya vaxtı Azərbaycanın 80-dən çox ölkəyə maddi və humanitar yardımlar etməsi də bunun əyani təzahürüdür. Əlbəttə ki, bu siyasət beynəlxalq təşkilatlar, dövlətlər tərəfindən təqdir edilir.

Prezident İlham Əliyevin siyasətinin mərkəzində hər zaman insan amili dayandığı üçün Azərbaycan dövləti darda olan, köməyə ehtiyacı yaranan başqa ölkələrin vətəndaşlarına da humanitar yardımlarını əsirgəmir. Xüsusən də dost ölkələrdə müəyyən narahatçılıq yarandıqda ilk yardım göstərən dövlətlərdən biri hər zaman Azərbaycan olur. Elə son aylarda Ukraynada yaşanan münaqişə zəminində ölkəni tərk edən əhalinin ehtiyaclarının ödənilməsi istiqamətində də atılan addımlar bunu bir daha təsdiqləyir. Azərbaycan Prezidentinin göstərişi ilə dost ölkənin əhalisinə indiyədək 4 dəfə humanitar yardım göndərilib. Sonuncu dəfə humanitar yardım aprelin 21-də reallaşdı. Çəkisi 170 tondan çox olan yardıma 3,37 milyon manat məbləğində dərman vasitələri və tibbi sərfiyyat malları, eləcə də 1 milyon manat məbləğində qida məhsulları Polşa ərazisində məskunlaşan ukraynalı məcburi köçkünlərin ehtiyaclarını qarşılamaq üçün Varşava Hava Limanına yola salındı.

Azərbaycan Ukraynaya ilk yardımı fevralın 27-də göndərib. O zaman Prezident İlham Əliyevin tapşırığı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən Ukrayna əhalisinə humanitar yardım məqsədilə təcili və təxirəsalınmaz hallarda tibbi yardımın göstərilməsi üçün dərman preparatları və tibbi avadanlıqlar göndərilib. Göndərilən dərman vasitələri, tibbi məhsullar cihaz və avadanlıqlardan ibarət yardımın ümumi dəyəri 6 milyon avro məbləğində idi.

Martın 12-də isə qida məhsulları, tibbi ləvazimatlar və dərmanlardan ibarət 380 tonluq, 5,5 milyon avrodan artıq olan yardım təyyarə ilə Ukraynaya çatdırılıb. Yardımın daşınması məqsədilə gün ərzində uçuşlar həyata keçirilib. Növbəti, məbləği 1,7 milyon manatdan çox olan 29 tonluq 3-cü humanitar yardım isə aprelin 15-də Ukraynada yaşanan böhran nəticəsində Moldova Respublikası ərazisinə keçmiş ukraynalı məcburi köçkünlərin ehtiyaclarının qarşılanması məqsədilə Azərbaycan dövləti tərəfindən yola salınıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəstəyi ilə həyata keçirilən bu addım Ukrayna və Moldova rəsmiləri tərəfindən yüksək qiymətləndirilib. Onu da qeyd etmək lazımdır ki, hazırda 400 mindən çox ukraynalı qaçqın müvəqqəti olaraq Moldova ərazisində yerləşib.

Ümumilikdə, ölkəmizin Ukraynadakı böhranla bağlı göstərdiyi humanitar yardımın ümumi məbləği 27,6 milyon manat (15 milyon avro), çəkisi isə 720 ton təşkil edir.

Yeri gəlmişkən, Ukraynada münaqişənin başlandığı vaxtdan bu ölkənin Azərbaycandakı səfirliyi azərbaycanlı könüllülərlə birlikdə sadə vətəndaşlar və biznes nümayəndələrinin dəstəyi ilə ölkəni tərk etmiş ukraynalıların ehtiyaclarına uyğun 30 ton humanitar yardım toplamışdı. Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski öz sosial şəbəkə hesabında yığılan yardımın Kiyevə yola salındığını vurğulamışdı. Yardımın yükləndiyi yük maşınlarınn fotosunu paylaşan V.Kanevski həmçinin bildirmişdi ki, qardaş ölkədən edilən humanitar yardım sözlə deyil, əməllə verilən dəstəkdir. Hazırda isə səfirlik humanitar yardımın toplanması üçün Azərbaycan manatı və ABŞ dolları ilə iki xüsusi bank hesabı açıb.

Azərbaycan dövlətinin Ukrayna xalqına qarşı göstrdiyi diqqəti dəyərləndirən səfir Vladislav Kanevski mətbuata açıqlamasında bildirib ki, Ukrayna üçün böyük əhəmiyyət daşıyan 7-ci təyyarə yola düşüb. Çox çətin bir məqamda Azərbaycanın göndərdiyi humanitar yardımlar Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlığın yüksək səviyyəsinin parlaq təsdiqidir: "Bu həqiqətən də ehtiyac duyduğumuz yardımdır. Həmçinin hər iki xalq arasında olan dostluğun növbəti sübutudur". Diplomat bu qayğı və dəstəyə görə Ukrayna xalqı adından Azərbaycan Prezidentinə səmimi minnətdarlığını bildirərək əlaqələrin, münasibətlərin bundan sonra daha da dərinləşəcəyinə əminliyini vurğulayıb.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Dövlətin bir əli sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarının üzərindədir

Dünyada, o cümlədən regionda baş verən məlum hadisələr əksər ölkələrin sosial-iqtisadi düzənini pozmasına baxmayaraq, Azərbaycan həmin sınaqlardan ən az itki ilə çıxan dövlətlər sırasında oldu.

Üstəlik, bütün bu illər ərzində Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində Azərbaycan vətəndaşının rifahının təmin edilməsi dayandı. Bu məqsədlə həyata keçirilən sosial islahatlar davamlı xarakter aldı və icra edilən həmin islahatlar ilk növbədə vətəndaşın məmnunluğuna hesablandı.

Məhz bu islahatlar sayəsində sosial müdafiə və aktiv məşğulluq proqramları daha da genişlənib, həssas qrupların sosial təminatı üçün ödənişlər artırılıb, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf şəkildə təmin edilməsi istiqamətində mühüm işlər görülüb.

Məlumdur ki, şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu kateqoriyadan olan insanların sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən onların mənzil, fərdi ev və avtomobillə təmin edilməsi bunun əyani nümunəsidir. Yeri gəlmişkən qeyd edək ki, 2018-ci ildən ötən ilin sonunadək 12300 şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin olunmuşdur. Amma bu sahədə görülən işləri daha da sürətləndirmək məqsədilə dövlət başçısı tərəfindən 2021-ci il 25 yanvar tarixli sərəncam imzalandı. Həmin sərəncamın icrası sayəsində həssas kateqoriyadan olan ailələr 11 min mənzil və ya fərdi evlə təmin ediləcək. Prezident İlham Əliyevin vurğuladığı kimi, dünyanın heç bir ölkəsində şəhid ailələrinə və müharibə əlillərinə belə bir qayğıkeşlik göstərilmir.

Sosial sahədə aparılan islahatlar və dövlət başçısı tərəfindən qəbul edilən qərarlar ardıcıl şəkildə davam edir. Məsələn, Prezident İlham Əliyevin 2021-ci il 16 oktyabr tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı sosial islahatların yeni mərhələyə keçməsinə imkan yaradıb. Həmin sənədin imzalanması ölkəmizdə 1,2 milyon vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılmasına imkan verib. Ümumiyyətlə, son 4 ildə dövlət başçısı tərəfindən əhalinin rifahının yaxşılaşdırılması istiqamətində bir sıra mühüm sənədlər imzalanmışdır. Bu dövrdə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artmışdır. Minimum pensiyada 2,2, müavinət və təqaüddə orta hesabla 2,5 və ya 3 dəfə, bəzi istiqamətlərdə isə 3 dəfədən çox artım baş vermişdir. Ümumilikdə isə 2018-ci ildən sonra dövlət başçısının imzaladığı fərman və sərəncamlarla ölkə əhalisinin yarısını əhatə edən 3 sosial islahat paketi icra olunmuşdur. Bu paketlərin maliyyə dəyəri 6,5 milyard manata çatmışdır.

Ölkəmizdə həssas kateqoriyadan olan şəhid ailələri və müharibə əlilləri daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə demişdir: "Bizim şəhid ailələri, müharibə əlilləri üçün inşa etdiyimiz evlərin, mənzillərin sayı artır. Bu həm işğal dövründə prioritet məsələlərdən biri idi və İkinci Qarabağ müharibəsindən sonra bu məsələlər öz həllini tapır. Burada məsələ qoyulmuşdur ki, şəhid ailələrinin - həm Birinci Qarabağ müharibəsinin, həm də İkinci Qarabağ müharibəsinin şəhid ailələrinin, müharibə əlillərinin yaşayış məsələləri tezliklə öz həllini tapsın. Bu istiqamətdə bu il və keçən il önəmli addımlar atılmışdır".

Dövlət başçısına həmin müşavirədə məlumat verildi ki, ötən il 3 minədək, ilin birinci rübündə isə 200 mənzil bu kateqoriyadan olan insanlara təqdim olunub. Ümumiyyətlə, ilin sonunadək bu kateqoriyadan olan 1500 vətəndaşın mənzillə təmin olunması nəzərdə tutulub.

Şəhid ailələri üzvlərinin və müharibə əlillərinin mənzillə təminatı ilə yanaşı, məşğulluğu da unudulmur. Məşğulluq proqramlarının icrası zamanı görülən işlər sayəsində şəhid ailələrinin 11 min üzvü və müharibə əlili işlə təmin edilmişdir. Onların yarısı özünüməşğulluq proqramlarına cəlb edilmiş və ya kiçik ailə təsərrüfatlarının qurulmasına imkan yaradılmışdır. Bununla yanaşı, məşğulluq marafonu çərçivəsində 2 mindən çox şəhid ailəsi üzvü və müharibə əlili işlə təmin edilmişdir.

Sonda bir daha vurğulayaq ki, dövlətin apardığı sosial siyasətin əsas məqsədi cəmiyyətin bütün kateqoriyalarından olan həssas insanların ehtiyacının ödənilməsidir. Sosial islahatların davamlı xarakter daşıması da bu məqsədə xidmət edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 19 sentyabr (cümə axşamı) tarixli II nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



Həftədə iki dəfə çıxır.

Birinci nəşr ili.

Redaksiya ünvanı:
Gəncə ş., Bulatovskaya küçəsi, N-26.

Nömrənin qiyməti 1 rubl.

# AZƏRBAYCAN

Elan qiyməti: 1-ci səhifədə sətri 3 rubl;
2-ci və 4-cü səhifədə 2 rubl.
Şəxsən müraciət üçün redaksiya
saat 10-dan gündüz 2-yə qədər açıqdır.

Abunə şəraiti: Yanvarın 1-dək
Gəncədə 30 rublə, aylığı 8 rublə;
başqa yerlər üçün
40 rublə, aylığı 10 rublə.

## ƏDLİYYƏ NAZİRLİYİ ƏMRLƏRİ

Cavanşir sülh məhkəməsi hakiminin köməkçisi Bahadır bəy Yusifbəyov – Ağdam sülh məhkəməsinə sədr;

Gəncə nahiyə məhkəməsinin xüsusi vəkili Mamay bəy Şıxlinski – Qazax sülh məhkəməsinə hakim;

Maarif Nazirliyi kargüzarı Məmməd-səid Axundzadə – Hərbi məhkəmə prokurorunun sərəncamına verilməklə, Ədliyyə Nazirliyinə kargüzar;

Gəncə nahiyə məhkəməsinin üzvü Hidayət bəy Soltanov – eyni məhkəməyə sədr müavini;

Zaqatala nahiyəsi vergi müfəttişi İsmayıl bəy Şahmalıyev – Gəncə nahiyə məhkəməsinə üzv;

Kutaisi nahiyə məhkəməsinin ştatdan çıxarılmış üzvü Viktor Aleksandroviç Batalin – Gəncə uyezd sülh məhkəməsinin 2-ci şöbəsinin hakiminin köməkçisi;

Ərəş sülh məhkəməsinin pristavı Yaqub Səidov – sülh hakimi köməkçisi və Zəyəm sülh məhkəməsinin sədri;

İrəvan nahiyə məhkəməsinin Naxçıvan şöbəsi hakiminin sabiq köməkçisi Heydər bəy Şahtaxtinski – Gəncə şəhər sülh məhkəməsi hakiminin köməkçisi;

Nuxu sülh məhkəməsinin pristavı Timofey Mixayloviç Zayçikov – Nuxu hakiminin köməkçisi və Vartaşen istintaq şöbəsinə rəis;

Gəncə nahiyə məhkəməsinin xüsusi vəkili Abbasqulu bəy Ağahüseynov – Gəncə uyezdi sülh məhkəməsinə hakim;

Göyçay sülh məhkəməsinin katibi Soltan bəy Məlikov – hakim köməkçisi və Kürdəmir sülh məhkəməsinə sədr;

Bum sülh məhkəməsinin pristavı Əziz bəy Paşabəyov – Nuxu sülh məhkəməsi hakiminin köməkçisi və Bum sülh məhkəməsinə sədr;

Şamaxı şəhər sakini Məmmədqasım Abdullayev – Göyçay sülh məhkəməsinə pristav;

Gəncə nahiyəsinin sabiq kiçik torpaq texniki Vladimir İvanoviç Semyonov – Gəncə nahiyəsi 2-ci cərgə torpaq texniki;

Asxabad nahiyə məhkəməsi xüsusi vəkili Xanlar bəy Ağayev – Qaryagin sülh məhkəməsinə hakim;

Gəncə nahiyəsi 1-ci cərgə torpaq texniki Nikolay Nikitıç Qlesiyev – eyni nahiyəyə böyük torpaq texniki;

Cəbrayıl sülh məhkəməsi hakiminin köməkçisi Stefan İosifoviç Stıpinski – Gəncə uyezd məhkəməsi hakiminin köməkçisi və 4-cü istintaq şöbəsi rəisi;

Azərbaycan Cümhuriyyəti Baş Nazirinin şəxsi katibi Bəylər bəy Əlibəyov – Cəbrayıl sülh məhkəməsi hakiminin köməkçisi və istintaq şöbəsinin rəisi;

Azərbaycan Korpus Qərargahının sabiq topoqrafı poruçik Viktor Maksimoviç Valobuyev – Gəncə quberniya idarəsinə torpaq texniki;

Andlı vəkil köməkçisi Rza bəy Həzrət bəy oğlu Atabəyov – Şamaxı sülh məhkəməsinə hakim;

Ağdam sahəsinin arxiv işçisi Həsən bəy Əli bəy oğlu Kələntərbəyov – Göyçay sülh məhkəməsinə hakim köməkçisi və İvanov sülh məhkəməsinə sədr təyin olunur.

*Ədliyyə naziri əvəzinə: T[eymur bəy] Makinski*

## BAKININ ALINMASI HAQQINDA

Redaksiyamızın aldığı xəbərlərə görə, Bakıda 8000 nəfərə qədər ingilis əsir götürülmüşdür. "Ərdahan" kanoner qayığı istisna olmaqla, bütün ticari və hərbi donanma tutulmuşdur.

* * *

16 sentyabrda Azərbaycan Hökuməti tam tərkibdə xüsusi qatarla Bakıya yola düşmüşdür. Hökumət qurumları hələlik Gəncədə fəaliyyət göstərir və nazirlər bir neçə gündən sonra Gəncəyə qayıdacaqlar. Əlverişli şərait yaranan kimi, bütün mərkəzi qurumlar Bakıya köçürüləcək.

* * *

Bakı şəhərinin alınmasıyla əlaqədar olaraq, 15 sentyabrda şəhərdə nümayişlər keçirilmişdir. Nümayişçilər, hökumətin yerləşdiyi oğlanlar gimnaziyasının binasına yaxınlaşmışlar. Baş Nazir, nümayişçilərin qarşısına çıxaraq təbrik nitqi söyləmişdir.

* * *

Şəhər ermənilərinin 6 nəfərlik nümayəndə heyəti, arximandrit Levonun rəhbərliyi ilə 15 sentyabrda Baş Nazir F.x.Xanxoyskini və Nuri paşanın Gəncə şəhərindəki müavinini Bakının alınması münasibəti ilə təbrik etmişdir. Ruhanilər adından təbrikləri arximandrit Levon, şəhər xalqı adından isə İ.N.Xocayev və Q.M.Şahnazarov çatdırmışdır. Nümayəndə heyəti, Nuri paşanı təbrik etmək üçün cəbhəyə və şəhərin erməni əhalisini sakitləşdirmək üçün Bakıya getmək icazəsini Türk Komandanlığından istəmişdir. Nuri paşanın müavini, bunun üçün cəbhədən razılıq almağa çalışacağını söyləmişdir.

* * *

Bakıda ciddi ərzaq qəhətliyi hiss olunduğundan, Qafqaz İslam Ordusu Komandanlığı, Bakıya ərzaq daşıyan nəqliyyat vasitələrinə heç bir halda maneçilik törədilməməsini əmr etmişdir.

* * *

Bakının alınması haqqında Tiflis qəzetələrində aşağıdakı xəbərlərə yer verilmişdir:

Bakı şəhəri 36 saat davam edən şiddətli döyüşdən sonra, bazar günü səhər saat 9-da ələ keçirilmişdir. Türklər üçün Xəzər dənizi tərəfindən bir təhlükə gözlənilmir. İngilis kanonerlərindən uzun mənzilli toplarla Bakının atəşə tutulması türklər üçün ciddi bir təhlükə yaratmır, çünki türklər də xeyli sayda ağır artilleriyaya malikdirlər.

Bakıyla ticarət və sənaye əlaqələrini nizama salmaq məqsədi ilə yaxın günlərdə alman nümayəndə heyəti bu şəhərə gedəcəkdir.

* * *

Şərq cəbhəsi komandanı Xəlil paşa dünən gecə Bakıdan qayıtmış və Gəncədə dayanmayaraq Tiflisə keçmişdir.

## AĞLINI BAŞINA YIĞMAQ VAXTIDIR

Nuri paşanın Azərbaycan ermənilərinə müraciətində, Qafqaz xalqlarının sülh şəraitində birgə yaşayışının tarixində ən mənfi rolu oynamış və təəssüf ki, oynamaqda davam edən, o acı problemə toxunulmuşdur.

Qonşumuz erməni xalqı təəssüf ki, fanatik "Daşnaksutyun" partiyasının simasında öz rəhbərləri tərəfindən böyük nisbətdə kor edilmişdir. Öz xalqının tarixində ölümcül rol oynamış bu partiya, hal-hazırda elə bir vəziyyətlə üzləşmişdir ki, mütləq dönüb geriyə baxmalı, bütün tarixi səhvlərini etiraf etməli və öz siyasətini dəyişdirmək istiqamətində radikal addımlar atmalıdır.

Bu yol – Osmanlı İmperiyasını yıxmağa çalışan, özlərinin Şərq siyasətini erməni xalqının qanı bahasına həyata keçirən və əsrlərdən bəri erməni xalqını gerçəkləşməsi imkansız olan ehtiraslarla bəsləyən Antanta dövlətlərinin intriqalarından birdəfəlik əl çəkmək yoludur. Erməni xalqının, qonşularıyla sülh şəraitində yaşaması ancaq o zaman mümkün ola bilər.

Zaqafqaziyanın hər yerində cərəyan edən qanlı hadisələrə baxmayaraq, təəssüf ki, erməni xalqının rəhbərlərinin qəti surətdə ağıllandıqlarını hələlik müşahidə etmirik. Məsələn, fərarilərdən ibarət silahlı erməni bandaları Qazax uyezdinin sərhədində və Türk Ordusunun hərəkət yolu üzərində dinc müsəlman xalqa zülm etməkdə və keçib gedən türk eşelonlarıyla partizan müharibəsi aparmaqda davam edir. Gəncə quberniyasının dağlıq hissəsində axır vaxtlarda köçəri müsəlmanlara hücum hallarına tez-tez rastlanmaqdadır.

Qarabağ ermənilərinin bir hissəsi, ingilis qızılıyla dəstəklənən Andranikin ölümcül avantüralarına qapılmaqda və Azərbaycan dövlətinin bütövlüyünə qarşı təxribat törətməkdədir. Erməni hərbi birliklərinin və "Daşnaksutyun" partiyasının Bakı hadisələrindəki rolunun nə olduğu hamıya məlumdur...

İşin doğrusu bu şəkildədir. Buna baxmayaraq, erməni xalqının təmsilçiləri Almaniya-Türkiyə koalisiyasının nümayəndələri ilə rəsmi görüşlərində, ermənilərin ingilis və bolşevik təmayüllərindən qəti surətdə üz döndərdiklərinə and içirlər; eyni zamanda, Almaniya nümayəndələri ilə sıx danışıqlara girərək, bu ölkənin onları himayə etməsi üçün yalvarırlar. Biz, erməni xalqının yeni tərcihini alqışlamağa hazırıq, bu şərtlə ki, bu tərcih həqiqətən əməli xarakter daşısın və erməni nümayəndələrinin bu istiqamətdə konkret və səmimi çalışmalarını görə bilək. Təəssüf ki, acı təcrübə bizə göstərir: Zaqafqaziyanın kiçik ərazisində erməni siyasi dairələri bir-birinə tamamilə zidd olan təmayülləri özlərinə rəhbər tutmuşlar.

Azərbaycanın bir hissəsində – Almaniya-Türkiyə nüfuzunun müşahidə edildiyi hissədə ermənilər özlərinin alman-türk təmayüllü olduqlarını söyləyirlər; digər bir hissəsində – Bakıda isə Almaniyaya düşmən olan koalisiyaya artıq əməli surətdə qoşulmuşlar və İngiltərə ilə sıx ittifaqa daxil olaraq, Türkiyə-Azərbaycan ordularına şiddətli müqavimət göstərməkdədirlər. Hələ Bakıda bolşevik hakimiyyəti dövründə biz, Tiflis və İrəvan daşnaksaqanlarına, erməni əsgərlərinin Bakı şəhərinin və Bakı quberniyasının dinc əhalisinə etdikləri zülmləri söyləyirdik. Bəzi erməni hərbi birliklərinin guya bolşevizmə qapıldığını deyərək, özlərinə haqq qazandırmağa çalışırdılar. "Daşnaksutyun" partiyasının bolşevik hökumətində yer almasına gəldikdə, bunun sırf formal olduğunu söyləyirdilər.

Halbuki, "Daşnaksutyun" partiyası bolşeviklərlə tamamən həmrəylik içində olduğunu elan etmişdi və bütün digər erməni partiyaları, hətta Erməni Milli Şurası belə "Daşnaksutyun" qarşısında birdən-birə hökmsüz qalmışdı. "Daşnaksutyun" partiyası bolşeviklərlə əl-ələ verərək Bakı quberniyasını və Dağıstanı oddan və qılıncdan keçirdi, qədim şəhər Şamaxını, onun bütün uyezdləri ilə birgə xarabazara çevirdi. Şərtlər dəyişdikdə, yenə həmin daşnaksaqanlar ingilis gücünü öz arxalarında hiss edərək, bolşevikləri devirdilər və müsəlmanlara qarşı apardıqları ağlasığmaz milli ədavəti bu dəfə ingilislərlə birgə davam etdirdilər. "Daşnaksutyun" partiyasının Bakı orqanı olan "Vperyod", öz sütunlarında Türk-Azərbaycan ordularına qarşı sıx ingilis-erməni ittifaqını açıqaşkar vurğulayırdı.

Həmişə bütün erməni xalqının adından danışan və lider mövqedə olan erməni partiyasının siyasətindəki bu ikibaşlılıq Almaniyanın, Türkiyənin, Azərbaycanın və bu məsələdə marağı olan digər xalqların diqqətini özünə cəlb etməyə bilməz.

Erməni xalqı üçün ölümcül nəticələrə yol aça biləcək bu siyasətin bütün məsuliyyəti bu partiyanın və onun ilhamvericilərinin üstünə düşür.

Fəqət bizim üçün vacibdir ki, erməni xalqı, "Daşnaksutyun" partiyasının siyasi avantürasının ölümcül mahiyyətini nəhayət anlasın, nə qədər ki, gec deyil, ondan imtina etsin, öz qonşularıyla səmimi, ən yaxşı birgə yaşayış yoluna qədəm qoysun. Başqa bir yol erməni xalqı üçün ölümcül ola bilər.

*Ş. R.*

## GƏNCƏ, 19 SENTYABR 1918

Bakı süqut etdi. Bakıyla bərabər, beynəlxalq dələduz və oğruların Zaqafqaziyadakı axırıncı dayağı da süqut etdi. Onlar ki, sosializm bayrağı altında bu gün bolşevik, sabah menşevik qılığına girərək, bəzən də sadəcə olaraq çernosotenlərə qarışaraq, yerli xalqa və məmləkətin qanuni hakimiyyətinə müxtəlif formada zülm edərək və ən axırda da ingilis qızılına satılaraq, bütün Zaqafqaziyanı geniş çaplı qanlı döyüşlərin səhnəsinə çevirmək istəmişdilər.

Bakı "sosializmi" rus inqilabının tarixində ən mənfi, ən xoşagəlməz rolu oynamışdır. Bəlkə tək-tük inanmış sosialistlər varsa da, çoxminli süngülərin real gücünə söykənərək, yaxud "müqəddəs kumir" donuna girərək, özlərinin yaramaz və qana susamış məqsədləri, tamahkar və eqoistcəsinə ehtirasları uğrunda onları istədikləri kimi oynadan çevik işbazların əlində oyuncağa çevrildilər.

Bütün bu Caparidzelər, Nərimanovlar, Ayollalar və digərləri; öz cinayətkar fəaliyyətlərini amansızlıq və həyasızlığın ən irəli dərəcəsinə çatdıran daşnaksaqanların yeniçərilərinə çevrilmişdilər. Əgər Bakı, Şamaxı, Lənkəran, Quba və Dağıstanın on minlərcə müsəlman əhalisinin "Qırmızı sosialist ordusu" tərəfindən axıdılan qanları və bütün bu xarabazarlıq yığınları inanmış sosialistlər üçün, öz hallarının zavallılığı və puçluğu barəsində kifayət qədər dəlil təşkil etməmişsə, ümumdünya imperializminin və kapitalizminin avanqard güclərinin süngülərinin Xəzər dənizinin sularında görünməsi, bu kor gözləri açıb, onlara həqiqəti göstərməli idi. Fəqət bu da olmadı və "Rusiya Sosial-Demokrat Partiyası"nın nümayəndələri şovinizm və imperializmin ən bariz təzahürlərinin nümayəndələri ilə möhkəmcə qucaqlaşaraq, Bakının əsl sahiblərinin iradə və arzularına zidd getdilər; bu "qayğıkeş" fəaliyyətlərini sonra da Qafqazın digər vilayətlərinə istiqamətləndirməyi nəzərdə tuturdular.

Fəqət onlar öz hesablarında yanıldılar. Tarixin təbii təkamülünü dayandırmaq mümkün deyil. Hər kəs üçün məqbul hesab edilən, ancaq müsəlmanlara şamil edilməyən, xalqların öz müqəddəratını təyin etmə prinsipi müsəlmanlara da şamil edilməlidir və bəzi avantüristlər bizi bu hüququmuzdan məhrum etmişlərsə də, Türkiyə və Azərbaycanın cəsur oğullarının süngüləri xəyalpərəst siyasət dəllallarına, onların iddialarının əsassızlığını sübut etdi.

Biz də istiqlaliyyət haqqına sahibik, biz də həyat haqqına sahibik. Nə zirehlilər, hidroplanlar, aeroplanlar, kanonerlər, tikanlı məftillər, minalar və digər texniki avadanlıqlar, nə ingilislər, ya da başqa bir qüvvə, tarixin təbii təkamülünə mane ola bilməz.

Özünün 50 minlik ordusu, texnikası ilə birgə Bakının, nisbətən kiçik bir qüvvə qarşısında süqut etməsi, öz xoşbəxtliklərini başqalarının bədbəxtlikləri üzərində qura biləcəklərini düşünən bütün bədxahlar üçün açıq-aşkar bir ibrət dərsi olmalıdır.

Bu həqiqəti xüsusilə də bizim qonşularımız ermənilərin içində yer alan, öz maraqlarını qonşularının maraqları ilə uyğunlaşdırmaqdan və qonşularıyla dinc yanaşı yaşamaqdan imtina edərək yadelli "xilaskarların" ətəyindən yapışan ünsürlər yaddan çıxarmamalıdırlar.

## YERLİ XRONİKA

Qafqaz İslam Ordusu komandanı Nuri paşanın əmri ilə polkovnik Cavad bəy Şıxlinski Gəncə şəhərinin komendantı, minbaşı Süleyman əfəndi isə onun köməkçisi təyin olunmuşdur.

* * *

Gəncə şəhər komendantının əmri ilə 16 sentyabrda şəhərdəki və vağzaldakı zabitlərin, hərbi məmurların və aşağı rütbəlilərin sənədləri yoxlanmışdır.

* * *

Gəncə quberniyası həbsxanasının rəisi K.b.Fəttahov və Gəncə şəhəri 2-ci qisminin pristavı A.A.Mirzoyants vəzifələrindən azad edilmişdir.

* * *

Hal-hazırda Gəncə şəhərində ərzaq idarələri təftiş edilir. Bununla əlaqədar olaraq, idarənin bəzi işçiləri nəzdində axtarış həyata keçiriləcəkdir.

* * *

Məktəblərin milliləşdirilməsi ilə əlaqədar olaraq, 9 sentyabrdan etibarən, Gəncə Müəllimlər Seminariyasının müəllim və müəllimələr hazırlayan kurslarında dərslər türk dilində keçiriləcəkdir.

* * *

Şəhərdə Nuri paşanın erməni xalqına müraciəti yapışdırılmışdır. Qafqaz İslam Ordusu komandanı bu müraciətində Andranikin və "Daşnaksutyun" partiyasının digər rəhbərlərinin bandalarının müsəlmanlara qarşı düşməncə hərəkətlərini qeyd etmiş, erməniləri provokasiyalara qapılmaqdan saqındırmış və müsəlmanlarla sülh şəraitində yaşamağa səsləmişdir. Nuri paşa onu da xatırlatmışdır ki, "Daşnaksutyun" meydana çıxmadan əvvəl, müsəlman və erməni xalqları tamamən qarşılıqlı razılıq və dostluq şəraitində keçinirdilər və ermənilər, türklərin malik olduqları bütün imkanlardan istifadə edir, yüksək vəzifələrə təyin olunur, rifah içində yaşayırdılar.

**Redaksiya heyəti**

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

"Azərbaycan" qəzetinin 2-ci nömrəsi sadəcə rus dilində, iki səhifə həcmində çap edilmişdir. Kolleksiyanı tamamlamaq naminə, bu nömrə rus dilindən tərcümə edildi. 2-ci nömrədə gedən materialların bir qismi (17 iyul 1918-ci il tarixli Hökumət qərardadı) daha sonra qəzetin Azərbaycan dilində çap edilən versiyasının 5-ci nömrəsinə daxil edildiyindən, 2-ci nömrədən çıxarıldı.

**Ağlını başına yığmaq vaxtıdır**
səh. 15. "Ş. R.": bu imza Şəfi bəy Rüstəmbəyliyə məxsusdur.

**Gəncə, 19 sentyabr 1918**
səh. 15. Çernosoten: 1905-1917-ci illər arasında Rusiyada mütləqiyyət və pravoslav xristianlıq tərəfdarlığını özlərinə şüar edən ifrat sağ təşkilatların ümumi (birləşdirici) adı. Çar rejimini müdafiə edir, inqilabi hərəkata şiddətlə qarşı çıxır və yəhudi əleyhdarlığı nümayiş etdirirdilər.

Yeniçəri: Osmanlı İmperiyasında XIV əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər mövcud olmuş piyada qoşun növü. Yeniçərilər fəth olunan xristian ölkələrdə oğlan uşaqları arasından seçilir, islami tərbiyə ilə yetişdirilirdilər. İmperiyanın daimi ordusunun əsas qüvvələrini təşkil edən yeniçərilər, "padşahın qulları" hesab olunurdular.

Jurnalist araşdırması

# Gecikən nikahlar

## Yaxud gənclər ailə qurmağa niyə tələsmir

"Evləndirmək istəyirik, yaşı keçir. Yaxın dostlarından öyrənmişəm ki, gözaltısı yoxdur. Odur ki, arada özüm məsləhət bildiyim qızların adını çəkib seçim etməyin, ailə qurmağın vaxtının ötdüyünü yadına salıram. Susur. Yaş üstünə isə yaş gəlir. O gün baxıram ki, artıq saçlarına dən düşməyə başlayıb..." Bu, oğlunun yaşı 30-dan keçən bir ananın gileyidir.

"Orta məktəbi əla qiymətlərlə bitirdi, univesitetə daxil olub orada da yaxşı oxudu, təhsilini ağılla-kamalla başa vurdu. Xeyli vaxtdır öz ixtisası üzrə də işləyir. Qohum-qonşudan, tanış-bilişdən söz açanlar, qapıya gəlmək istəyənlər var. Eşitdiyimə görə, öz iş yoldaşlarından da elçi düşənlər olub. Ancaq qız daşı ətəyindən töküb, bir Allah bəndəsinə "hə" demək istəmir. Yaş isə keçir..." Bu isə bir qız anasının narahatlığıdır.

Bəlkə də bu iki ananın ürək çırpıntılarını bəyan etməzdik. Əgər həmin fikirlərlə gecə-gündüz rahatlıq tapmayan analar az olsaydı... Amma təəssüf ki, artıq ailə həyatı qurmaq yaşı keçən övladlarının sabahı üçün nigaran olan belə valideynlər çoxdur. Onların dediklərini eşitsək də, eşitməsək də, statistik rəqəmlərdən xəbərimiz olsa da, olmasa da, real vəziyyət göz qabağındadır. Hər birimizin çevrəsində neçə-neçə gənc - istər qız, istərsə də oğlan var ki, ailə qurmağa tələsmir, daha doğrusu, gecikir. Qısası, bu, bir həqiqətdir ki, son illərdə Azərbaycanda cavanların nikaha daxil olma yaşı artıb.

Yadımıza düşən ilk səbəb bu olacaq ki, koronavirus pandemiyası onları gecikdirdi. Sərt qadağalar dövründə toy eləməyə də icazə verilmədi. Toy isə xalqımızın gözəl adətidir. Övladının toyunu görmək hər ata-ananın ümdə diləyidir. Gənclər özləri də istəyirlər ki, həyatlarının bu xoş günü unudulmaz xatirələrlə yadda qalsın. Bu baxımdan demək olar ki, toy planlaşdıranların hamısı onu təxirə saldı. Beləliklə də, ildən-ilə artan nikahların sayı o dövrdə kəskin azaldı. Məsələn, 2018-ci ildə ölkədə 62 min 484, 2019-cu ildə 63 min 869 nikah bağlanmışdısa, koronavirusun hökm sürdüyü 2020-ci ildə onların sayı 35 min 348-ə endi. Bu isə ailə qurmaq ərəfəsində olan gənclərin yaşının üstə yaş gəlməsi demək idi.

Lakin pandemiyadan əvvəlki illərin statistikasına nəzər salsaq, görərik ki, cavanların nikaha daxil olma yaşının artması, ümumiyyətlə, son dövrün təzahürlərindəndir. Beləliklə, Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq deyək ki, 2014-cü, 2015-ci və 2016-cı illərdə kişilərin nikaha daxil olma yaşı orta hesabla 28,6 idi. Həmin rəqəm getdikcə artaraq 2017-ci ildə 28,8-ə, 2018-ci ildə 29-a, 2019-cu ildə 29,4-ə və 2020-ci ildə 30-a çatdı. 2014-2016-cı illərdə qadınlar orta hesabla 24,1 yaşında ailə qurmuşdular. Sonrakı illərdə bu rəqəm tədricən artdı və 2017-ci ildə 24,2 olduğu halda 2020-ci ildə 25,2-yə qədər yüksəldi.

Bu tendensiya özünü ilk nikaha daxil olanların yaşında da göstərir. Birinci nikaha daxil olan qadınların orta yaşı 2015-ci ildəki 23,6-dan 2020-ci ildə 24,3-ə çatıb. Birinci nikaha girən kişilərin yaşı isə həmin dövr ərzində 27,5 olduğu halda ilbəil artaraq 2020-ci ildə 28,5 təşkil edib.

Bunların orta rəqəmlər olduğuna bir daha dərindən nəzər salsaq, mənzərə tam aydın olar. "Kişilərin nikaha daxil olma yaşı orta hesabla 30-dur" deyəndə düşünə bilərik ki, bu, o qədər də narahatlıq doğuran rəqəm deyil. Lakin həmin orta rəqəm tələsib 19-21 və sonrakı yaşda ailə quranların, eləcə də 30-dan sonra evlənənlərin yaş göstəricilərindən yaranır. Beləliklə, 35 və daha yuxarı yaşda nikaha daxil olanların da sayının çoxluğu ortaya çıxır.

Bəs gənclərimizi ailə qurmağa gecikdirən səbəb nədir? Sosioloqlar bunun bir səbəbini gənclərin daha mükəmməl təhsil almaq istəyi ilə bağlayırlar. Məsələn, onların bir çoxu ali təhsilin bakalavr pilləsindən sonra magistraturanı da başa vurmaq istəyir. Gənc daimi iş yeri tapınca, özünü bir mütəxəssis kimi doğruldunca, əli çörəyə çatınca isə xeyli vaxt keçir. Bu proseslərin davam etdiyi dövrdə cavanların heç də hamısı ailə barədə fikirləşmir.

Müşahidələr göstərir ki, indi gənclər daha sərbəst və müstəqildirlər, o mənada ki, quracaqları ailəni özləri, artıq yaşa dolmuş valideynlərinə ziyan vurmadan dolandırmaq istəyirlər. Gənc ailələrin başlıca istəyi isə ayrıca mənzildə yaşamaqdır.

Görək gənclərin özləri və onların çevrəsindəki insanlar nə deyirlər? Yaşı 35-ə yaxınlaşan Natiq deyir ki, gəlini haraya gətirim? Atamın, anamın, nənəmin və yaşca məndən kiçik bacımın yaşadığı üçotaqlı "xruşşovka"ya, ya kirayə mənzilə? Bu gənc hardasa haqlı olsa da, hər halda çıxılmaz vəziyyətdə deyil. Əvvəla, onun ata evi var və nənəsi hamının adından deyir ki, gəlinin gözümüz üstündə yeri var, təki ürəklər geniş olsun. Üstəlik, Natiq sanballı bir şirkərdə çalışır, yüksək maaş alır, yəni mənzil sahibi olmaq şansı da istisna deyil. Əslində, özü bu barədə düşünməyə gecikib. Çünki sosial vəziyyəti onunla eyni olan dostları Azad və Elman məsələni xeyli vaxtdır müsbət həll ediblər. Biri dövlətin gənc ailələrə güzəştlərindən istifadə edərək ipoteka krediti götürüb və artıq təzə mənzilə köçüb. Digəri isə yaşadığı Bakı yaxınlığındakı kənddə salınan yeni massivdə torpaq sahəsi alaraq xudmani bir ev tikdirir.



Yaşıdları artıq ailə qurmuş Saleh də hələ evlənməyə tərəddüd edir. Evi olduğu halda... O, kiçik bizneslə məşğuldur və qazancının ailəni dolandırmağa yetməyəcəyini düşünür. Anası ona deyir ki, indi gənc qızların əksəriyyəti müəyyən peşə, sənət sahibidir, iş yerləri var. Odur ki, Saleh də gələcək həyat yoldaşı ilə birlikdə əl-ələ verib dolana bilərlər. Bir də ki, zəhmətlə, səbirlə, hətta çətinliklə əldə olunan nemətlər daha şirin olur. Ev-eşiyin, pul-paranın, lap elə həyatın özü də!

Yeri gəlmişkən deyək ki, ailə qurmaq yaşına çatmış qızların da bir çoxu bu və digər səbəblərdən tərəddüd edirlər. Görək bu barədə dünyagörmüş ağbirçəyimiz Kifayət xanım nə deyir: "İndiki gəlinlər qayınanalı-qayınatalı evdə yaşamaq istəmirlər. Qızlar birinci şərt kimi oğlanın özünün ayrıca evi olması tələbini irəli sürürlər. Üzümü onlara tutub demək istərdim ki, qızlarım, heç olmasa bir müddət, ayrıca ev-eşik düzəlincə böyüklərlə bir yerdə yaşamağın özü də müsbət haldır. Belədə düşdüyünüz ailəyə, qohum olduğunuz insanlara daha tez isinişərsiniz. İşləyən, karyera sahibi olan qızlar üçün bu həm də bir köməkdir. Çünki ailənin digər üzvləri ona ev işlərində, uşaqların qeydinə qalmaqda köməkçi olurlar".

Kifayət nənə özü vaxtilə uzun illər uşaq bağçasında tərbiyəçi işləyib. Odur ki, cavan qadınların işləməsini, karyera qurmasını alqışlayır. Onun fikrincə, qızların bir qismini ərə gedəndən sonra ailənin tələbi ilə sevimli işlərindən, kollektivdən, yəni cəmiyyətdən ayrı düşəcəkləri qorxudur. Ağbirçəyin bu məsələyə aid də məsləhəti var: "Həkim, müəllim, alim, yaxud sadə, lakin gərəkli peşə sahibi olan qızlarımız çoxdur. Ailə qurandan sonra bəzi hallarda ər evinin onu işindən ayırmasının qəti əleyhinəyəm. Qoy işləsinlər, cəmiyyətə də xeyir versinlər, ailə büdcəsinə də bunun köməyi var". - Nənə gülür: "Qədimdə deyərmişlər ki, halvaçı qızı bir az da şirin..."

İxtiyar yaşlı Bakı sakini Nazim Tağıyev isə internetin, sosial şəbəkələrin gənclərin çox vaxtını almasından, fikrini həddindən artıq məşğul etməsindən narahatdır. Ağsaqqal deyir ki, kompüterdən və mobil telefonlardan faydalı işlər üçün istifadə etmək lazımdır. Boş-boş yazışmalara, lazımsız oyunlara, yerli-yersiz şəkillər paylaşmağa yox! Bütün bunlar gəncləri gələcək barədə düşünməkdən, məqsədyönlü qərarlar qəbul etməkdən yayındırır.

Ailə qurmağa tələsməyən hər kəsin öz səbəbi var. Odur ki, bu barədə fikirlər, mülahizələr də müxtəlifdir. Dəqiq bilinən isə yalnız odur ki, bu cavanlara kömək etmək lazımdır. Doğmaları, dostları onlara yol göstərməli, birgə çalışdıqları kollektiv çətinliklərini aradan qaldırmaqda bacardığı dəstəyi əsirgəməməlidir. Onlar ailə qurmalı, bir ocaq başında birləşib xoşbəxt yaşamalıdırlar. Burada söhbət həm də xalqımızın genofondundan gedir. Prezident İlham Əliyevin təbirincə desək, artan əhali artan gücümüzdür.

Həkim-genetik Eldəniz Bayramov vaxtında ailə qurmağın tibbi baxımdan çox vacib olduğunu deyir: "Ailə şəraitində insanların, xüsusilə kişilərin qidalanması, istirahəti düzgün tənzimlənir, bu da onların səhhətinin yaxşı, iş qabiliyyətinin yüksək olmasına, sağlam həyat tərzi keçirməsinə xidmət edir. Vaxtında qurulmuş ailələrdə həm də sağlam uşaqlar dünyaya gəlir. Belə ki, insanlar yaşa dolduqca onların həm genetik və həm də sonradan qazanılmış xəstəlikləri daha bariz şəkildə üzə çıxır və bu, özünü doğulan uşaqlarda göstərir".

Mama-ginekoloq Elmira Əfəndiyevanın sözü isə qızlaradır: "Erkən nikah kimi, gec evliliyin də mənfi cəhətləri var. Vaxtında ailə qurmaq lazımdır. Qadınların yaşı artdıqca onların dünyaya uşaq gətirmək şansları da azalır. Bu, mümkün olduqda belə ananın və gələcək körpənin həyatı üçün risklər yaranır. Gec ailə quran qızlar özlərini də, hətta biz həkimləri də çətinlik qarşısında qoyurlar. Bəzən dünyaya gətirdikləri körpələr tam sağlam olmur".

Həkimin sözlərinə 2020-ci ildə bir neçə yaş qrupunda olan qadınların dünyaya gətirdikləri uşaqların sayı barədə statistik məlumatı əlavə edək. Doğrudur, təzə doğulanların çoxu 20-29 yaş qrupunda olan qadınların payına düşür. Bununla belə 30-39 yaş qrupunda olan qadınların dünyaya gətirdiyi uşaqların sayı da düşündürücüdür. Belə gec doğulan uşaqları böyüdüb boya-başa çatdırmaq üçün ömrün vəfasına bel bağlamaq da olmur axı...

Odur ki, sevib-sevilməyə, ömür-gün yoldaşı seçməyə gecikməyin, əziz gənclər. Gecikənlər isə tələsin. Tələsin ki, sizə şirin-şirin körpələr "ata", "ana" desinlər. Tələsin ki, sonra bir mahnıda olduğu kimi, peşiman-peşiman "ay gecikən məhəbbətim" deyə səslənərək qaçaq saldığınız xoşbəxtliyinizi axtarmayasınız.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# "Ağ qılçıqlı", "Yetim", "Lənkəran sədrisi"...

## Dirçəlməyə başlayan çəltikçilikdə hədəf əhalini yerli düyü ilə təmin etməkdir

Aqrar sektorda aparılan islahatlar səmərəliliyi ilə seçilir. Bu islahatlar sayəsində kənd təsərrüfatı məhsulları istehsalı ildən-ilə artır. Hazırda özümüzü qoyun əti ilə 100, mal və quş əti ilə 80, süd və süd məhsulları ilə 80 faiz təmin edə bilirik. Meyvə-tərəvəzçilikdə də yüksək nailiyyətlər əldə olunub. Kənd təsərrüfatı məhsullarının ixracında meyvə-tərəvəz ixracı indi artıq önəmli yer tutur.

Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə ərzaq təhlükəsizliyini təmin etmək üçün yerli istehsalın artırılmasının əhəmiyyətini vurğulayaraq demişdir: "Təxirəsalınmaz tədbirlər nəticəsində ikinci dəfə əkin aparılıb və bu il hardasa 50 min hektarda əkin aparılacaq. Bu, çox yaxşı nəticədir. Həm azad edilmiş torpaqlarda, həm də bütün başqa yerlərdə məhsuldarlığı artıra biləcək tədbirlərə əlavə vəsait ayrılmalıdır. İlk növbədə suvarma, suvarma sistemləri, gübrələr və digər məsələlər öz həllini tapmalıdır".

Ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi aqrar sektorda məhsul istehsalında önəmli rol oynayır. Bu məhsulların istehsalına verilən dövlət dəstəyi fermerlərin marağını xeyli artırıb. İnkişaf edən belə sahələrdən biri də çəltikçilikdir. Ölkədə çəltikçiliyi dirçəltmək və əhalinin düyüyə olan tələbatını daxili istehsal hesabına ödəmək məqsədilə mühüm addım atılıb. Belə ki, 9 fevral 2018-ci il tarixli "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalanıb. Proqramın əsas məqsədi Azərbaycanda çəltikçilik ənənələrini inkişaf etdirmək, düyüyə olan tələbatın ödənilməsinin səviyyəsini yüksəltmək, idxaldan asılılığı azaltmaq, həmçinin bu işlə məşğul olan fermerlərin həyat səviyyəsini yaxşılaşdırmaqdır. Bu sənədin qəbulunun son hədəfi 2025-ci ilə qədər orta məhsuldarlığı 40 sentner olmaqla və əkin sahələrini 10 min hektara çatdırmaqla istehsalın həcmini 40 min tona qədər yüksəltməkdir.

Ölkəmizdə çəltikçiliyin inkişaf tarixi qədimdir. Azərbaycanda öz keyfiyyəti ilə seçilən "Ağ ənbərbu", "Vilqəri", "Yetim", "Lənkəran sədrisi", "Ağ qılçıqlı" və digər yerli sortlar yetişdirilib. Hazırda Azərbaycanda çəltik əkinçiliyi əsasən Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonlarında aparılır. Çəltik əkini üzrə Azərbaycanda statistika 1913-cü ildə aparılıb. Həmin il ölkədə 47 min hektar sahədə çəltik əkilib. Bu rəqəm müxtəlif illərdə artıb-azalıb. Rekord həcmdə çəltik əkini isə 54 min hektar olmaqla 1927-ci ildə qeydə alınıb.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltikçiliyin inkişaf etdirilməsi, əhalinin düyüyə tələbatının daxili istehsal hesabına ödənilməsi, çəltikçilik sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi istiqamətində son illərdə bir sıra əhəmiyyətli tədbirlər görülüb. Çəltikçilik sahəsində fəaliyyət göstərən beynəlxalq, regional və milli qurumlarla əməkdaşlıq əlaqələri genişləndirilir. Əkinçilik Elmi-Tədqiqat İnstitutu (ƏETİ) bu bitkinin xəstəlik və zərərvericilərə davamlı və məhsuldar sortlarının yaradılması, həmçinin kadr hazırlığı sahəsində Mərkəzi və Qərbi Asiya Çəltik Mərkəzi (CWARice) və Türkiyə ilə əməkdaşlıq edir.

Bu sahədə əməkdaşlıq əlaqələrimiz ildən-ilə genişlənir. Malayziyanın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə çəltikçilik sahəsində ƏETİ ilə Malayziya Kənd Təsərrüfatı Tədqiqat və İnkişaf İnstitutu (MARDİ) arasında onlayn görüşlər keçirilib və əməkdaşlığa dair memorandum layihəsi hazırlanıb. Memorandumun imzalanması və qarşılıqlı müzakirələrin aparılması məqsədilə MARDİ-nin direktoru Mohamad Zabavinin rəhbərliyi ilə həmin institutun nümayəndə heyəti Azərbaycanda səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyəti, həmçinin Malayziyanın Azərbaycan Respublikasındakı səfiri Dato' Yubazlan Yusof ƏETİ-yə və Lənkəran rayonuna səfər ediblər. ƏETİ-də tədqiqat infrastrukturu ilə tanışlıqdan sonra tədqiqat heyəti ilə elmi diskussiyalar aparılıb və atılacaq növbəti addımlar müzakirə olunub. Görüşdə Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin mütəxəssisləri ölkədə əkinçilik sistemləri, prioritet bitkilər, torpaq və iqlim şəraiti, kənd təsərrüfatı sahəsində qəbul edilmiş dövlət proqramları, məhsul istehsalçılarına göstərilən dövlət dəstəyi və çəltikçiliyin mövcud vəziyyəti barədə məlumat veriblər. Nümayəndə heyəti həmçinin Lənkəran rayonunda fəaliyyət göstərən bir sıra özəl müəssisələrdə həyata keçirilən emal prosesi ilə də tanış olub.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

Bölgə xəbərləri

## Goranboyda Sahibkarlar Günü qeyd olunmuşdur



Son vaxtlar Goranboyda sahibkarlığın inkişafına göstərilən diqqət, bu sahədə yaradılmış münbit və əlverişli şərait, əsassız yoxlamaların, süni maneələrin aradan qaldırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər öz müsbət nəticələrini verir. Bu gün rayon üzrə istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının əksər hissəsi məhz özəl sektorun payına düşür.

Söz yox ki, bütün bu uğurlar Prezident İlham Əliyevin ölkədə azad sahibkarlığın inkişafına yönəlmiş ardıcıl və qətiyyətli fəaliyyətinin, özəl sektora verdiyi dəstəyin, eləcə də imzaladığı fərman və sərəncamların nəticəsidir. Həmin sərəncamlardan biri də hər il aprelin 25-nin Azərbaycanda Sahibkarlar Günü kimi qeyd edilməsi ilə bağlıdır.

Goranboyda Sahibkarlar Günü ilə əlaqədar keçirilən tədbirə onlarca iş adamı toplaşmışdı. Ümummilli Liderin rayon mərkəzində ucaldılmış abidəsinin ziyarəti ilə başlayan tədbir Heydər Əliyev Mərkəzində davam etmişdir. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən Goranboyda sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən islahatların verdiyi bəhrələrdən danışmışdır.

Tədbirin sonunda rayonun sosial-iqtisadi və ictimai həyatında fərqlənən bir qrup sahibkara rayon icra hakimiyyətinin fəxri fərmanları təqdim olunmuşdur.

## Tovuzda qanvermə aksiyası keçirilib



Ölkəmizin hər yerində olduğu kimi, Tovuzda da talassemiya və digər irsi qan xəstəliklərindən əziyyət çəkən insanlar üçün tez-tez kütləvi qanvermə aksiyaları keçirilir.

RİH-in təşkilatçılığı, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin təşəbbüsü ilə keçirilən növbəti könüllü qanvermə aksiyasında rayon sakinləri fəallıq göstərmişlər.

Gün ərzində davam edən qanvermə aksiyası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən edilmiş bütün sosial izolyasiya qaydalarına riayət etməklə xüsusi tibbi briqada tərəfindən aparılmışdır. Xüsusi şəraitdə yoxlanılan donorlar həkim rəyi alındıqdan sonra qan vermişlər.

## Ege Universitetinin professorları ADAU-da seminarlara başlayıblar

Azərbaycan Dövlət Aqrar Universiteti ilə (ADAU) Türkiyənin Ege Universiteti arasında həyata keçirilən beynəlxalq ikili diplom proqramı çərçivəsində Gəncəyə dəvət olunmuş bir qrup türkiyəli professor-müəllim ADAU-nun fakültələrində seminarlar keçirlər.

Ege Universitetinin professoru Hatice Özaktan tərəfindən "Bitki xəstəlikləri ilə bioloji mübarizədə yeni yanaşmalar" mövzusunda təşkil olunan ilk seminarda ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov, aqronomluq və torpaqşünaslıq, eləcə də aqrokimya fakültələrinin professor-müəllim heyəti, bakalavr və magistr tələbələri iştirak etmişlər.

Seminarın sonunda türkiyəli professor iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

## Evi yanan müharibə iştirakçısına yardım olunacaq

Gəncə şəhəri, Şərəfxanlı küçəsində yerləşən fərdi yaşayış evində yanğın baş vermiş, hadisə zamanı Hüseynov Xəyyam Tofiq oğlunun yaşadığı ev yararsız hala düşmüşdür.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov hadisə yerində olmuşdur. Məlumat verilmişdir ki, yanğın zamanı evdə olan yataq xəstəsi Hüseynov Tofiq Müseyib oğlunun həyatını xilas etmək mümkün olmamışdır. Bundan əlavə, ümumi sahəsi 400 kvadratmetr olan birmərtəbəli, altıotaqlı evin 4 otağının yanar konstruksiyaları və dam örtüyünün 100 kvadratmetr hissəsi yanaraq yararsız hala düşmüşdür. Evin qalan hissəsini yanğından mühafizə etmək mümkün olmuşdur.

Niyazi Bayramov evin sakinlərinin müraciətlərini dinləmiş və demişdir ki, onlara Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən hər cür yardım göstəriləcək.

Qeyd edək ki, Xəyyam Hüseynov Vətən müharibəsi iştirakçısıdır. O, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




# Ermənilərin saxta mifləri tam iflasa uğrayıb

**Hər il aprelin 24-ü yaxınlaşanda ermənilərin səsləri dünyanı bürüyür. Reallıqdan uzaq məqsədlərinə, başlarından böyük iddialarına çatmaqdan ötrü özlərinə "soyqırımı" mifi uydurmuş ermənilər bu yalana hamını inandırmaq istəyirlər.**

Amma məsələ inandırmaqla da bitmir. Ardınca özlərinə düşmən bildikləri Türkiyəyə qarşı bir sıra əsassız iddialar irəli sürürlər. Və dərhal da aydın olur ki, məqsəd heç də ötən əsrin əvvəllərində baş vermiş hansısa hadisələrin gün işığına çıxması, insanların bütün bunları oxuyub məlumatlanması deyil. Əsas məram dünyanın böyük güclərinin, aparıcı dövlətlərinin əli ilə Türkiyəyə qarşı daha bir təzyiq aləti formalaşdırmaqdır. Min bir fitnə-fəsadla hazırda qlobal proseslərə böyük təsir imkanına malik olan bu güclü dövləti zəif salmaqdır, təzminatlar qoparmaqdır.

## "Erməni soyqırımı" olmayıb

Ermənilərin müxtəlif saxtakarlıq cəhdləri ilə üzərini örtməyə çalışdıqları tarixi həqiqətlər obyektiv dəyərləndirilsə, hər birimiz görəcəyik ki, XX əsrin əvvəllərində "erməni soyqırımı" deyilən hadisə olmayıb. Bu iddia böyük dövlətlərin Şərq planlarının tərkib hissəsi kimi meydana gəlib. Tarix boyu başqalarının əlində pislik aləti kimi istifadə olunan, bu "missiyaya" həvəslə razılaşan ermənilər onda da dünya güclərinin Türkiyəyə qarşı işğalçılıq planlarında rol almışdılar. Şərq məsələsinin kökündə böyük ərazi hüdudlarına malik Osmanlı imperiyasının torpaqlarını bölüşdürmək, Türkiyəni bir dövlət kimi məhv edib sıradan çıxarmaq, onun ərazilərində müxtəlif bufer dövlətlər yaratmaq dururdu. Burada da söhbət Şərq xalqlarının Qərbin əsarəti altına düşməsindən gedirdi. Belə bir məqamda ermənilər Türkiyəyə qarşı xəyanət yolu tutdular.

Hadisələr əslində belə cərəyan etmişdi: Türkiyə ərazisində yaşayan və bu ölkənin təbəələri olan ermənilərin xarici güclərin sifarişi ilə dövlətə qarşı cinayətləri XIX əsrin son illərinə doğru getdikcə genişlənirdi. Xüsusilə Anadolunun şərqində və Kilikya adlanan cənub bölgələrində kütləvi şəkildə yaşayan ermənilər arasında separatçı meyillər güclənirdi. Onlar tez-tez Osmanlı Türkiyəsinə qarşı silahlı üsyana qalxırdılar. İlk üsyan 1890-cı ildə Ərzurumda baş verdi. Daha sonra ermənilər Vanda, Sasonda, Adanada üsyan edərək dağıntılar törətdilər. Xeyli sayda insanın ölümünə səbəb oldular. 1905-ci ildə isə Türkiyə sultanına qarşı suiqəsd cəhdi törətdilər və bu cəhd uğursuzluqla nəticələndi. Bölgədə təşkilatlanan erməni komitələri mülki şəxslərə qarşı da xüsusi amansızlıq göstərdilər. Əhalini kütləvi şəkildə qətlə yetirdilər.

Bütün bu cinayətlərdə böyük dövlətlərlə yanaşı, erməni millətçilərinin də maraqları vardı. Osmanlı dövləti parçalandıqdan sonra onlara yaşadıqları ərazidə erməni dövlətinin qurulacağına söz verilmişdi. Beləliklə, ermənilərin illərdən bəri zəhərli təfəkkürlərində yaşatdıqları "böyük Ermənistan"a doğru yol görünməyə başlamışdı. Bu ideyanı inkişaf etdirmək üçün onlar "Daşnaksütyun" partiyasını yaratmışdılar. Bütün türk-müsəlman əhalisini məhv etməyi qarşılarına məqsəd qoymuşdular. Bunu da əvvəlcə Osmanlı Türkiyəsi ərazisində həyata keçirirdilər. Erməni daşnaklarının azğınlığının getdikcə dözülməz olması 1915-ci ildə Osmanlı hakimiyyətini bu təhlükəni aradan qaldırmaq üçün bəzi qəti addımlar atmaq məcburiyyəti qarşısında qoydu. Birinci Dünya müharibəsi ərəfəsində çar Rusiyası tərəfinə keçərək Türkiyəyə qarşı vuruşan ermənilərlə bağlı təhlükəni neytrallaşdırmaq üçün onların Türkiyənin başqa bölgələrinə köçürülməsi qərarı verildi. Bu ərəfədə xəstə təfəkkürləri ilə on minlərlə erməninin də düşüncələrini zəhərləyən, kütlənin önündə gedib onları sakini olduqları, təbəəsi sayıldıqları Türkiyə dövlətinə qarşı qaldıran 2345 erməni rəhbər həbs edildi. Onlar tez-tez ətraf kəndlərə hücum edərək əhalini qətlə yetirən, çapıb talayan qatı cinayətkarlar, quldurlar idi. Həbslər 24 aprel günü həyata keçirildiyindən həmin xəstə təfəkkürlülərin davamçıları bu günü qondarma "erməni soyqırımı"nın əsas tarixi simvoluna çevirdilər.




## Əsl soyrıqımını ermənilər törətmişdilər

Əsl soyqırımını isə erməni daşnakları cəmi üç il sonra Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda və digər bölgələrimizdə azərbaycanlılara qarşı törətdilər. "Erməni soyqırımı" məsələsi indiyə qədər tarixçi alimlər tərəfindən ən çox tədqiq edilmiş iddialardandır. Amma bu tədqiqatların heç biri ermənilərə qarşı belə bir addımın həyata keçirildiyini sübuta yetirə, bunu təsdiqləyəcək mötəbər mənbələr ortaya qoya bilməyib. Ermənilərin Azərbaycanda həyata keçirdikləri, on minlərlə günahsız azərbaycanlının ölümü ilə nəticələnmiş qırğınlarla bağlı isə yüzlərlə sənədli fakt var. Soyqırımının araşdırılması məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının sənədləri bu erməni vəhşiliyini tarixi faktlarla, danılmaz dəlillərlə sübuta yetirir. Həmin sənədlərin hər biri ermənilərin həm Azərbaycan türklərinə, həm də Türkiyədəki soydaşlarımıza düşmənçiliyinin bariz təsdiqidir.

Bu gün Ermənistan dövlətinin erməni faşizminin simvollarından biri kimi heykəlini ucaltdığı Qaregin Njde öz millətçilik təliminin ilk cümləsində yazırdı ki, sonuncu türk kar, kor, lal olsa da, öldürülməlidir. Təkcə elə bunun özü türkə nifrətin, türk düşmənçiliyinin ermənilərin əlində bir ideoloji vasitəyə, silaha çevrildiyini göstərir. Onların 1918-ci ilin martında Azərbaycan ərazisində müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları da ermənilərin Türkiyədə başladıqları prosesin daha geniş miqyasda davamı idi. Belə ki, Osmanlı Türkiyəsi Birinci Dünya müharibəsində zəif düşsə də, dağınıq qüvvələrini birləşdirərək hərbi gücünü möhkəmləndirməyi bacardı. Nəticədə ərazidəki silahlı ermənilər, o cümlədən Avropadan və Rusiyadan gələn silahlı ermənilər Türkiyə ərazisini tərk etməyə başladılar. Onların bir hissəsi Qərbi, bir hissəsi Cənubi, bir hissəsi Şimali Azərbaycana gəldi. Osmanlıda öz maraqlarını təmin edə bilməyən ermənilər 1918-ci ildə bu ərazilərdə soyqırımı törətdilər.

Bu millətin türk düşmənçiliyi sonrakı onilliklərdə də müxtəlif formalarda, o cümlədən dünyanın əksər ölkələrində türklərə qarşı törədilən terror hadisələri ilə davam etdi. Bir çox beynəlxalq qurumlar qarşısında "erməni soyqırımı" məsələsi qaldırıldı. Bu mövzu yenidən ermənilərdən vasitə kimi istifadə etməklə Türkiyəni çətin vəziyyət qarşısında qoymaq istəyən bədxahlarına imkan verdi. 1980-ci illərin sonlarında baş verən dəyişikliklər dövründə isə ermənilər öz mənfur planlarını həyata keçirmək üçün yeni fürsətlər tapdılar. Azərbaycan ərazilərini işğal etdilər, on minlərlə soydaşımızı qətlə yetirdilər.

## Tarixi tarixçilər araşdırmalıdırlar

Keçmişin unudulmaması, tarixi həqiqətlərə düzgün qiymət verilməsi və ümumən bəşəriyyətə qarşı yönələn cinayətlərin bir daha təkrarlanmaması üçün bu cür hadisələr diqqətlə, obyektiv tədqiq olunmalıdır. Amma bu cür hadisələrin öyrənilməsinin ali məqsədi də sülhə, sabitliyə, xalqlar arasında barışa, eyni zamanda sırf bu cinayətlərdə əli olan canilərin cəzalandırılmasına xidmət etməlidir. Xalqlar arasında kin-küdurəti, qarşılıqlı nifrəti unutdurub gələcək insan faciələrinin qarşısını almalıdır. Bunun əksi baş verəndə, soyqırımı iddiaları bütün dövlətə qarşı siyasi təzyiq alətinə çevriləndə isə yeni münaqişələr üçün mənbə rolunu oynayır və gələcək üçün böyük risklər doğurur.

Müasir Türkiyə Cümhuriyyətinin ermənilərin bu iddiaları ilə bağlı mövqeyi aydındır. Türkiyə rəhbərliyi bu məsələni tarixçilərin araşdırmalı olduğunu bir neçə dəfə bəyan edib. Hətta Türkiyə tərəfindən bu məqsədlə alimlərdən ibarət birgə komissiyaların yaradılması təşəbbüsləri də irəli sürülüb. Əfsuslar olsun ki, ermənilər bu cür təşəbbüslərdən qaçırlar. Onlara yaxşı bəllidir ki, elə araşdırmalar onların soyqırımı iddialarının qondarma olduğunu sübuta yetirəcək. Üstəlik, bundan sonra soyqırımı nağılları ilə ağlayıb-sıtqayaraq dünyanı dolaşanda daha onların bu nağıllarına da az adam inanacaq.

Bu məsələyə bir çox ölkənin ikili standartlar çərçivəsindən yanaşması da diqqəti çəkir və açığını desək, ikrah doğurur. Məsələn, Fransanın erməni soyqırımına münasibəti hər kəsə bəllidir. Bu ölkə hətta bir neçə il əvvəl bu saxta iddianı şübhə altına alan vətəndaşlarının məsuliyyətə cəlb edilməsi barədə hansısa qanunvericilik aktı belə qəbul edib. Bu günlərdə isə Fransa Prezidenti Emmanuel Makron Rusiya-Ukrayna münaqişəsi zamanı Ukraynanın Buça şəhərində baş vermiş faciəni "soyqırımı" adlandırmaqdan imtina edib. Bildirib ki, bu fakta siyasətçilər yox, hüquqşünaslar qiymət verməlidirlər. Sözümüz yox. Amma Türkiyə də təxminən oxşar mövqeyi nümayiş etdirir. Deyir ki, 100 il əvvəl Osmanlı Türkiyəsində baş verən, müasir Türkiyə Cümhuriyyətinə ciddi bir aidiyyəti olmayan, Türkiyə siyasətçilərinin, dövlət qurumlarının heç bir məsuliyyət daşımadıqları bu hadisələrə də yalnız tarixçilər qiymət verməlidirlər.

1918-ci ilin martında on minlərlə soydaşımızı qətlə yetirmiş daşnakların qanlı irsini davam etdirərək 1992-ci ilin 26 fevral günü Xocalıda Azərbaycan vətəndaşlarına qarşı soyqırımı törədən, eləcə də Birinci Qarabağ müharibəsi vaxtı başqa kəndlərimizdə, şəhərlərimizdə əli minlərlə günahsız azərbaycanlının qanına batan Robert Koçaryan, Serjik Sarkisyan kimi körpə qatilləri hələ də cəzasız qalıblar. Bu daşnak xislətli "insanlar" törətdikləri bəşəri cinayətdən o qədər məmnundurlar ki, öz dəhşətli əməllərini hətta beynəlxalq təşkilatların tribunalarında, ayrı-ayrı media orqanlarına müsahibələrində səsləndirməkdən belə çəkinmirlər. Amma beynəlxalq ictimaiyyət, ədalət məhkəmələri onların bu qanlı cinayətlərinə görə məsuliyyətə cəlb edilməsi ilə bağlı çağırışlara məhəl qoymurlar. Belə canilərin azadlıqda gəzməsinə, törətdiyi cinayətin cəzasını çəkməməsinə məhəl qoymamaqla öz dəyərlərinə sayğısızlıq göstərirlər.

## Beynəlxalq ictimaiyyət ermənilərin manipulyasiyalarından bezib

Onu da qeyd edək ki, ermənilərin "soyqırımı" mifindən yeri gəldi-gəlmədi istifadə etməsi, bu mif üzərində manipulyasiya qurması artıq çoxlarını bezdirib. Uzun illər hər dəfə 24 aprel ərəfəsində əsas diqqət ABŞ Prezidentinin "soyqırımı" sözünü işlədib-işlətməyəcəyinə yönəldilirdi. ABŞ prezidentləri isə bu məsələdə mümkün qədər korrekt davranaraq belə bir ifadədən istifadə etməyi özlərinə rəva bilmirdilər. Amma ötən il ABŞ Prezidenti C.Bayden bu sözü işlətdi.

Ermənistan bundan nə qazandı, əldə etdiyi nə oldu? Ermənistan cəmiyyətinin həyatında nə dəyişdi? Əksinə, sağlam düşüncəyə malik hər bir adam bu cür soyqırımı yalanlarının dünyanın müxtəlif ölkələrindəki erməni lobbi təşkilatlarının əlində sadəcə pul qazanmaq aləti olduğunu, Ermənistan cəmiyyətinə isə heç bir faydasının olmadığını göstərdi. Müasir dünyamızda nifrət, kin-küdurət, başqalarına qarşı saxta iddialar xalqlara, ölkələrə heç bir fayda gətirmir. Müasir dünya sıx əməkdaşlıqlar, fəal kommunikasiyalar, sülh və inkişaf dünyasıdır. Erməni lobbisinin dünyaya yaydığı yalanlar, xəbisliklər Ermənistan və bu ölkənin vətəndaşlarını illərdir ki, inkişafdan kənar saxlayıb, zəlil günə qoyub. Artıq Ermənistan cəmiyyətində də bu həqiqəti dərk edənlərin sayı artır və soyqırımı mövzusu ətrafında ajiotaj yaratmaq getdikcə çətin olur.

## İbrət dərsi

Bu baxımdan Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbəsi Ermənistan cəmiyyətinə ibrət dərsi oldu. Onlar gördülər ki, gələcək rifahları Azərbaycanın öz qələbəsi ilə regionda yaratdığı tarixi reallıqları düzgün dəyərləndirmələrindədir. Haqq yoluna gəlmək üçün onlara verilən sonuncu şansdan istifadə edib Türkiyə ilə, Azərbaycanla sülh və mehriban qonşuluq münasibətlərində yaşamaqlarındadır. Əməkdaşlıq imkanlarından ölkənin, xalqın rifahı üçün faydalanmalarındadır.

Hazırda Ermənistanın baş naziri Nikol Paşinyanın faktiki olaraq ölkəmizlə danışıqları Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü 5 prinsip üzrə aparmağa razılaşması artıq erməni hakim dairələrində də reallığın obyektiv qiymətləndirildiyini göstərir. Azərbaycan Prezidentinin irəli sürdüyü prinsiplərin hər biri beynəlxalq hüquqa əsaslanır. Onlara əməl olunması regionda əbədi sülhün, davamlı inkişafın əsasını qoya bilər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Güclü Azərbaycan dövləti qondarma erməni iddialarını darmadağın edir

**Erməni millətçiliyi 1915-ci ildə onlara qarşı soyqırımı törədildiyini iddia etsə də, indiyə qədər bununla bağlı ortaya tutarlı fakt qoya bilməyib.**

Türkiyə tərəfinin davamlı şəkildə təkidlərinə rəğmən Ermənistan ötən əsrin əvvəlləri ilə bağlı arxivlərin birgə araşdırılmasını, tədqiqatların aparılmasını istəmir, inadla bundan boyun qaçırır.

## Ermənilər uydurma "soyqırımı"ndan siyasi məqsədlər üçün istifadə edirlər

Onilliklər boyu ermənilər qondarma təbliğatla özləri barədə "məzlum xalq", "əzabkeş" mifləri yaradıblar və bunu zaman-zaman genişləndiriblər. Onların apardığı saxta təbliğata təəssüf ki, ikili standartların nümunəsi kimi ayrı-ayrı dövlətlər tərəfindən də dəstək verilib. Erməni lobbisinin məkrinə uyan bəzi ölkələrin parlamentləri qondarma "erməni soyqırımı" ilə bağlı müxtəlif sənədlər qəbul edib, bu əsassız iddiaları tanıyıblar.

Bununla belə qondarma "soyqırımı"nı tanıyan ölkələrin özləri də tarixdə nəyin baş verdiyini araşdırmaqda maraqlı olmayıblar. Çünki soyqırımını sübut etmək üçün ortaya fakt qoymaq mümkün deyil. Həm də məlumdur ki, tarixdə heç zaman olmayan uydurma "soyqırımı"nı dünyanın gündəliyinə gətirən ermənilər ondan siyasi məqsədlər üçün istifadə edirlər.

## Soyqırımına məruz qalan azərbaycanlılardır

Soyqırımı bütöv əhali qruplarının, etnosların irqi, milli, etnik, yaxud dini əlamətlərə görə tamamilə və ya qismən məhv edilməsi deməkdir. Bu baxımdan tarix faktlarla sübut edir ki, ermənilər soyqırımına məruz qalmamış, öz mənfur əməllərini, sərsəm "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün xalqımıza qarşı ən dəhşətli soyqırımı cinayətlərini həyata keçirmişlər.

Azərbaycan torpaqları hesabına dövlət quran ermənilər tarixin bütün mərhələlərində xalqımıza qarşı insanlığa yaraşmayan qanlı əməlləri ilə yadda qalıblar. 1905-ci ildən başlamış 1918-1920-ci, 1948-1953-cü illərdə, nəhayət, 1988-ci ildən sonra Azərbaycan xalqına qarşı qandonduran soyqırımı cinayətlərini törətmişlər. Bu gün tarixi Azərbaycan ərazisi olan indiki Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb.

Eyni zamanda ermənilər Azərbaycan mədəniyyətinə qarşı son iki yüz ildə soyqırımı həyata keçirmişlər. Ermənilərin yüzilliklər boyu törətdiyi şovinist və işğalçı siyasət nəticəsində əzəli Azərbaycan torpaqları qəsb edilib, on minlərlə soydaşımız vəhşicəsinə öldürülüb, minlərlə maddi və mənəvi mədəniyyət abidələrimiz vandallıqla dağıdılıb və ya erməniləşdirilib.

## Dünya artıq saxta iddialara inanmaq istəmir

Uzun illər Ermənistan xarici havadarlarının köməyi ilə dünyada informasiya vakuumu yaratmaqla öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımağa çalışıb. Lakin Vətən müharibəsində döyüş meydanında darmadağın edilən işğalçı dövlət artıq ifşa olunub və uzun dövrdür istəyinə nail ola bilmir. Çünki Azərbaycan informasiya blokadasını nəinki çoxdan sındırıb, həm də Prezident İlham Əliyevin hücum diplomatiyasının nəticəsində erməni yalanlarına böyük zərbə vurulub.

Xocalı soyqırımının ayrı-ayrı ölkələr və ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları tərəfindən tanınması göstərir ki, erməni yalanları bütün dünyada sürətlə ifşa olunur. Vətən müharibəsində Gəncə, Bərdə, Tərtər və digər rayonlarımızın, mülki şəxslərin bombalanması bir daha qaniçən erməni xislətinin təsdiqi oldu. Ona görə artıq xarici ölkələrdəki erməni diaspor təşkilatlarının saxta təbliğatı əvvəlkitək ayaq tutub yerimir. Bu günkü reallıqları, tarixi həqiqətləri düzgün dəyərləndirən ayrı-ayrı ölkələrin siyasi mərkəzləri uzun illərdir dünyanı aldadan ermənilərin əlində artıq alət olmaq istəmirlər.

Bütün bunları 44 günlük Vətən müharibəsində Azərbaycanın informasiya cəbhəsində qalib olması da təsdiq edir. Həmin günlərdə Prezident İlham Əliyev düşmənin saxta informasiya cəbhəsini darmadağın etdi. Dünya ictimaiyyəti ermənilərin və onların havadarlarının yalan informasiyalarını qəbul etmədi.

Artıq dünya tarixi həqiqətləri görür, anlayır, uzun illər ayaq tutub yeriyən erməni yalanının maskası yırtılıb, iç üzü, mahiyyəti bəlli olub. Məkrli və hiyləgər erməni yalanları güclü və tutarlı şəkildə ifşa olunmaqdadır. Bütün dünyaya tədricən agah olur ki, ermənilərin bütün iddiaları uydurmadır və əslində, onların özləri türklərə və azərbaycanlılara qarşı soyqırımı cinayətləri törətmişlər.

Bəli, müəyyən zamanlarda ermənilər niyyətlərinə çatsalar da, indi zaman dəyişib. Güclü Azərbaycan dövləti qondarma erməni iddialarını nəinki ifşa, həm də darmadağın edir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***




Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



● Qarabağ Azərbaycandır!



# Möhtəşəmliyi ilə sevilən "Şuşanın dağları"

**Şuşa nəinki qarabağlıların, bütün azərbaycanlıların qürur və fəxarət yeridir. Bu qədim şəhərin əsrarəngiz təbiətinə, yaşıl xalılı yaylaqlarına, laləli çəmənlərinə, bir-birindən mənzərəli dərələrinə, dağlarına, mərcan sulu bulaqlarına, ruzi-bərəkət bolluğu çaylarına onlarca şeir yazılıb, musiqi bəstələnib. Bunların içərisində daha çox sevilən və əbədiyaşarlıq qazanan "Şuşanın dağları" mahnısı həmişə dinləyicilərə duyğulu anlar yaşadır.**

20-ci əsrin birinci yarısında yaranmış bu mahnı geniş ictimaiyyət arasında xalq bəstəsi kimi tanınmış və populyarlaşmışdır. Mahnının müəllifi böyük ustad Xan Şuşinskidir. Musiqi tariximizdə həm görkəmli xanəndə, həm də bəstəkar kimi tanınmış Xan Şuşinski bir çox mahnının müəllifidir. Onun bəstələdiyi mahnılar o qədər sevilmişdir ki, hətta bəzən onların xalq bəstəsi olduğunu söyləyənlər də az olmamışdır. Şuşanın dağlarını, bağlarını, qızlar oylağını, həmçinin İsa bulağını, axşamlarını vəsf edən bu mahnı hər səsləndə dinləyicilərdə başqa bir ovqat yaradır.

Xan Şuşinski Üzeyir bəy Hacıbəylidən başqa heç bir bəstəkara müraciət etməmişdir. Bunun əsas səbəbi Üzeyir bəyin Xan Şuşinskinin ifasında öz mahnılarını dinləməsindən xüsusi zövq alması idi. Mütəxəssislərin fikrincə, segah üstündə yazılmış bu bəstənin sözləri də Xanındır.

Şuşanın dağları başı dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdu gümanım.

**Nəqərat:**
Ay qız, bu nə qaş - göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Şuşada axşamlar yanar ulduzlar,
Onlardan gözəldi gəlinlər, qızlar,
Oturub yol üstə yarını gözlər.

**Nəqərat:**

Şuşanın hər yandan gəlir sorağı,
Tərifə layiqdir İsa bulağı,
Dağları, bağları, qızlar oylağı.

Müəllif Xan Şuşinskinin sözlərinə əsasən, mahnıda Şuşanın təbiəti gözəl qızla müqayisə edilir. Şuşa dağlarının başı dumanla örtüldüyü kimi, qadın da yaylıqla başını örtür. Dağların orta hissəsinin lalə ilə bol olması qızın qırmızı köynəkli olmasına işarə edir. Dağın alt hissəsi isə onun yaşıl ətəyi ilə müqayisə olunur. Müəllifin dediyi kimi, əgər bu sözlər dəyişdirilərsə, mahnının mənası itər. Bəzi mənbələrdə Şuşa dağlarının başının dumanla örtüldüyü mavi rəngi, "qırmızı qoftalı yaşıl tumanlı" bəndində isə müvafiq olaraq qırmızı və yaşıl rəngləri musiqisevərlərə bildirmək istəmişdir. Yəni Azərbaycan Xalq Cümruhiyyətinin bayrağını gizli mesajla dinləyicilərə çatdırmışdır. Onun gizli mesajına səbəb o zaman Azərbaycanın sovet imperiyasının tərkibində olması idi.

Zamanında mahnı qrammofon valına yazılarkən Xan əmiyə bildirmişdilər ki, mahnıda "duman" və "ölürəm" kimi çoxlu kədərli sözlər var. Xanəndə cavabında Şuşanın dumanlı dağ zirvələrindən birinə işarə edərək söyləyib ki, dağların zirvələri elə dumanlı olmalıdır. "Ölürəm" kəlməsi isə həqiqi ölmək mənasında deyilmir. Buna baxmayaraq, Şuşinskidən mahnının sözlərinin dəyişdirilməsini tələb edərək eşitdirirlər ki, sovet Şuşasının dağlarının başı "dumanlı" ola bilməz. Xanəndə vəziyyətdən çıxış yolu kimi, ilk sətri "Şuşanın dağları deyil dumanlı" yazmalı olur. Lakin mahnı indiki günümüzdə də öz ilkin variantında ifa olunur.

Sonradan bu mahnı şifahi ənənələrdə geniş yayılaraq xalq mahnısına çevrilib. İllərdir ki, bu mahnı Azərbaycanın ən məşhur muğam ustalarının repertuarında yer alıb. Böyük sənətkarlarımız Əbülfət Əliyev, Yaqub Məmmədov, Vəli Məmmədov və Arif Babayevin ifalarında "Şuşanın dağları" daha möhtəşəm səslənir.

2020-ci il noyabrın 10-da Zəfər qələbəsi ilə başa çatan Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və milli ordumuzun şücaəti sayəsində 30 illik erməni işğalından azad edilən Şuşada - Cıdır düzündə bu mahnı hər dəfə möhtəşəmliyi ilə səsləndə sanki Xan Şuşinskinin təsvir etdiyi başı dumanlı dağların, qırmızı qoftalı, yaşıl tumanlı ellərin sinəsinə məlhəm qoyulur. İnsanlar öz dədə-baba yurdlarını azad, dağların başını dumansız görəndə nə qədər sevinir və qürur duyurlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Muzeylərimiz

# Tarixi yaşadan milli-mənəvi xəzinə

**Azərbaycan xalqının ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətini əks etdirən muzeylər ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliği işində mühüm rol oynayırlar. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olub, bütün bölgələrimizi əhatə edir.**



Lakin erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalan ərazilərimizdəki tarix-memarlıq abidələri, xatirə-memorial komplekslər və muzey-qoruqlar 30 ildə amansızcasına dağıdılmış, fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarları qarət edilmişdir. Erməni qəsbkarlarının törətdikləri vandalizm aktları "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasına ziddir.

Erməni işğalı zamanı Şuşada da muzeylər talan edilmişdir. Halbuki bu gözəlliklər məkanını tədqiqatçılar "muzeylər şəhəri" adlandırmışlar. Tarix muzeyi diyarın keşməkeşli və şanlı tarixindən söhbət açırdı, Dərman bitkiləri muzeyi təbiətin bir çox sirrinə bələdçilik edirdi, Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Nəvvabın, Mehmandarovların və başqalarının ev-muzeyləri milli mədəniyyətimizin tanınmış və məşhur simalarının həyat və yaradıcılığını özündə yaşadırdı. Qapıları şəhərə gələnlərin üzünə həmişə açıq olan Şuşa muzeyləri əsrlərin hadisələrini özündə yaşadan, qoruyub-saxlayan, öyrənən maddi-mənəvi xəzinə idi.

## Şuşa Tarix Muzeyi

1969-cu ildə fəaliyyətə başlayan Şuşa Tarix Muzeyi Yuxarı Gövhər ağa məscidində yerləşirdi. Burada tarixi keçmişimizdən, dünənimizdən soraq verən 2500-dən artıq eksponat nümayiş etdirilirdi. Şəhərin tarixi ilə bağlı bir çox əşya, xüsusən 1795-ci ildə İran hökmdarı Ağa Məhəmməd şah Qacarın Şuşaya basqını zamanı qala divarlarına atılmış top mərmisi qanlı-qadalı illəri xatırladırdı. Şuşanın müasir həyatına, şuşalıların mübarizəsinə, İkinci Dünya müharibəsindəki qəhrəmanlığına həsr olunmuş stendlər də böyük maraq doğururdu. Ümumiyyətlə, muzeyə tamaşa edərkən şəhərin keşməkeşli həyatı göz önündə canlanır, şanlı keçmişi haqqında zəngin təəssürat yaradırdı.

## Şuşa Xalça Muzeyi

Şuşa Xalça Muzeyi 1982-ci ildə Mehmandarovların yaşayış kompleksində açılmışdı. Tədqiqatçı-jurnalist Vasif Quliyev muzeylərlə bağlı araşdırmalarında bildirir ki, binanın dörd böyük salonunda xalça ustalarının 300-dən çox əl işi nümayiş etdirilirdi. Xalçalar toxunuş xüsusiyyətlərinə görə ayrı-ayrı salonlarda yerləşdirilmişdi. Salonların üçündə xovlu, birində isə xovsuz xalçalar toplanmışdı. Bura əsasən Qarabağ xalçaçılıq məktəbinə aid nümunələr daxil idi. "Güzgülü xalı", "Güllü kilim", "Balıq", "Ləmpə", "Xantirmə" kimi monumental ölçülü xalçalar milli naxış quruluşu, rəng ahəngdarlığı, orijinal kompozisiyası, ümumiyyətlə, bədii xüsusiyyətlərinə görə baxımlı idilər.

Pənahəli xan Cavanşirin saray emalatxanasında toxunmuş "Xanlıq" adlı xalça saralıbsolsa da, orijinal kompozisiyası və rəng baxımı ilə seçilirdi. Muzeydə nümayiş etdirilən sənət əsərlərinin çoxunun öz adı və tarixi vardı. Təbriz, Quba-Şirvan, Gəncə-Qazax məktəblərinin nümunələri də muzeydə geniş təmsil olunmuşdu. Muzeyin ekspozisiyası Azərbaycan xalqının tarixi keçmişinin öyrənilməsində qiymətli mənbə kimi mədəniyyət və incəsənətimizin parlaq səhifəsini təşkil edirdi.

## Şuşa Dərman Bitkiləri Muzeyi

Şuşa Dərman Bitkiləri Muzeyi 1984-cü il iyulun 29-da Vaqif poeziya bayramında açılmışdı. Mehmandarovların yaşayış kompleksinə daxil olan bərpa edilmiş məhəllə məscidində fəaliyyət göstərirdi.

V.Quliyev yazır ki, muzeydə çobanyastığı, boymadərən, gülxətmi, bağayarpağı, ətirşah, qatırquyruğu, yovşan, gicitkən, qırxbuğum, dağ tərxunu, adaçiçəyi, darçın, dağ nanəsi, ümumiyyətlə, 50-dən çox dərman bitkisi nümayiş etdirilirdi. Ağacdan toxunmuş dibçək və səbətlərdə əkilən çəmən ətirli dərman bitkiləri muzeyi kiçik bir dağ bağçasına bənzəyirdi. Həmin şəfaverici bitkilərin demək olar ki, hamısı Şuşanın yaylaqlarında, dağ və yamaclarında bitirdi. Bir yanda isə keçmiş təbabətdə istifadə edilən sənətkarlıqla işlənilmiş qab-qacaq, saxsıdan düzəldilmiş mis həvəngdəstə, dərman hazırlamaq üçün şüşə qablar, manqal, sandıq, gülab qabı, kasa və cam qoyulmuşdu. Mirzə Sadıq Lətifov, Mirzə Məmmədqulu Təbib, Mir Möhsün Nəvvab, Mirzə Cavad Qayıbov, Mirzə Hüseyn, Əbdülkərim bəy Mehmandarov kimi el təbiblərinin yağlı boya ilə çəkilmiş portretləri divar boyu sıralanmışdı. Bir guşədə isə məşhur xalq həkimlərinin təbabətə aid kitablarından ekspozisiya təşkil olunmuşdu.

Tədqiqatçı onu da qeyd edir ki, muzeyin nəzdində 666 nömrəli aptek fəaliyyət göstərirdi. Burada əhaliyə əczaçılıq xidməti göstərilir, təbii bitkilər və onlardan hazırlanan dərmanların açıq satışı təşkil edilirdi.

*"Azərbaycan"*

● Şuşanın tanınmış nəsilləri

# Behbudovlar

**Behbudovların Azərbaycan tarixində, elm, mədəniyyət, incəsənət və ədəbiyyatın inkişafında xidmətləri olub. Onların ulu babaları Cavanşir elinin Sarıcalı oymağındandır. Qarabağda tanınan, sayılıb-seçilən Behbudovlar və ya Behbudalılar soy adlarını Behbudəli ağa İbrahimxəlil ağa oğlundan alıblar.**

Behbudəli ağa Cavanşir 1695-ci ildə Sarıcalı obasında dünyaya gəlib. Mədrəsədə təhsil alıb. O, Qarabağın igidliyi ilə tanınan bəylərindən biri olub. Pənahəli xanın qardaşı idi. Behbudəli ağa Qarabağ xanlığının qurucularından biri, Qarabağ qoşununun sərkərdəsi olub.

O, 1767-ci ildə Şuşa şəhərində dünyasını dəyişib. Oğulları Əbdüssəməd bəy, Mirzalı bəy və Qasım bəy də xanlıqda sayılıb-seçilənlərdən olub. Tarixçi Mirzə Camal Cavanşir Qarabağinin məlumatına görə, İbrahimxəlil xanın qardaşları, qardaşı oğlanları, öz övladları və əmisi uşaqları məruf bəy olub, mal-dövlət, nökər və cəlal sahibi idilər. Onların hər biri başqa vilayətlərin xanlarına bərabər idi.

Behbudəli ağanın nəvəsi, Qasım bəyin oğlu Ağalar bəy 1758-ci ildə Şuşa şəhərində dünyaya göz açıb. Mədrəsədə oxuyub. Qardaşları Hacı Bəylər bəy və Rüstəm bəy kimi, Ağalar bəy də Mehdiqulu xana xidmət edib. Xan onlara çox inanıb, xətirlərini əziz tutub, yüksək imtiyazlar verib.

Zabux, Şəki, Qarakilsə, Əngələvüd, Daşkənd, Qubadlı, Yuxarı Hal kəndlərinin, Hacıağalarbəyli, Şükür-Muğanlı, Bərgüşadlı, Əliyanlı, Tatar, Tatarlı, Xocamusaqlı, Eyvazsərkarlı, Zodmanlı, Çullu obaları Hacı Ağalar bəyə məxsus olub.

Ona kapitan rütbəsi 1810-cu ildə atası Qasım bəylə bərabər, Abbas Mirzənin qoşunlarına qarşı göstərdiyi şücaətə görə ruslar tərəfindən verilib.

O, xanlıq dövründə Sisyan, Tatev, Bərgüşad, Əcanan mahallarının naibi, Zəngəzur kəndlərinin kələntəri olub. Qarabağ xanlığının sonuncu xanı Mehdiqulu xan Cavanşir 1822-ci ildə İrana qaçdıqdan sonra ona yaxın olanların çətin günləri başlayıb. Hacı Ağalar bəyi həbs edib Rusiyanın ucqarlarına sürgün etmək istəyiblər. O, bu cəzadan qurtula bilib.

Hacı Ağalar bəy 1826-cı ildə Şuşada ruslara qarşı qiyam qaldırıb, o, bu dəfə də xilas ola bilib, İrana keçib. Abbas Mirzə ona xan ünvanı verərək ordusunun bir dəstəsinə başçı təyin edib. Tarixçi Mir Mehdi Xəzani Hacı Ağalar xanın Həkəri çayı yaxınlığında rus qoşununa zərbə vurduğunu yazıb: "Kapitan Hacı Ağalar bəy ki, mütai-Qızılbaş idi, xəbərdar olub, neçə nəfər bəyzadələrin ittifaqı ilə əkradın süvarə və piyadələri ilə gəlib, çayın bu tərəfini kəsiblər. Bir heyət ilə, iki tərəfdən macal verməyib, soldatı aralığa alıb və bəzisini qılıncla öldürmüş və bəzilərini giriftari-kəməndi-üsar etmişdilər ki, onlardan bir nəfəri fəllahi olub fərar etməyə macal və məqdur olmamışdı".

Hacı Ağalar bəy 1834-cü ildə Tehranda vəfat edib. Hacı Ağalar bəyin Qasım xan, Məhəmməd bəy adlı oğulları, Aftab bəyim, Xırda bəyim, Dürnisə bəyim, Şəhribanu bəyim adlı qızları olub.

Qasım bəyin digər oğlu Rüstəm bəy də Şuşada dünyaya gəlib. Mədrəsə təhsili alan Rüstəm bəy Mehdiqulunun xanlığı dövründə divanxanada möhürdar vəzifəsində xidmət göstərib. O, bacarıqlı sərkərdə kimi də tanınıb, Qarabağ xanlığına basqın edən qoşunlara qarşı qəhrəmanlıqla döyüşüb. Ruslar Qarabağı ələ keçirdikdən sonra Mehdiqulu xanın yaxın adamlarını öz tərəflərinə çəkmək istəyiblər. Rüstəm bəyə bu məqsədlə kapitan rütbəsi versələr də, məqsədlərinə nail ola bilməyiblər.

Xan 1822-ci ildə İrana qaçıb. Rüstəm bəy isə həbs edilib, sonra azad olunub. İrana qaçmış qardaşları Feyzi bəyə, Fərzi bəyə, Baxşalı bəyə görə onun başı bəlalar çəkib. 1826-cı ildə qardaşları Hacı Ağalar bəylə Hacı Bəylər bəy qiyam qaldırıb, ruslara xeyli zərər vurduqdan sonra onlar da Arazı keçiblər. Rüstəm bəy həbs olunub. Onun oğlu Əsəd bəy Mehdiqulu xanın yanına qaçıb. Rüstəm bəyin qardaşları İran tərəfindən ruslara qarşı döyüşüblər.

Rüstəm bəyin Əsəd bəy, Hüseyn bəy adlı oğulları, Zeynəb xanım, Nabat xanım adlı qızları olub.

Tərcüməçi, pedaqoq Səlim bəy Mehrəli bəy oğlu Behbudov 1885-ci ildə Şuşa qəzasının Üçoğlan kəndində dünyaya gəlib. Şuşa Realnı Məktəbində oxuyub. Təhsilini davam etdirmək üçün Rusiyaya yollanıb. 1905-ci ilin yanvarında Sankt-Peterburq Texnologiya İnstitutu rəsmi olaraq bağlanıb. Həbs olunmaq təhlükəsi ilə üzləşən Səlim bəy Şuşaya dönüb. Avropanın ali məktəblərindən birində təhsil almaq niyyəti ilə fransız dilini öyrənməyə başlayıb. Ancaq atası Mehrəli bəyin qəfil ölümündən sonra maddi vəziyyəti ağırlaşıb. Arzusundan dönməyən Səlim bəy xeyriyyəçi Əjdər bəy Aşurbəyova müraciət edib. Onun maddi yardımı ilə Paris Siyasi Elmlər Məktəbinin Diplomatiya fakültəsinə oxumağa gedib. Tələbə ikən həm də müəllimlik edib, böyüklər üçün açılmış Berlits məktəbində rus və türk dillərindən dərs deyib. 1910-cu ildə təhsilini bitirib. Parisdə qalaraq müqavilə əsasında Berlits məktəbində üç il müəllimlik edib. 1913-cü ildə Şuşaya qayıdıb. Əvvəlcə evlərdə fransız dili dərsi deyib. Bir müddət isə Şuşa Realnı Məktəbində və progimnaziyasında fransız dilindən dərs deyib.



Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra o, Ağdama qaçqınlar üzrə müvəkkil təyin olunub. Bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra Səlim bəy yüksəkixtisaslı kadr kimi dövlət idarələrinə işə dəvət olunub. Bir müddət Qarabağ İnqilab Komitəsində katib, tərcümə şöbəsinin, Azərbaycan Kənd Təsərrüfatı Bankı Ağdam şöbəsinin, Ağdam İcraiyyə Komitəsində torpaq şöbəsinin müdiri vəzifələrində işləyib. Amma Şura hökuməti Səlim bəy Behbudova da bəy nəslindən olduğunu bağışlamayıb. Bir müddət keçəndən sonra o, işdən çıxarılıb. Səlim bəy Üçoğlan kəndində atasından qalma 25 desyatin torpaq sahəsini və əmisi oğlu Cahangir bəylə şərikli kəhrizini kəndlilərə icarəyə verib. İşsiz qalan Səlim bəy Behbudov 1926-cı ildə Bakıya köçüb. O, burada dörd il Dövlət Plan Komitəsində mədəniyyət bölməsinin katibi, altı il isə Azərbaycan Sənaye Şurasında, "Azərxalça"da kadrlar üzrə iqtisadçı işləyib. Eyni zamanda Bakıdakı 25 nömrəli orta məktəbdə fransız dilindən dərs deyib. Səlim bəy Behbudov bir müddət "Azərnəşr"lə müqavilə əsasında əməkdaşlıq edib. İkinci Dünya müharibəsi ərəfəsində isə o, yalnız orta məktəbdə dərs deməklə həyatını yaşayıb.

Musiqini, poeziyanı çox sevən, böyük həvəslə folklor nümunələrini toplayan Səlim bəy dövri mətbuatda və elm aləmində "Bəy Behbudov" və ya "Behbud bəy Behbudov" kimi tanınıb.

Bəy nəslindən olan, xaricdə ali təhsil alan Səlim bəyə qarşı açılmış cinayət işində dövlət təhlükəsizlik leytenantı B.İ.Kalyagin qeyd edib: "Səlim bəy Behbudov antisovet ünsürdür. 1940-1942-ci illərdə o, hökumətdən narazı olan bir dəstə adamı başına toplayaraq müntəzəm surətdə sovet hakimiyyətinə qarşı gizli əksinqilabi təşviqat aparır. Köhnə bəy-xan ağalığı dövrünün qanun-qaydalarını tərifləyərək onun bərpa olunması mövqeyində dayanır. Kolxoz quruluşuna böhtan atır, sosialist tədbirlərinə, vergi siyasətinə qarşı çıxır. Faşistlərin müvəqqəti olaraq tutduqları rayonlarda dinc əhaliyə və hərbi əsirlərə qarşı etdikləri vəhşiliklər barədə sovet informasiya bürosunun məlumatlarının yalan olduğunu təsdiqləyir".

Yanvarın 24-də Səlim bəy Behbudov tutulub. On bir ay həbsxanada işgəncələrə məruz qalıb. O, 1942-ci ildə güllələnib.

Mühəndis, Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasının üzvü Lütfəli bəy Rəhim bəy oğlu Behbudov 1877-ci ildə Şuşa qəzasının Bayat kəndində dünyaya gəlib. Sankt-Peterburq şəhərində Dağ-Mədən Akademiyasında oxuyub. 1903-cü ildən Hacı Zeynalabdin Tağıyevin şirkətində mühəndis, sonra müdir işləyib. 1911-ci ildə Tağıyevlə münasibətləri korlanıb, məhkəməyə müraciət edib. Ona görə Hacı Zeynalabdin bütün qarabağlıları işdən çıxarıb.

Lütfəli bəy 1911-ci ildə yaratdığı "Kürətan" adlı aksioner cəmiyyətinə rəhbərlik edib. O, Zaqafqaziya Seymində poçt-teleqraf naziri vəzifəsində çalışıb. 1918-ci ildə ermənilər tərəfindən qətlə yetirilib.

Lütfəli bəyin Dilarə bəyim, Pəri bəyim və Leyla bəyim adlı qızları olub.

Behbudovlar nəslindən olan Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti, Türkiyə Silahlı Qüvvələrinin polkovniki, Türkiyə İstiqlaliyyət müharibəsinin iştirakçısı Baba bəy Behbud 1897-ci ildə Şuşada dünyaya göz açıb. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Gəncədə yaradılan hərbi məktəbdə oxuyub. Xidmətə Cümhuriyyət ordusunda Qarabağ süvari alayında başlayıb. Milli ordunun gənc zabiti Baba bəy Behbud Qarabağ süvari alayının tərkibində bir sıra döyüşlərdə iştirak edərək böyük şücaətlər göstərib.

Azərbaycan bolşeviklər tərəfindən işğal ediləndən sonra Qarabağda üsyan başlayıb. Baba bəy Behbud da Qarabağ süvari alayının tərkibində bolşeviklərə qarşı üsyana qoşulub. Üsyan böyük amansızlıqla yatırılıb. Baba bəy Azərbaycan Cümhuriyyəti ordusunun süvari və piyada alaylarının sağ qalan əsgərləriylə birgə İrana gedib.

Gənc zabit Baba bəy Behbud 1920-ci ilin payızından 1921-ci ilin əvvəllərinədək Şərqi Anadolunun ermənilərdən təmizlənməsiylə sona çatan Doğu hərəkatında igidliklə döyüşüb. Sarıqamışın, Qarsın, Gümrünün geri alınmasında iştirak edib. Baba bəy Azərbaycan birliklərinin tərkibində batı cəbhəsinə göndərilib. İzmirin yunan işğalından azad edilməsində Azərbaycan birlikləri böyük qəhrəmanlıqlar göstəriblər. Qurtuluş savaşında igidliklərinə görə Baba bəy Behbud Mustafa Kamal Atatürk tərəfindən "İstiqlal" ordeni ilə təltif olunub. Savaşdan sonra 1925-ci ilin fevralında Türkiyənin Güney doğusunda başlayan "Şeyx Səid" üsyanının, 1926-cı ildə birinci Ağrı, 1927-ci ildə ikinci Ağrı üsyanının yatırılmasında iştirak edib.

Baba bəy 1928-ci ildə İstanbulda Ali Hərbi Akademiyaya daxil olub. Təhsilini başa vurduqdan sonra Azərbaycan Cümhuriyyəti ordusunda birgə xidmət etdiyi bir neçə zabitlə orduda qalaraq hərbi xidmətini davam etdirib. Baba bəy Behbud 1933-cü ildə kapitan, 1940-cı ildə mayor, 1944-cü ildə polkovnik-leytenant rütbəsinə yüksəlib. 1948-ci ildə xidmətləri nəzərə alınaraq, Türkiyə Silahlı Qüvvələrinin komandanlığı tərəfindən polkovnik rütbəsinə layiq görülüb, Ankarada süvari alayının komandiri vəzifəsinə təyin edilib. 1955-ci ildə ehtiyata göndərilib.

Türkiyədə yaşadığı müddətdə azərbaycanlı mühacirlərlə sıx əlaqə qurub. Baba bəy Behbud Azərbaycan Kültür Dərnəyinin yaradılmasında və fəaliyyətində fəallıq göstərib. O, 1970-ci il iyulun 10-da İstanbulda vəfat edib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Xalqımızın qürur ünvanı - Hərbi Qənimətlər Parkı

**Müasir tikililəri, yeni prospekt və parkları, habelə muzey və gəzinti yerləri ilə göz oxşayan Bakının, Xəzərin mirvari boyunbağısı adlandırılan dənizkənarı Sahil bağında bir ildən artıqdır ki, Hərbi Qənimətlər Parkı fəaliyyət göstərir. Burada Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr - 10 noyabr 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayişi yer alıb. Milli Dənizkənarı Parka yolu düşənlər, Bakıda səfərdə olan əcnəbilər və ya turist kimi ölkəmizə səyahətə gələnlər, COVID-19 pandemiyasının tələb və qaydaları çərşivəsində, nə qədər maraqlı və mənalı yerlərdə olsalar da, bu parkı gəzib-görmədən geri dönmək istəmirlər. Ziyarətçilər arasında bu parkı muzey adlandıranlar da çox olur.**

Tamaşaçıların təəssüratlarından məlum olur ki, 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün edib. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla dollar vəsait sərf etdiyi, "keçilməz" dediyi nəhəng istehkamları qısa müddətdə şanlı Azərbaycan əsgəri darmadağın edib. Bir-birinin ardınca şəhər və kəndlərimiz düşmən işğalından azad olunub. 44 gün ərzində Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümayiş etdirib.

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə dövlət başçısı demişdir: "İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir".

Vətən müharibəsi sona çatdıqdan təxminən bir ay sonra - 10 dekabr tarixində Bakıda keçirilən möhtəşəm hərbi paradda Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirilən hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. Bundan iki gün sonra Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin iştirakı ilə Bakıda Hərbi Qənimətlər Parkının açılışı oldu. Demək olar ki, bu park İkinci Qarabağ savaşında qazanılan zəfərin strateji çəkisini nümayiş etdirən tarixi memarlıq və qəhrəmanlıq kompleksidir. Məhz bu kompleksdə 30 il torpaqlarımızı işğal altında saxlayan, Qarabağın maddi-mənəvi dəyərlərini çapıb-talayan, məhv edən təcavüzkar Ermənistana məxsus döyüş texnikasının qüdrətli Azərbaycan Ordusu tərəfindən darmadağın edilmə nişanələri öz əksini tapıb. "Məğlubedilməz" Ermənistan Ordusuna aid 522 hərbi yük maşınının nömrələrinin toplandığı xüsusi lövhənin nümayiş etdirildiyi kompleksdə həmçinin, KUB, OSA zenit raket kompleksləri, 150-dək ağır texnika, T-72 tankları, piyadaların döyüş maşınları, 2S1 özüyeriyən artilleriya qurğusu və digər eksponatlar yer alıb. Düşməndən hərbi qənimət kimi götürülən, Ermənistanın anti-Azərbaycan təbliğatının bir hissəsinə çevirdiyi "İskəndər M" tipli raket sisteminin qalıqlarının da nümayiş olunduğu Qənimətlər Parkı "Dəmir yumruq" əməliyyatının tarixi əhəmiyyətini bir daha göstərir. Bir vaxtlar erməni dövlət nümayəndələri bu raketlə öyünür və Azərbaycanı təhdid edirdi. İndi isə onun qalıqları Azərbaycanda, paytaxt Bakıda nümayiş olunur.

Qənimətlər Parkının hər bir elementi Azərbaycan əsgərinin 44 günlük müharibə zamanı qələbə əldə etmək üçün rəşadət göstərdiyini əks etdirir. Bu mənada parkın ərazisindəki qarşı tərəfin özündə 10 elementdən ibarət mühəndis maneələr sistemini ehtiva edən möhkəmləndirilmiş müdafiə mövqeyinin nümayişi xüsusilə diqqət çəkir. Bu, Azərbaycan əsgərinin dəf etməli olduğu maneələri açıq şəkildə nümayiş etdirir. Məhz bunları gördükdən sonra bir daha əmin olursan ki, döyüşü sadəcə, yüksək texnologiyaya malik silah-sursat, hərbi texnika ilə qazanmaq olmaz. Döyüşü əsgərlər, zabitlər aparır. Buna görə də Vətən müharibəsində rəşadət göstərən, düşmənə göz açmağa imkan verməyən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti öz mübarizliyi ilə xalqımızın qəhrəmanlıq simvoluna çevrilib. Əsgərlərimiz, zabitlərimiz, çavuşlarımız, bu savaşa qoşulan könüllülərimiz döyüş meydanlarında əsl vətən övladının igidliyini, cəsarətini, qorxmazlığını göstəriblər.

Qarabağ zəfərinə aparan yolda Azərbaycan düşməni ağır məğlubiyyətə uğradarkən, təbii ki, itkilərimiz də oldu. Ancaq qazanılan Qələbə xalqımıza təsəlli oldu. Övladını itirən ata-analar da, həyat yoldaşını son mənzilə dəyanətlə yola salan xanımlar da ağrı-acılarını bir kənara qoyub qazanılan Zəfərdə əzizlərinin, övladlarının, yoldaşlarının payının olması ilə qürurlandılar. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin parkın açılışı zamanı dediyi kimi: "Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı".

Bir məqama da toxunaq: Hərbi Qənimətlər Parkı Azərbaycan xalqı və dost ölkələr üçün qürur yeri olduğu halda, ermənilər üçün göz dağına çevrilib. Müharibə öncəsi "Tezliklə tanklarımız Bakı küçələrində olacaq" deyən erməni tərəfi bu gün hay-küy qaldıraraq Bakıda belə bir parkın yaradılmasını erməni xalqı üçün təhqir adlandırır, beynəlxalq təşkilatlara Azərbaycanın "düşmənçiliyi" haqqında müraciət ünvalamaqdan çəkinmirlər. Əlbəttə, bunlar əbəs cəhdlərdir. Düşmən Qarabağın işğalı faktının ona hansı aqibəti yaşadacağını öncədən düşünməli və görməli idi. Onlara dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bunu zamanında anlamadılar. Azərbaycana qarşı qüvvələr dərk etmədilər ki, onların qarşısında tarixi qəhrəmanlıq ənənələri olan bir xalq, bir dövlət və bu dövlətin qüdrətli sərkərdəsi dayanır.

Heç olmasa bundan sonra Ermənistan və onların siyasi qüvvələri 44 günlük müharibədə üzləşdiyi ağır məğlubiyyətin səbəbini təhlil edərək başa düşməlidirlər ki, dünyada haqqı tapdalamağın, başqa xalqın ərazisini, mədəni sərvətini talamağın acı nəticələri olur. Hərbi Qənimətlər Parkı yenidən torpaq işğal etmək üçün müharibə eşqinə düşənlər, onlara havadarlıq edənlər üçün kabus, bütün Azərbaycansevənlər üçün isə qürur ünvanıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Tarix yazanlar

# 3 gündə 3 düşmən tankını məhv etdi

**Baş çavuş Aslan Hüseynov 1988-ci ilin oktyabr ayının 6-da Rusiyanın Orenburq vilayətində dünyaya göz açıb. Sonradan ailə yenidən Azərbaycana qayıdıb. O zaman artıq ermənilərin azərbaycanlılara qarşı torpaq iddiaları başlamışdı. Onun bütün uşaqlığı bu dövrə təsadüf etmişdi.**



2006-cı ildə Qaradağlı kənd orta məktəbini bitirən Aslan həmin il hərbi xidmətə yollanır və əsgərliyini Bakı şəhərində keçir. Komandirləri onun hərbiyə olan marağını yüksək qiymətləndirir və bu sahədə hazırlığını artırmağı tövsiyə edirlər. 2008-ci ildə həqiqi hərbi xidmətini başa vuran gənc 2014-cü ildə yenidən orduya qayıdır və öz qərarını valideynlərinə belə izah edir:

- Torpaqlarımız işğal altındadır. Bu işğala son qoymaq üçün hər birimiz çalışmalıyıq. Mən bilirəm ki, hərbi sahədə Vətənimə daha çox xeyir verəcəyəm.

O, yalnız xidmət etmirdi, həm də öz üzərində ciddi çalışır, müxtəlif kurslarda hərbi biliklərini artırırdı. Bununla bağlı evlərində sertifikatlar, təşəkkürnamələr qorunub saxlanılır. Deyirlər ki, Aslan xüsusilə Spayk raket kompleksi üzrə kursu bitirməsi ilə fəxr edirdi. İsraildə istehsal olunan bu qurğunu mükəmməl idarə etməyi bacaran hərbçilər çox az idi. Onlardan biri həm kursda bir yerdə oxuduğu, həm də Aprel döyüşlərində birgə iştirak etdiyi Ələsgərli kəndindən olan Ruslan idi. Aslan hərbi biliklərini artırdıqca, onları yalnız təlimlər zamanı deyil, həm də canlı döyüşlərdə düşmənə qarşı tətbiq etmək, torpaqlarımızın işğaldan azad olunmasında vuruşmaq istəyi ona rahatlıq vermirdi.

Aprel döyüşləri bu arzusunun reallaşması üçün fürsət oldu. Həmin vaxt Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş Mirdaməd Bağıyev onun komandiri idi.

Anası İradə xanım deyir ki, Aslanın yanında kimsə deyəndə ki, müharibə olmasın, xoşu gəlməzdi. Bildirirdi ki, biz aciz deyilik. Ermənilərin cavabını verməliyik ki, xalqımızın, dövlətimizin başını uca edək. Dediyi kimi də elədi. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinə böyük ruh yüksəkliyi ilə qatıldı, şücaətlər göstərdi və adını tarixə yazdı. Müharibənin 3 günü ərzində o, 3 düşmən tankını vurdu.

Aslanın qardaşı İskəndər Hüseynli də 44 günlük müharibənin iştirakçısıdır. O, özüyeriyən toplardan atırdı. Deyir, xəbər gəldi ki, Aslan erməni tankını vurub, ancaq özü də qəlpə yarası alıb.

Qorxmaz döyüşçünün həyatını xilas etmək mümkün olmadı. O, Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı.

Bu gün onun övladları Aysu və Kənan, elə Azərbaycanımızın bütün balaları bütöv, azad və suveren bir dövlətdə böyüyürlər. Aslanın da arzusu bu idi.

Aslan Hüseynov hərbi qulluqda fərləndiyinə, eləcə də Aprel döyüşlərində və Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə "Şücaətə görə", "Azərbaycan Ordusunun 100 illiyi", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları, ölümündən sonra isə "Azərbaycan Bayrağı" ordeninə, "Suqovuşanın azad olunmasına görə", "Vətən uğurunda" medallarına layiq görülüb.

Tərtər şəhərində küçələrdən birinə Aslan Hüseynovun adı verilib.

***Svetlana BAĞIROVA,***
***"Yeni Tərtər" qəzetinin redaktoru***

● Şəhidlər ölməz, Vətən bölünməz!

# Ölümüylə ölümsüzlük qazandı

**Səfurə ana asudə vaxtlarında övladlarını başına yığıb ailə albomunu vərəqləyən, oğlu Müseyibə, qızlarına burada toplanmış fotoşəkillər haqqında ətraflı məlumat verməyi xoşlayardı. Məqsədi də bu idi ki, uşaqlar baba və nənələrini, yaxın qohum-əqrəbalarını yaxşı tanısınlar, məlumatlı olsunlar.**






Belə günlərin birində 5-ci sinifdə oxuyan Müseyib tank üstündə oturmuş cavan kişini göstərib soruşmuşdu ki, ana, bu kişi kimdir? Səfurə ana qürurla: "Bu mənim atam, sənin baban Cəlil Quliyevdir. SSRİ ilə Almaniya arasında gedən müharibə zamanı çəkdirib bu şəkli. Döyüşlərdə göstərdiyi igidliyə görə orden və medallarla təltif olunub. Müharibə qurtarandan sonra doğma yurduna - Salyana qayıdıb. İlk vaxtlar rəhbər vəzifələrdə çalışıb. Sözü üzə dediyinə görə bəzilərinin ondan xoşu gəlməyib. O da bunu görüb, işdən çıxmaq üçün ərizəsini yazıb, onlardan uzaqlaşıb", - demişdi. Müseyibin tankın üstündəki şəklə diqqətlə baxdığını görən ana: "Böyüyəndə sən də baban kimi igid döyüşçü olmaq istəyərsənmi?" - deyə soruşanda balaca Müseyib başı ilə onun sözünü təsdiqləmiş, ana da çox sevinmişdi.

"Ot kökü üstündə bitər", - deyib atalarımız. Saleh atanın, Səfurə ananın ailə ocağında bir aslan böyüyürdü. Babası kimi igid olmaq, haqsızlığın kökünü kəsmək ən böyük amal kimi onun qəlbində yurd salmışdı. Erməni təcavüzü, Xocalı qətliamı ürəyini düşmənə qarşı qəzəblə doldurmuşdu.

Ay keçir, il dolanır, oxuduğu Salyan şəhər 1 saylı tam orta məktəbin 7-ci sinfini bitirir. Səfurə ana oğlunu götürüb Bakıya gəlir, sənədlərini C.Naxçıvanski adına Hərbi Liseyə verir. Müseyib liseyə qəbul olunur. Doğma evdən, məhəllədən, dostlarından ayrı düşmək əvvəl ona çətin gəlir, lakin vaxt keçdikcə öyrəşir. Dərslər, məşqlər, idman oyunları başını elə qatır ki, darıxmağa vaxtı qalmır. Təhsil aldığı 1992-1996-cı illər də heç bilmədi nə vaxt gəlib keçdi.

Daha peşəkar hərbçi olmaq, hərbi işin sirlərini dərindən öyrənmək arzusu M. Zeynalovu Heydər Əliyev adına Ali Hərbi Məktəbə gətirib çıxarır. Böyük arzulara çatmaq üçün çətinliklərə dözmək, tab gətirmək tələb olunurdu. Kursant kimi komandirlərinin hər bir əmr və tapşırıqlarını vaxtında yerinə yetirmək üçün səy və bacarığını əsirgəmir. 2000-ci ildə Ali Hərbi Məktəbi bitirib leytenant rütbəsi alır. 2000-2003-cü illərdə Gəncədə və Murovda yerləşən hərbi hissələrdə taqım komandiri, 2003-2014-cü illərdə Ali Hərbi Məktəbdə taqım, bölük komandiri, daha sonra tabor komandirinin tərbiyə işləri üzrə müavini və müəllim kimi fəaliyyət göstərir. Çoxlu sayda zabit kadrlarının hazırlanmasında xüsusi əməyi olur. Qüsursuz xidmətlərinə görə III, II və I dərəcəli medallara layiq görülür, mayor rütbəsinə yüksəlir. Nümunəvi xidmətinə görə Azərbaycan Ordusunun yubiley medalları ilə təltif olunur.

Amma torpaqlarımızın düşmən tapdağı altında qalması bir zabit, bir vətəndaş olaraq M.Zeynalovu bir an da rahat buraxmırdı. Səngərə atılmaq, düşməndən qisas almaq məqamını hər an gözləyirdi. Nəhayət, nəyin nə vaxt, necə ediləcəyi vaxt gəlib çatdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz 27 sentyabr 2020-ci ildə əks-hücuma keçdi. İkinci Qarabağ müharibəsi başladı. Ən müasir döyüş sursatları, avadanlıqları ilə silahlanmış Azərbaycan Ordusu ildırım sürətilə ermənilərin 30 il ərzində qurduğu daş, beton səngərləri, yeraltı qərargahları, sədləri vurub dağıtdı. Bunu görən yağılar silah və sursatlarını atıb qaçdılar. 44 gün ərzində Qarabağımız azad oldu.

Cahanşümül qələbənin qazanılmasında mayor M. Zeynalovun da xüsusi rolu vardır. O, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının azad olunması uğrunda gedən qızğın döyüşlərdə canını, qanını əsirgəmədən düşmənə qan uddurub. Tabeliyində olan əsgərlərə döyüş ruhu aşılayıb, hər birinə xüsusi qayğıkeşlik göstərib, ən çətin anlarda qabaqda özü gedib. Bu keyfiyyətləri gənc mayoru əsgərlərə hədsiz dərəcədə sevdirib. Hər uğurlu döyüşdən sonra əsgərləri başına yığıb hər birinə təşəkkürünü bildirib və bu zaman şən, şux zarafatlarından da qalmayıb.

Qubadlının azadlığı uğrunda gedən qanlı mübarizədə M.Zeynalov böyük qələbənin bir addımlığında - noyabrın 6-da strateji əhəmiyyətli posta Azərbaycan bayrağını sancarkən düşmən gülləsinə tuş gəlib, şəhidlik zirvəsinə ucalıb.

Şəhidin bacısı, 8 saylı tam orta məktəbdə laborant işləyən Sitarə Zeynalova deyir ki, qardaşım işini sevdiyi kimi, dost-tanışları ilə də həmişə xoş münasibətdə olurdu. Tabeliyində olan əsgərlər, zabit yoldaşları onun xatirəsini yad etmək üçün tez-tez Salyana gəlirlər, anamı, övladlarını ziyarət edirlər. Sitarə xanım mobil telefonunu çıxarıb Müseyibin şəhid olduğu posta onun adının verildiyini, orada Azərbaycan bayrağının qaldırılması mərasimindən ona göndərilən görüntü ilə bizi tanış edir. Sonra söhbətinə davam edərək: "Beş bacının bir qardaşı idi Müseyib, - deyir. - İşimizlə, güzəranımızla həmişə maraqlanırdı".

Səfurə anadan oğlu haqqında danışmağı xahiş edirik. "75 yaşım var, - deyir. - Dünyanın hər üzünü görmüşəm. Həyat yoldaşım Salehlə birlikdə kirpiyimizlə od götürüb 6 uşaq böyütmüşük. Müseyibin itkisi atasını çox sarsıtdı. Oğlundan sonra ancaq 5 ay yaşaya bildi. Nə deyim, nə danışım?! Oğul itkisi ağırdır. Təsəllimiz odur ki, Vətən yolunda həlak olub. Qanı yerdə qalmayıb. Torpaqlarımız düşmən tapdağından azad olub. Prezidentimiz şəhid ailələrinə, qazilərə xüsusi diqqət yetirir, onların qayğısına qalır". Səfurə ana deyir ki, şəhidin övladları - oğlu Zeynal, qızı Səfurə də bu diqqət və qayğıkeşlikdən kənarda qalmayıblar.

Mayor Müseyib Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları və "Rəşadər" ordeni ilə təltif edilmişdir. Salyan şəhərində küçələrdən biri indi onun adını daşıyır. Evdə tuncdan barelyefi qoyulub, ətrafı da gül-çiçəyə bürünüb.

Bəli, Vətən müharibəsində 3 minə yaxın şəhid verdik. Onların 60 nəfəri salyanlıdır. Hər birinin xatirəsi xalqımızın qəlbində yaşayır. Bu gün Salyan şəhərinin küçələri ilə addımlayarkən bir çox ünvanlarda şəhidlərimizin böyüdülmüş fotolarının şahidi oluruq. Kənd və qəsəbələrdə də belədir. Neçə-neçə bulaqlar onların adını daşıyır. Minik maşınlarının şüşələrinə qoyulan fotoşəkillərin altında yazılmış "Qayıdan torpaqlar, qayıtmayan qardaşlar" kimi sözləri oxuyanda kövrəlməyə bilmirsən.

Onlar torpaq, Vətən, haqq-ədalət uğrunda canlarından keçib şəhid oldular. Şəhidlik isə Tanrı məqamında ən uca addır. Şəhidlik zirvəsi onsuz da hər kəs üçün sonu ölümlə bitən həyatda şərəfli ad, bir də iz qoyub getmək deməkdir.

*Siz ey Vətən yolunda şirin canından keçib,*
*İgidliyi, mərdliyi özünə amal seçib,*
*Ömrün bahar çağında həyatdan erkən köçüb,*
*Ölümüylə bu yurdu, torpağı yaşadanlar!*
*Yaşayan hər ömürdə qanınız, canınız var!*

*Siz yazdınız millətin tarixini qan ilə,*
*Sinənizdə yurd saldı yurda atılan güllə.*
*Məzarınız tutulub min çiçəyə, min gülə.*
*Tərsiniz çiçək kimi, həmişə baharsınız!*
*Azərbaycan köksündə əbədi yaşarsınız!*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

**Dünya olduğu kimi**

# Yuxu - müvəqqəti ölüm

*Yuxu bəzən insanları qorxudan, bəzən rahatlıq gətirən fizioloji prosesdir. Mütəxəssislərin fikrincə, saatlarla çəkdiyini düşündüyümüz yuxular daha qısa zaman ərzində baş verir. Yuxuları əsasən insanın gün ərzindəki fəaliyyəti və düşündükləri, xəyalları ilə əlaqələndirirlər. Hətta insanın yuxuları rəngli və ya rəngsiz görməsi ilə bağlı araşdırmalar da aparılıb.*

*XX əsrin ortalarında aparılan araşdırmada əksəriyyətin ağ-qara yuxular gördüyü ortaya çıxıb. İllər keçdikcə bu nəticələr dəyişməyə başlayıb. Araşdırmalarda insanların rəngli yuxular gördüyü aşkarlanıb. Bu da dediyimiz kimi, insan yuxularının daha çox gördüyü, xəyal etdiyi hadisələrlə bağlı olduğundan, həyatdakı rənglənmənin yuxularımızdakı rəngarəngliyə gətirib çıxarmasından xəbər verir.*

## Ən çox və ən az yatan xalqlar



**2008-ci ildən hər il martın üçüncü cümə günü Ümumdünya Yuxu Günü kimi qeyd edilir. Həmin gün insan sağlamlığı üçün mühüm olan yuxu ilə bağlı təkliflər verilir və müzakirələr aparılır.**

Ümumdünya İqtisadi Forumunun araşdırmalarına görə, insan orqanizminin tələb etdiyi orta yuxu müddəti 8 saat hesab olunur. Tədqiqatlara görə, Yeni Zelandiya, Finlandiya, Niderland, Avstraliya, Böyük Britaniya və Belçika əhalisi 7 saatdan çox yuxu müddəti ilə dünyada ilk sıradadırlar. Bu ölkələr yüksək yuxu rejiminə malik hesab olunurlar. Bununla yanaşı, yuxusuzluqdan əziyyət çəkən, əhalisi az yatan ölkələr də var. Məsələn, Cənubi Koreya və Yaponiya yuxusuzluğa görə ilk pillələrdə yer alırlar. Hətta Yaponiyada yuxusuzluq problemi, xüsusilə yuxu çatışmazlığının səbəb olduğu "ölüm - karoşi" fenomeni sənədləşdirilib.

Eyni zamanda Səudiyyə Ərəbistanı, Filippin, Malayziya və Misirdə yaşayan insanların da yuxusuzluqdan əziyyət çəkdiyi qeyd olunur.

## Qadınlarda yuxusuzluq riski kişilərə nisbətən yüksəkdir

**Elmi araşdırmalar göstərir ki, yuxu istənilən yaşda vacibdir, çünki normal yuxu rejimi sayəsində insan zehni, orqanizmi güclənir və bədən bərpa olunur. ABŞ Milli Yuxu Fondunun məlumatına əsasən, yetkinlərə gecə 7-9 saat arasında yuxu tövsiyə edilir. Körpələr, uşaqlar və yeniyetmələr böyümə və inkişafı təmin etmək üçün daha çox yuxuya ehtiyac duyurlar.**

65 yaşdan yuxarı insanlar da gecə yuxusuna 7-8 saat vaxt ayırmalıdırlar. Fondun məlumatlarına görə, yeni doğulmuş uşaqlar üçün 14-17, körpələr üçün 12-15, məktəbəqədər uşaqlar üçün 10-13, məktəblilər üçün 9-11, yeniyetmələr üçün 8-10, gənclər və böyüklər üçün 7-9, yaşlılar üçün isə 7-8 saat yuxu rejimi normaya uyğun hesab edilir.

Məlumatlara əsasən, qadınlarda yuxusuzluq riski kişilərə nisbətən 40 faiz yüksəkdir.



Alimlərin qənaətinə görə, həyat tərzi, ətraf mühit şəraiti və psixoloji proseslərin yuxu rejiminə birbaşa təsiri var. COVID-19 pandemiyası ilə əlaqədar yaranmış gərgin, psixoloji vəziyyət fonunda dünyada bir çox insanın yuxu problemi ortaya çıxıb. Bu dövrdə hər 4 nəfərdən birinin yuxu problemi yaşadığı bildirilir. Pandemiya zamanı həkimə müraciət edənlərin əksəriyyəti yuxu probleminin olduğunu vurğulayır, bu da insanların psixoloji narahatlıq, gərginliyi ilə əlaqələndirilir.

## Delfinlər bir gözü açıq yatırlar



**Ən çox yatan heyvanlardan hesab edilən koalanın günlük yuxu rejimi 14 saatdan 22 saata qədərdir. Bundan başqa, çox yatan heyvanlar sırasında üçbarmaq ərincək (sloth) 20, kirpilər 18-20, begemot 16-20, qəhvəyi yarasalar 18, şir 18-20, pişiklər 18, lemurlar 16, pandalar 10-14 saat yatırlar.**

Gün ərzində 16-20 saat yatan nəhəng begemotlar yatmaq üçün suya baş vururlar. Onlar ağır çəkiləri ilə suyun dibinə enib, orada yatırlar.

Maraqlı yuxu rejiminə sahib delfinlər bir gözü açıq yatırlar. Məlumatlara görə, delfinlər yatarkən beyinlərinin yarısından istifadə edirlər. İki saatdanbir beyin tərəflərini dəyişirlər.

## 30 saniyə yatan, nadir növ hesab edilən okapilər

**Günün çox hissəsini yatmağa sərf edən heyvanlarla yanaşı, bir neçə saat yatmaqla kifayətlənənlər də var. Ümumiyyətlə, alimlər məməli heyvanların daha çox yatdığı qənaətindədirlər. Məsələn, atlar gün ərzində 3, arılar 2-3, zürafə 1-2 saat, okapilər isə təəccüblü olsa da, 30 saniyə yatırlar.**



Ən az yatan heyvan okapilər Konqo Respublikasının İturi yağış meşəsində yaşayan meşə zürafələridir. Onların boyunun qısalığı meşədə yaşamalarına şərait yaradır. Okapilərin sayının təxminən 10-35 min arasında olduğu deyilir. Buna görə də okapi Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyi tərəfindən nəsli kəsilməkdə olan növ kimi siyahıya alınıb. Okapilər görünməyi sevməyən heyvanlar olaraq insanlardan uzaqda yaşamağı xoşlayırlar. Onlar gün ərzində aktiv olurlar və vaxtlarının çoxunu yarpaq yeməklə keçirirlər. Bununla belə bu zürafələr meyvə və göbələklərlə də qidalanırlar. Təbiətdə 15-20 il ömür sürə bilirlər. Okapilər gün ərzində fasilələrlə 5 dəqiqə yatırlar. Onların maksimum yatma vaxtı 30 saniyə çəkir.

## Qış yuxusuna gedənlər

**Qış yuxusu heyvanların qış mövsümündə, yəni aylarla yatmasıdır. Belə yuxu zamanı heyvanın bədən istiliyi, ürək ritmi və tənəffüs sürəti əhəmiyyətli dərəcədə aşağı səviyyəyə düşür. Bunu heyvanlar qışdan sağ çıxmaq üçün edirlər, çünki havaların soyuması, qida çatışmazlığı onların həyat tərzində problemlər yarada bilər.**



Qış yuxusuna gedən heyvanlardan biri olan ayılar qış üçün yuvalarını əvvəlcədən düzəldirlər. Onların bir yuvanı qurması 3-7 günə qədər çəkə bilir. Bu müddət ayıya görə fərqlənir. Ümumiyyətlə, ayıların qazdıqları yerlərdə, mağaralarda qış yuxusuna getmələrinə rast gəlinir. Ayılar yuvalarının üstünü yarpaq və budaqlarla bağlayaraq qışda soyuqdan qorunmaq, yuvanın daha isti olması, dərin qış yuxusuna getmək üçün özlərinə şərait yaradırlar.

Bundan başqa, yarasalar, yer dələləri, siçan lemurları, ilanlar "əsl qış yuxusu"na gedirlər. Qış yuxusuna gedən heyvanlar yatarkən ürək döyüntülərini və bədən istiliklərini kəskin şəkildə azalda bilirlər. Məsələn, sincablar qış yuxusunda olarkən ürək döyüntülərini dəqiqədə 350-dən 4-ə qədər azalda bilirlər. "Əsl qış yuxusu"na gedənlər yalnız bir neçə həftədənbir tam oyanaraq bir az qidalanaraq yenidən yatırlar.

## Yuxuya təsir edən bitkilər

**Otaqdakı havanın keyfiyyəti, temperaturu, narahatedici hər bir amil yuxu rejiminə təsir edir. Buna görə insanlar yuxu rejiminə yaxşı təsir edən vasitələrə əl atırlar. Bəzi bitkilər bu baxımdan effektli sayılır. O üzdən yataq otaqlarında bitkilərə üstünlük verilməsi tövsiyə olunur. Məsələn, lavandanın ətri rahatladıcı qoxu hesab olunur. Həmçinin elmi araşdırmalara görə, bitkinin qan təzyiqi və ürəyin təzyiqini azaltdığı deyilir. Bəzi insanlar hətta otaqda havanın dəyişməsi üçün lavanda spreyindən də istifadə edirlər.**



İlan bitkisi də bu baxımdan effektli hesab oluna bilər. Bitki otaqda havanın keyfiyyətini yaxşılaşdırır və bəzi zərərli kimyəvi maddələri məhv edir.

Rütubətli, nəm otaqda yatmaq insan sağlamlığı üçün ziyanlı olsa da, çox quru havanın da yuxu üçün narahatedici məqamları var. Otaqdakı quru hava insanın tənəffüsünü çətinləşdirir. Buna görə belə otaqlarda rütubəti artırmaq üçün zanbaq gülündən istifadə olunur. Zanbaqlar otaqda rütubətliliyi 5 faizədək artıra bilir, eyni zamanda soyuqdəyməyə qarşı həssaslığı azaldır.

Aloe bitkisinin otağınızda olması yuxunuza müsbət təsir edə bilər. Bu bitkinin oksigen yaratma qabiliyyəti otağın oksigenlə zənginləşməsinə və rahat yatmağınıza kömək edəcək. Areca xurması da yaxşı hava təmizləyicilərindən hesab olunur. İlan bitkisi kimi havadan zərərli maddələri alır. Areca xurması həm də təbii hava nəmləndiricisidir.

Rütubətli hava insan sağlamlığına və yuxu rejiminə təsir edir. Təbii ki, rütubətin qarşısının alınması üçün də otaqda tədbirlər görülməlidir. Rütubətin qarşısını alan bitkilərdən biri ingilis sarmaşıqlarıdır. Bitki havada olan kifi toplayır və infeksiyanın inkişafının qarşısını alır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

**Sağlıq olsun**

# Yuxugörmənin sirri



**İnsan fiziologiyası ilə bağlı araşdırmalar göstərir ki, yuxu da yemək və içmək kimi ehtiyacdan doğur. İbtidai cəmiyyətlər uzun müddət yaşanan hadisələrlə yuxuları bir-birindən ayırmaqda tərəddüd ediblər, yuxuda gördüklərinin oyaq ikən yaşananlar qədər gerçək olduğunu düşünüblər. Hətta qədim misirlilərdə, assuriyalılarda və yunanlarda falçıların və sehrbazların ən mühüm vəzifələrindən biri yuxuları yozmaq olub.**

Yuxuların təfsiri ilə bağlı ilk mətnlər eramızdan əvvəl 5000-ci ildə assuriyalılar tərəfindən yazılıb. Bu mövzuda günümüzə qədər gəlib çatmış ən qədim əsər Britaniya muzeyində qorunan və eramızdan əvvəl 2000-ci ilə aid olduğu təxmin edilən Misir papirusudur. Həmin papirusda 200 növ yuxu yozumu verilib. Qədim Misir inancına görə, Serapis adlı bir tanrı var. Onun vəzifəsi yuxu görənləri xəbərdar etmək və onların suallarına cavab verməkdir. Kahinlər və yuxu tərcüməçiləri bu tanrının məbədlərində otururdular.

Eramızdan əvvəl 669-626-cı illərdə Ninevada yaşamış Assuriya imperatoru Aşşurbanipalın kitabxanasında yuxularla bağlı litoqrafiyalar tapılıb. Hindistanda eramızdan əvvəl 1500-1000-ci illərdə yazılmış Vedalarda yuxuların siyahıları var. Qədim yunanlar yuxu zamanı ruhun bədəni tərk edərək tanrıları ziyarət etməyə getdiyinə inanırdılar. Yuxu mövzusunda Hippokrat, Platon və Aristotelin də əsərləri var.

Ümumiyyətlə, həmin vaxtlardan xristianlığın yaranmasına qədər olan dövrdə yunan dilində 26 yuxu təfsiri kitabı yazılıb. Həmçinin "Tövrat"da, "İncil"də, eləcə də "Quran-Kərim"də yuxulardan (Həzrəti İbrahimin, Həzrəti Yusifin və Misir hökmdarının yuxularından) bəhs olunub. İslamdan əvvəl türklərdə xəbər vermək baxımından yuxu mühüm yer tutub. Hətta bununla bağlı əfsanələrdə bildirilir ki, xanlar gördükləri yuxulara uyğun hərəkət edirdilər.

### *Ruhun funksiyası, yoxsa təxəyyülün gücü*

Əksər alimlərə görə, yuxu insanın ruhu ilə gördüyü, ağlı ilə dərk etdiyi hadisədir. Yuxu həm də ruhani aləmdən rəmzlər şəklində görmə aləminə endirilən ilham sayılır. İslam filosofları yuxunu təxəyyül gücündən sağlam düşüncəyə qədər müəyyən təsvirlərin əks olunması kimi izah edirlər. Ərəb filosofu Yaqub b. İshaq əl-Kindi "Yuxu və yuxunun təbiəti" adlı kitabında yuxunun ruhun funksiyası olduğunu, yuxuyozmanın təbiət elmləri arasında mühüm yer tutduğunu bildirib. Filosof Əbunəsr Fərabi yuxuları təxəyyül gücü ilə əlaqələndirib və bu gücün yuxuların əmələ gəlməsində müəyyənedici funksiya daşıdığını qeyd edib. İbn Sinaya görə isə, yuxular ruhun təxəyyül gücünün təsirə açıq olması qabiliyyəti ilə baş verir və güclü yuxu zamanı metafizik aləmdən məlumat ala bilir. Təxəyyülü xarici hisslərin ixtiyarından kənarda olan insanın metafizik müstəviyə yönəlməsi artır. Fiziki sağlamlığın pis olması, təxəyyül və xatırlama gücünün yaxşı işləməməsi kimi maneələr olmasa, ruh təxəyyüldən xilas olur və ilahi səltənətə üz tutur. Bu vaxt oradan gələn məlumatlar ruhda yer alır, beləliklə, metafizik aləmlə bağlı bir qavrayış həyata keçirilir. Bəzən təxəyyül gücü nəfslə metafizik aləm arasına qarışır və baxışı əngəlləyir.

İbn Sinaya görə, yuxular təkcə metafizik aləmdən ruha gələn təsirlərə əsaslanmır, eyni zamanda insanın fizioloji vəziyyətindən doğan yuxular da var. Ac insanın yuxuda qida, üşüyən adamın ocaq görməsi buna misaldır. Bu zaman nəfs ilk arzuladıqlarını yuxuda görməyə başlayır.

### *Freydə görə, yuxular altşüurun arzularını aşkara çıxaran vasitədir*

XX əsrdə yuxular və onların yozumları ilə bağlı araşdırmalar psixologiya və fiziologiya tədqiqatçıları tərəfindən davam etdirilib.

Psixoanaliz elminin banisi Ziqmund Freydə görə, yuxu insanın şüuraltında olan arzularının ifadəsidir. Bu səbəbdən yuxuda gördüklərimiz ümumi mənadan çox xüsusi məna daşıyır və adama görə yozulmalıdır. İsteriya problemlərilə məşğul olan alim yuxugörmələri də müşahidə etdiyi hadisələr sırasına daxil edib. Onun nəzəriyyəsinə görə, yuxu mənasız deyil, sıxışdırılmış arzuların təhrif olunmuş, pərdələnmiş şəkildə gerçəkləşməsidir. Yəni həyata keçməyən arzular çox zaman şüur sahəsindən çıxaraq qeyri-şüur sferasına keçir, orada qalaraq insanın davranışına təsirlərini davam etdirir. Şüura daxil olmaq istəyən sıxışdırılmış arzular şüuri təsəvvürlərlə mübarizəyə girərək yuxugörmə kimi hallarda onlara qalib gəlir. Ona görə də yuxuları düzgün yozmaqla insanın qeyri-şüuri təəssüratları barədə mühakimə yürütmək olar.

Ümumiyyətlə, yuxular elmin bütün sahələrində tədqiqatçılar üçün müəmmalı mövzudur. Bioloji sahənin tədqiqatçıları yuxu zamanı beyində hansı psixoloji proseslərin baş verdiyini, insanlar yuxu görərkən beyində nevroloji dalğalanmaları müşahidə edirlər. Psixoloqlar isə yuxu məzmununun oyanıq həyat üçün təsiri üzərində işləyirlər.

XX əsrin ikinci yarısında beyni öyrənən alimlər yuxu ilə bağlı müəyyən nailiyyətlər əldə ediblər. Məsələn, bəzi insanların rəngli yuxular görməsi təsdiqlənib, hətta kimlərin rəngli yuxular görməsini də mütəxəssislər müəyyənləşdirə biliblər. Bundan əlavə, neyrofizioloqlar yuxu görən insanın psixikasında (beynində) hansı hissələrin aktiv olmasını dəqiqləşdiriblər. Amma bütün elm adamları yuxu haqqında bilinənlərlə yanaşı, yuxu ilə bağlı hələ də bilinməyən çox şey olduğu barədə həmfikirdirlər. Yəni "niyə və necə yuxu görürük" sualının dəqiq cavabı indiyədək müəyyən olunmayıb.

## Dərin yuxu zamanı insan bədəni iflic olur



Dərin yuxu zamanı insan bədəni iflic olur. Yuxu zamanı neyronlar beynin ənsə hissəsinə xüsusi siqnallar göndərir və nəticədə rahatlaşan insan bədəni hərəkətsiz hala düşür;

Oyandıqdan 5 dəqiqə sonra yuxumuzun yarısını, 10 dəqiqə sonra isə 90 faizini unuduruq;

İfrat psixoloji gərginlik keçirənlərdən başqa, hamı yuxu görür;

Ancaq gördüyümüz simalar yuxumuza girə bilər;

Hamı rəngli yuxu görə bilməz. Gözləri görən insanların 12 faizi yuxularını ağ-qara rəngdə görürlər;

Görmə qabiliyyətini itirmiş şəxslər də yuxu görürlər. Anadan olduqdan sonra görmə qabiliyyətini itirən insanlar işıqdan məhrum olana qədərki həyatda gördüklərini yuxuda görə bilirlər. Anadangəlmə görmə qabiliyyətini itirənlər isə yuxunu iy, səs və hisslərin vəhdəti kimi görürlər.

## Sürətli göz hərəkətləri

**Alimlər yuxunun əsasən iki hissəyə böləndüyünü bildirirlər: REM fazası (sürətli göz hərəkəti fazası) və NREM fazası (qeyri-sürətli göz hərəkəti). Bu fazalar adlarını qapalı olsalar da, gözlərimizin öz kürələrində sürətli hərəkətindən alır. Yuxu zamanı müəyyən fasilələrlə gözlərimiz yuxarı-aşağı titrəməyə və öz dairələri daxilində müxtəlif istiqamətlərdə hərəkət etməyə başlayır. Bu göz hərəkətinin dəqiq səbəbi məlum deyil, lakin REM zamanı oyanan insanlar demək olar ki, həmişə yuxu gördüklərini bildirirlər.**



Yuxunun təxminən 75 faizini təşkil edən NREM mərhələsində beyin dalğalarının yavaşladığı və sürətli göz hərəkətlərinin olmadığı müşahidə edilir. Hər dövr təxminən 90 dəqiqədir və proses bir gecədə 4-6 dövrlə tamamlanır. NREM yuxunun ilk saatlarında psixoloji və fiziki aktivliyin azaldığı müşahidə edilir. Bu zaman nəbz və tənəffüs 20-30 faiz yavaşıyır, qan təzyiqi azalır, əzələlər rahatlaşır, maddələr mübadiləsinin sürəti 10-30 faiz yavaşıyır, bədən istiliyi azalır.

REM mərhələsi isə yuxunun təxminən 15-25 faizini təşkil edir. Bu, yuxunun aktiv dövrüdür və sürətli göz hərəkətləri müşahidə olunur. REM dövrləri 5-30 dəqiqəlikdir və hər 80-100 dəqiqədənbir yenilənir. Bu mərhələdə avtonom sinir sisteminin aktivləşməsi baş verir və müvafiq olaraq tənəffüs, ürək və qan təzyiqində pozuntular müşahidə olunur.

Yuxunun bütün bu prosesləri zamanı bədənimizin digər hissələri demək olar ki, iflic olur. Bu vaxt qəflətən oyansaq, qısa müddətdə hərəkət etməkdə çətinlik çəkərik. Səbəbi REM yuxusunun ortasında oyanmağımızdır və narahat olmağa dəyməz. Bu, yatarkən bizi təhlükəsiz saxlamaq üçün bədənimizin təbii davranışıdır. Yuxularımızın çoxu REM yuxusu zamanı baş verir, ona görə də bu mərhələdə fiziki iflic olmasaq, REM yuxusu davranış pozğunluğumuz ola bilər.

## Qorxulu hekayə dolu yuxular

**Yatan zaman çoxlu qorxulu yuxular görə bilərsiniz. Ancaq onların hamısı kabus deyil. Kolorado Universitetinin Tibb fakültəsinin professoru Ceyms Pagel bu yuxuların və kabusların əslində yuxunun müxtəlif mərhələlərində meydana gəldiyini bildirir: "Məsələn, yuxu dövrünün ortasında dərin yuxu zamanı gecə qorxuları yaranır. Heç bir forması və ya aydın simptomları olmasa da, güclü və səbəbi bilinməyən qorxu hissi yuxudan oyanmağa səbəb olur".**



Digər tərəfdən, yuxu dövrünün REM mərhələsi zamanı kabuslar baş verir. Pagelin fikrincə, kabuslar sadəcə olaraq qorxulu hekayə ilə dolu yuxulardır və demək olar ki, hər kəsdə həyatının müəyyən məqamlarında, xüsusən də uşaqlıq və yeniyetməlik dövründə baş verir.

Alim düşünür ki, kabus görmək əslində normaldır və gözləniləndir, xüsusilə də həmin gün sizi narahat edə biləcək bir hadisə baş veribsə. Buna qorxu filminə baxmağı misal çəkmək olar.

Travmasonrası stres pozuqluğu olan insanlarda daha tez-tez rast gəlinən kabusgörmənin əsas səbəbi travmatik yaşantılardır. Kabuslara meyli artıran digər bir səbəb isə REM yuxusunu tənzimləyən hormonları pozan dərmanların istifadəsi və ya hər hansı bir psixoloji pozuntunun olmasıdır.

Kabus görən insanların sinir fəaliyyətlərində anormallıqlar olması çox yayğındır. Məsələn, beynin bir bölgəsi olan amigdala (qorxu və öyrənməni idarə edən) mütəmadi olaraq kabuslar görən travmasonrası stres pozuqluğu olan xəstələrdə həddindən artıq aktiv olarkən beynin Paralimbik sistem kimi hiss mərkəzini idarə edən hissələri tez-tez kabus görən insanlarda aktivdir.

Kabuslar bəzi insanlarda, xüsusən də orta yaşlı kişilərdə REM yuxu pozuqluğuna səbəb ola bilər. Təhlükəli tərəfi odur ki, bu vəziyyət beynin yuxu zamanı əzələlərimizin hərəkət etməsinə mane olan körpü adlanan hissəsinin (pons) düzgün işləməməsinə səbəb olaraq yuxuda gəzməyə yol açır.

## Yuxularını xatırlamaq istəyənlər üçün məsləhət

**Harvard Tibb Məktəbinin yuxu tədqiqatçısı Robert Stikgold deyib: "İnsanların gördükləri yuxuları niyə xatırlamadıqlarını soruşanda belə cavab verirəm: Çünki siz çox tez yuxuya gedib, çox möhkəm yatırsız və zəng səsinə oyanırsız. Onlar mənə, adətən, belə cavab verirlər: Necə bildiniz?"**



Stikgoldun sözlərinə görə, çoxları dərin yuxuya getməzdən əvvəl gördüyü yuxuları xatırlayır. Bu hiss beynin gah yatıb, gah da oyandığı hazırlıq prosesi mərhələsidir, hipnaqogik yuxu (yuxuyla ayıqlıq arasındakı vəziyyət) adlanır.

Tədqiqatçı söyləyir ki, bir neçə il əvvəl apardığı araşdırma zamanı eksperimentə cəlb edilmiş könüllü tələbələri bu vəziyyətə girən kimi ayıldıblar: "Yuxuda nə gördüklərini hamısı bir nəfər kimi xatırlayırdı. Bu, yuxuya gedəndən sonrakı ilk 5 və ya 10 dəqiqəyə aiddir. Əgər siz dərhal və dərin yuxuya gedirsizsə, yuxu fazasının bu hissəsində baş verənləri xatırlamayacaqsız".

Yuxularını mütləq xatırlamaq istəyənlərin sualına da aydınlıq gətirən tədqiqatçı qeyd edib ki, şənbə və bazar günləri, rahat yata bildiyiniz günlər yuxuları xatırlamaq üçün ən yaxşı fürsətdir: "Öz tələbələrimə deyirəm: yuxudan ayılanda bir müddət sakit uzanmağa çalışın, hətta gözlərinizi də açmayın, yuxunuzu xatırlamağa cəhd edin. Tədricən oyandığınız müddət ərzində gecə yuxuda gördüklərinizi yadınıza salırsız və bütün başqa hadisələr kimi, o da yaddaşınıza yazılır. Daha bir üsul da var: yuxuya getməzdən əvvəl öz-özünüzə bir neçə dəfə təkrar edin: səhər duranda yuxumu xatırlamaq istəyirəm. Bu, həqiqətən kömək edir, belə etsəniz, daha çox yuxu xatırlayacaqsınız".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# İlk peyvənd

**Tarix boyu yoluxucu xəstəliklər insanlara böyük təhlükə yaradaraq bir çox halda onların həyatlarına son qoyan səbəb kimi bilinirdi. Hazırda isə yoluxucu viruslara qarşı peyvəndlər doğulan andan hər kəsə tətbiq edilir. Tibbin bu yeniliyi ilə insanlar xəstəliklərdən qurtula bilirlər.**

Yoluxucu xəstəliyə qarşı hazırlanmış ilk peyvəndin maraqlı tarixçəsi var. İlk peyvənd çiçək xəstəliyinə qarşı yaradılıb. Çiçək xəstəliyinin tarixi isə qədimdir. Eramızdan əvvəl X minillikdə müşahidə edilən xəstəlik Afrikanın şimalından Hindistana qədər yayılıb. Hətta Misir fironu V Ramzesin mumiyalanmış başında da bu xəstəliyə rast gəlinib. Avropada V-VII əsrlər arasında yayılan xəstəlik daha sonra Orta əsrlərdə epidemiyaya çevrilib.



XVIII əsrdə Avropada hər il 400 min insan çiçək xəstəliyindən ölüb, sağ qalanların üçdəbiri isə görmə qabiliyyətini itirib. Bununla da ölümün nisbəti dəyişib, sağ qalanların əksəriyyətində yara izləri müşahidə edilib. Daha çox ölüm halları isə körpələr arasında baş verib.

İlk dəfə çiçək xəstəliyinin vaksini Edvard Cenner tərəfindən 1796-cı ildə 13 yaşlı uşağa vurulub. O, icadı ilə vaksinologiyanın banisi hesab olunur. Peyvənd olunduqdan sonra çiçək xəstəliyinə qarşı uşağın orqanizmində immunitet formalaşmağa başlayıb. Bununla da vaksinin kütləvi istehsalı və tətbiqinə başlanılıb. XVIII-XIX əsrlərdə tətbiq edilən peyvənd nəticəsində dünya əhalisi arasında kütləvi immunitetin formalaşması ilə artıq çiçək xəstəliyinin ölümcül təhlükəsi sovuşub.

Hazırda peyvənd olunma erkən yaşlardan, hətta doğulan andan etibarən aparılır. Uşaqlar kiçik vaxtlarında təhlükəli xəstəliklərə daha çox məruz qaldıqlarından və yeni orqanizm müdafiəyə hazırlıqlı olmadığından peyvəndlənmənin erkən edilməsi zəruridir.

# Penisilin - ilk antibiotik




**Antibiotiklə müalicə tibb tarixində ən uğurlu müalicə üsullarından biridir. Bu dərman vasitəsi bir çox insanın həyatının xilas edilməsinə, yoluxucu xəstəliklərin qarşısının alınmasına əhəmiyyətli töhfələr verib.**

Kəşf edilən ilk antibiotik penisilindir. Şotlandiyalı tədqiqatçı Aleksandr Fleminq 1928-ci ildə ilk antibiotiki tibb dünyası ilə tanış edib. Əslində hələ bu dərmanın kəşfindən öncə Lui Paster mikrob əleyhinə təsir göstərə bilən bəzi maddələrin mövcudluğundan bəhs etmişdi. Hətta onun qarayara çöpü ilə apardığı təcrübələr bakteriyalara qarşı effektivliyin ilk nümayişi olmuşdur.

Penisilinin hazırlanması Londondakı Müqəddəs Meri xəstəxanasında aparılıb. A.Fleminq onu təsadüf nəticəsində aşkarlayıb. Belə ki, tətilə getməzdən öncə laboratoriyadan çıxarkən üzərində işlədiyi qarışığı qabdan təmizləmədən iş masasının üzərində unudub. Laboratoriyaya qayıtdıqda isə təcrübə qablarından birində kif olduğunu görüb. O, baş verən hadisəni qeyri-adi hesab etdiyindən araşdırmağa başlayıb. Müşahidələri əsasında kif göbələyinin bəzi təhlükəli bakteriyaları öldürən maye buraxdığı məlum olub. Bununla da Fleminq mayeyə "kif suyu" mənasını ifadə edən penisilin adını verib.

Daha sonra Aleksandr Fleminq bu kəşfi ilə bütün dünyaya səs salıb. O, 1945-ci ildə tibb üzrə Nobel mükafatı qazanıb. Alim öz ixtirası ilə milyonlarla insanın həyatını xilas edib. Belə ki, İkinci Dünya müharibəsində penisilin əsas müalicə üsullarından biri olub. Bu dərman preparatı sayəsində yüz minlərlə insan ölümdən qurtulub.

Sonrakı vaxtlarda ingilis bioloqlar Xovar Flori və Ernest Çeyn Fleminqin məlumatlarından istifadə edərək göbələyin inkişaf etdiyi mayedən penisilini ayırıblar. Bununla da yeni antibiotiklərin üzərində tədqiqatlar aparılıb. Hazırda 4 mindən çox antibiotik mövcuddur. Lakin onlardan cəmi 60-ı infeksiyalı xəstəliklərin müalicəsində istifadə edilir. Heyvandarlıq və sənayedə də antibiotik vasitələrin tətbiqinə rast gəlinir.

# Şprisdən ilk istifadə



**İnsanlara əzələ və venadaxili dərman preparatlarının yeridilməsində şpris ən əsas və ən sadə vasitələrdəndir. Yunanca "boru" mənasını verən "syrnix" sözündən götürülən ilk şprislər eramızın I əsrində Romada istifadə edilib. "De Medicina" adlı jurnalda onlardan tibbi fəsadların müalicəsində istifadə edildiyi qeyd olunur.**

Eramızın IX əsrində bir misirli cərrah içi boş şüşə boru və əmzikdən istifadə edərək şpris yaradıb. 1650-ci ildə isə Blez Paskal hidravlika üzrə eksperimental təcrübəsi zamanı şpris icad edib. O, qapalı mühitdə bir mayenin təzyiqlə bütün istiqamətlərə bərabər şəkildə ötürüldüyü və təzyiq dəyişikliklərinin eyni qaldığını sınaqdan keçirmək üçün bundan istifadə edib. Bu ixtira da müasir variantların ixtirasına təkan olub.

Kristofer Vren Britaniyada 1656-cı ildə hazırladığı şprisi heyvan üzərində sınaqdan keçirib. O, itə venadaxili inyeksiya tətbiq edən ilk şəxs olub. Təcrübə zamanı itin bədəninə şprislə spirt yeridilib. İxtiranın uğurlu olub-olmamasını asan aydınlaşdırmaq üçün isə məhz bu məhlul seçilib. Nəticədə heyvanın şərxoş olduğu vaxt təcrübə sübuta yetirilib. Lakin bu şpris olduqca böyük və kobud formada hazırlanıb. Vren şprisi insan üzərində yoxlayan zaman isə həmin şəxs huşunu itirdiyindən təcrübə dayandırılmalı olub. İnsanlarda dərialtı inyeksiyalar üçün istifadə ediləcək, kifayət qədər incə iynəsi olan şprisi isə 1853-cü ildə Çarlz Pravaz və Aleksandr Vud hazırlayıblar. Onların bir-birlərindən xəbərsiz eyni vaxtda icad etdikləri iynələr quruluşuna görə fərqlənirdi. Pravaz şprisi şüşədən yox, gümüşdən hazırlayıb. Gümüşdən olan şprisdəki məhlul görünmədiyindən bu da xəstəyə verilən dərman miqdarına nəzarəti xeyli çətinləşdirirdi.

Aleksandr Vudun ərsəyə gətirdiyi şüşə şprislə ilk sınağı isə o, özü və xanımı üzərində həyata keçirib. Şprisə çəkilən morfinin nəticəsində onlar sonradan aludəçi olublar. Həmçinin həyat yoldaşı həddindən artıq dozada vurulan narkotikdən ölən ilk qadın kimi tarixə düşüb.

Vudun hazırladığı şprisin dizaynına sonralar ciddi dəyişilik edilməyib. Yalnız onlar təkmilləşdirildikcə boruya ölçülər əlavə edilib, bu da miqdara nəzarət etməyə imkan yaradıb. Bundan əvvəl dozalar təxminən ölçüldüyündən bir çox halda yanlışlığa yol verilib.

İstifadəsindən asılı olaraq şprislər müxtəlif növ materiallardan hazırlanır. Lakin ilk vaxtlarda onlar metal və şüşədən istehsal edilirdi. Bu, onların təmizlənməsinə və yenidən istifadəsinə uyğun idi. XX əsrdən etibarən isə birdəfəlik şprislərə keçid edildi. 1912-ci ildə Ceyms Griley ilk birdəfəlik şprisi təqdim edir. Hazırda olanların əksəriyyəti paslanmaz polad iynədən və plastikdəndir. Nəticədə birdəfəlik istifadə sterilliyi tam təmin edir.

# Dini rituallarla başlayan siqaretin yaranışı

**Sağlamlığa ziyan olduğu halda əsrlərdir ən çox satılan və istifadə edilən məhsullardan biri də siqaretdir. Maraqlı inkişaf yolu keçən siqaretlərin tərkibindəki tütündən ilk vaxtlarda dini rituallar zamanı istifadə edilib.**



Siqaretin ən qədim formaları siqarla oxşardır. Onların IX əsrdə Meksika və Mərkəzi Amerikada qamış və siqaret boruları şəklində olduğu bildirilir. Tütün Amerikadan Avropaya qitənin kəşfi ilə yayılıb. Xristofor Kolumb Amerikadan Avropaya qayıdanda özü ilə birlikdə tütün toxumları və yarpaqları gətirib. Sonralar tütün Avropa müstəmləkəçiliyini gücləndirən əsas məhsullardan birinə çevrilib. Burada tütünlə ilk dəfə ispanlar tanış olublar. Onlar tütünü digər avropalılara 1528-ci ildə təqdim ediblər. Fransızlar, ispanlar və portuqallar ilkin olaraq bitkini müalicəvi xüsusiyyətlərinə görə "müqəddəs" adlandırdılar. Qeydlərə görə, nikotin sözü Fransanın Portuqaliyadakı səfiri Jan Nikotun adı ilə bağlıdır.

Avropada ilk siqaret fabriki Londonda inşa edilib. 1880-ci illərdə isə ABŞ-da siqaret istehsalı üçün nəzərdə tutulan ilk cihazlar hazırlanıb. Bu zaman siqaretlərdə yeni növ tütünlərdən istifadə olunurdu. Bu siqaretlər filtrsiz idi. İlk patentli siqaret istehsal edən maşın isə 1847-ci ildə meksikalı Xuan Nepomuceno Adorno tərəfindən icad edilib. Bununla belə 1880-ci illərdə Ceyms Albert Bonsak başqa bir siqaret istehsal edən maşın hazırladıqda istehsal nəzərəçarpacaq dərəcədə artıb.

Filtrsiz siqaretlərdən sonra ilk dəfə filtrli versiyalar 1847-ci ildə yaradılan "Philip Morris" şirkəti tərəfindən hazırlanıb. Şirkət 1924-cü ildə qadınlara xitabən Marlboro adlı filtrli siqareti satışa çıxarıb. 1920-ci illərə qədər isə xanımlara siqaretin satılması kəskin etirazla qarşılanıb. Bu addım siqaret istehsalı və satışında yeni başlanğıc olub.

1950-ci illərə qədər siqaretin sağlamlığa təsiri tam məlum deyildi. Hətta siqaret reklamlarında həkimlər və körpələr çəkilirdi. Həmin vaxtlarda Marlboro qadınlar üçün reklamlar hazırlayıb uğurlu satış rəqəmləri əldə edirdi. Lakin 50-ci illərdən sonra bir çox qəzet və jurnalda siqaretin ağciyər xərçəngini tətiklədiyinə dair məqalələr dərc edilməyə başlandı. Bununla da siqaret satışlarının faizi aşağı endi.

Marlboronun filtrsiz siqaretləri cəmiyyətdə "qadın siqareti" kimi formalaşmışdı. Daha sonra şirkət reklamların hədəf kütləsini dəyişmək üçün kişi obrazlarından da istifadə etdi. Bununla da 1972-ci ildə Marlboro dünyanın ən çox siqaret satılan markası oldu.

Müasir dövrdə siqaretlərin inkişaf etmiş versiyası elektron siqaretlərdir. Onların ilkin formasını 1927-ci ildə ABŞ-da Cozef Robinson hazırlamışdı. Bu elektron buxarlandırıcı təqdirəlayiq təşəbbüs olsa da, istifadəyə uyğun hesab edilməmişdi. Sonrakı vaxtlarda bu yöndə istehsal üçün müxtəlif addımlar atılsa da, ilk elektron siqaret 2003-cü ildə Çində əczaçı Hon Likin ixtirasıdır. Hon Lik atasının ağciyər xərçəngindən ölümündən sonra siqareti tərgitmək istəyirdi. Bu məqsədlə də bu kəşf üzərində çalışaraq elektron siqareti ərsəyə gətirib. Elektron siqaretlər üzərində aparılan araşdırmalar onların adi tütün məmulatları kimi zəhərli maddələr buraxmadığı üçün daha az təhlükəli olduğunu sübut edir. Ancaq sağlamlığa zərər verən hər bir tütün məmulatı istisnasız istifadədən kənarlaşdırılmalıdır.

*Aydan XƏLİLOVA, "Azərbaycan"*




# "Apple Watch"la qan təzyiqini ölçmək mümkün olacaq



"Apple" şirkəti smart saatlarında çoxdan gözlənilən funksiyanı təqdim edib. Söhbət qan təzyiqinin ölçülməsi funksiyasından gedir. Bu, 2024-ci ildə satışa çıxarılacaq yeni "Apple Watch" modellərində reallaşdırılacaq. Qeyd edək ki, şirkətin bu funksiyanı indiyədək reallaşdıra bilməməsinin səbəbi müxtəlif texniki problemlərlə izah olunurdu.

"Apple Watch"un yeni modellərində qandakı şəkərin və bədən temperaturunun ölçülməsi funksiyaları da olacaq. Bu funksiyaların istifadəsi 2025-ci ildə nəzərdə tutulub. Onlardan yararlanan şəxslər daha rəqəmlərdən ibarət hansısa göstəriciləri əldə etməyəcək. Smart saat istifadəçiyə xüsusi məsləhətlər verəcək, hətta zəruri hallarda onu həkim məsləhətinə də yönləndirəcək.

# Hidrogen enerjisi qlobal istiləşməyə səbəb olur

**Hidrogen enerjisi dünya sənayesini karbon qazı ifrazından azad edəcək. Lakin hidrogen enerjisi qlobal iqlim üçün təhlükə mənbəyinə də çevrilə bilər.**



Alimlər tərəfindən aparılmış tədqiqatlara əsasən, hidrogen tullantıları karbon qazından fərqli olaraq, planeti 11 dəfə daha çox qızdırmaq imkanına malikdir. Alimlər qeyd edirlər ki, bu problem indi o qədər də nəzərəçarpacaq dərəcədə deyil. Başqa sözlə, hidrogen enerjisinin istehsal miqyası hələlik aşağı səviyyədədir. Lakin onun əsasında çalışan nəqliyyat vasitələrinin və yeni enerji sistemlərinin inkişafı nəticəsində bu bioloji yanacaq növü yaxın vaxtlarda ekologiyaya ciddi təsir göstərəcək. Nəticədə insanlar qlobal istiləşməni ləngitmək əvəzinə onu daha da sürətləndirəcəklər.

Hidrogen tədricən enerji saxlama sistemi kimi istifadə edilir. Elektrik enerjisinin istehsalı üçün hidrogen yanacaq elementlərindən keçirilir. Prosesin sonunda isə adi sudan başqa heç nə qalmır. Bu üsul litium batareyalardan fərqli olaraq daha çox enerji saxlamağa imkan verir, avtomobillərin və ya enerji daşınması üçün nəzərdə tutulmuş xüsusi stansiyaların yanacaq çənlərinin doldurulmasını daha sürətlə reallaşdırır. Bu müsbət özəlliklər hidrogenin enerji mənbəyi kimi bir çox sahədə istifadəsini mümkün edir. Aviasiyanı, avtomobil sənayesini və ağır sənayeni buna misal göstərmək olar. Lakin alimlər təyin ediblər ki, hidrogen də planetin atmosferinə passiv təsir göstərir. Hesablamalara əsasən, atmosferdəki 100 ton həcmində karbon qazı ilə müqayisədə 100 ton həcmində kihidrogen 100 il ərzində planeti 11 dəfə güclü isidə bilər.

Hidrogenin ekologiyaya mənfi təsirinin başlıca səbəbi onun metanla qarşılıqlı əlaqəsidir. O, metan tullantılarını təmizləyən troposfer turşularına reaksiya verir. Metan isə ən güclü parnik qazlarından biridir və karbonla müqayisədə atmosferi 80 dəfə daha sürətlə qızdırır. Hidrogen metanı havada saxlayır. Bu isə öz növbəsində amosferin daha çox qızmasına səbəb olur. Hidrogenin ekologiyaya mənfi təsir göstərməsinin ikinci səbəbi yanacaq sızıntılarından qaynaqlanır. O, sıxılmış qazla birlikdə xüsusi balon daxilində saxlanarkən hər gün öz həcminin 0,12-0,24 faizini itirir. Bütün bu sızdırılmış hidrogen isə atmosferə yayılır. Alimlər hesablayıblar ki, dünyada istehsal edilən hidrogenin yalnız 1-1,5 faizi ətraf mühiti çirkləndirir. Beləliklə də, istənilən hidrogen sızıntısı dolayı yolla olsa da, qlobal istiləşməyə gətirib çıxarır.

# Telefonlardan məlumatları hakerlərə ötürən "Octo" virusu




**"Android" cihazlar üçün nəzərdə tutulmuş "Octo" adlı yeni virus bir müddət əvvəl kiberhücumlar zamanı meydana çıxıb. Onun vasitəsilə hakerlər cihaz üzərində idarəetməni uzaqdan əldə edə bilir və nəticədə dələduzluq əməliyyatlarını reallaşdırırlar. Ehtimal olunur ki, "Octo"nun müəllifləri onun yaradılması zamanı "ExoCompact" virusundan da yararlanıblar.**

Xatırladaq ki, "ExoCompact" vasitəsilə reallaşdırılmış kiberhücumların qarşısı 2018-ci ildən alınıb. "Octo" isə "ExoCompact"dan daha təkmilləşdirilmiş modulu ilə fərqlənir. Virus məhz malik olduğu bu təkmilləşdirilmiş modulun köməyilə hakerlərə cihaz üzərində uzaqdan idarəetməni əldə etməkdə yardımçı olur.

"Android" sisteminin "MediaProjection" funksiyası virus vasitəsilə smartfon ekranında baş verən məlumatları hakerlərə ötürür və bu işi cəmi bir neçə saniyə ərzində reallaşdırır. Fiziki imkanları məhdud olan insanlar üçün nəzərdə tutulmuş "Accessibility Service" xidməti isə hakerlərə smartfon üzərində uzaqdan idarəni təmin edir.

"Octo" virusu bu zərərli prosesi gizlətmək üçün smartfon ekranını qaranlıq rejimə salır, ekran parlaqlığını minimuma endirir, "Don't disturb" rejimi vasitəsilə bütün bildirişləri deaktiv edir. Nəticədə istifadəçi elə bilir ki, smartfon sadəcə olaraq deaktiv rejimə keçib. Əslində isə virus bu zaman istifadəçi məlumatlarını hakerlərə ötürür.

"Octo"nu idarə edən operator ekran toxunuşlarını və jestlərini imitasiya edə, müxtəlif mətnlər yaza və mübadilə buferində məlumatları dəyişə bilir. Bununla yanaşı, virus "Android"də baş verən bütün məlumatları monitorinq edir və yazır. Virusun digər özəllikləri isə konkret tətbiqlərdən olan bildirişləri deaktiv və daxil olan mesajları əldə etməsi, ekranı bloklaması, ayrı-ayrı tətbiqləri işə salması, smartfon üzərində uzaqdan idarəni işə salması, istənilən nömrəyə SMS göndərməsidir.

# "Motorola"dan yeni smartfon

**"Motorola" şirkəti yeni "Moto G52" adlı orta büdcəli smartfonu təqdim edib. Yeni model "Snapdragon" prosessoruna, təkmilləşdirilmiş kameralara və yüksək tutumlu batareyaya malikdir.**



Smartfonun Full HD+ keyfiyyətli 6.6 düym AMOLED ekranının yuxarı mərkəz hissəsinə ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşdirilib. Barmaq izi skanı texnologiyası smartfonun yandırıb-söndürmə düyməsinə inteqrasiya edilib. "Moto G52" 128 geqabayt daxili yaddaş həcmi, 50, 8 və 2 meqapiksellik 3 arxa kamera, 16 meqapiksellik ön kamera və 30 vatt gücündə sürətli şarj texnologiyası ilə çalışır. Yeni model həmçinin təmassız ödənişlər üçün nəzərdə tutulmuş NFC çipini, naqilli qulaqcıqlar üçün 3.5 millimetrlik audio və USB Type-C girişini özündə birləşdirir.

# Günəş panelləri ilə gecələr də elektrik enerjisi əldə olunacaq

**Gündüz Yer kürəsinə düşən Günəş enerjisi gecə radiasiya şüalanması şəklində fəzaya qayıdır. Bu proses zamanı obyektlər və Yer kürəsinin səthi ətraf havadan daha tez soyuyur.**



Alimlər bu prosesdən istifadə edərək, bir neçə dərəcə temperatur fərqi hesabına Günəş panellərinə inteqrasiya edilmiş termoelektrik generatorunu işə salmağı bacarıblar. Bu isə Günəş panelləri vasitəsilə hətta gecə də enerji istehsalına imkan verəcək.

Mütəxəssislər artıq uzun zaman idi ki, gecələr Günəş elektrostansiyaları vasitəsilə enerji əldə etməyin üsullarını gerçəkləşdirməyə çalışırdılar. Bu istiqamətdə bütün addımlar səmərəsiz qaldığı üçün sonralar Günəşdən gecələr elektrik enerjisi əldə edilməsi ilə bağlı tədqiqatlara diqqət azalmışdı. Lakin ABŞ-ın Stenford Universitetinin mühəndisləri termoelektrik generatoru özündə birləşdirən unikal Günəş paneli konstruksiyasını yaradaraq daha öncə təklif edilmiş üsullardan 10 dəfə daha effektiv nəticə əldə edə biliblər. Təkmilləşdirilmiş Günəş panelləri üzərində aparılmış təcrübələr göstərib ki, gecə Günəş panelinin hər bir kvadratmetri buludsuz səmada 50 meqavat gücündə enerji generasiya edə bilir.

Günəş panelinin təkmilləşdirilməsi və optimallaşdırılması sayəsində panellərin hər bir kvadratsantimetri vasitəsilə 1-2 vatt enerji istehsal etmək mümkündür. Bu, bir çox cihazları normal şəkildə elektrik enerjisi ilə təmin etmək üçün kifayətdir.

Onu da bildirək ki, gündüz vaxtı Günəş panellərinin hər bir kavdratmetri 150 vatt enerji istehsal edir.

# "Vatsap" qrup ünsiyyətinin çoxfunksiyalı analoqunu təqdim edəcək

**"Vatsap" istifadəçilərini yaxın vaxtlarda mühüm yeniliklər gözləyir. Belə ki, tezliklə istifadəçilərə yeni funksiyalar təqdim ediləcək.**



Əsas yenilik "Communities" funksiyası olacaq. Bu funksiya vasitəsilə istifadəçilər daha çox qrupda və deməli, daha geniş auditoriyada müzakirələr apara biləcəklər. Həmin qruplar indiki adi qrup çatlarının çoxfunksiyalı analoqu olacaq. Belə ki, yeni funksiyada faylların mübadiləsi, 32 istifadəçinin iştirakı ilə qrup zəngləri, mesajlara reaksiyaların bildirilməsi, 2 geqabayta kimi olan faylların göndərilməsi, administrativ alətlər və moderasiya idarəsinin elementləri reallaşdırılacaq. "Communities"də istifadəçilər qrupların daxilində alt qruplar da yarada biləcəklər.

Sosial şəbəkələrdəki mövcud qruplardan fərqli olaraq, "Vatsap"dakı "Communities" daha özəl ünsiyyətə hədəflənəcək. Bu cür ünsiyyət hətta bir-birilərini tanıma ehtimalı olan şəxsləri də əhatə edəcək və alt qrupdakılar biri digərinin telefon nömrəsini görə biləcək. Daha bir nüans ondan ibarətdir ki, "Communities" qruplarını axtarış vasitəsilə tapmaq mümkün olmayacaq. Bu və ya digər qrupa qoşulmaq üçün həmin qrupun admini tərəfindən dəvət göndərilməlidir. Admin öz növbəsində istifadəçiyə xüsusi dəvət linki təqdim edəcək, istifadəçi onun vasitəsilə müvafiq qrupa qoşula biləcək.

“Meta” şirkətinin icraçı direkroru Mark Zukerberq qeyd edib ki, sözügedən yeniliklər tədricən istifadəyə veriləcək. O, ümid edir ki, bu, "Vatsap" və ümumilikdə onlayn ünsiyyət üçün yeni təkamül rolunu oynayacaq.

"Communities" ilə çalışmaq üçün adminlər mövcud qrup çatını yeni funksiyaya birləşdirə və ya tamamilə yeni qrup yarada biləcəklər. Yalnız onlar ümumi qrup üzərindən bütün funksiya istifadəçiləri ilə elanları bölüşəcəklər. "Communities" üzvləri yalnız adminlər tərəfindən yaradılmış və ya təsdiq olunmuş alt qruplarda ünsiyyət quracaqlar. Bu zaman mesajların yönləndirilməsi özəlliyi də məhdudlaşdırılacaq.

İstifadəçilər kim tərəfindən "Communitie"ə əlavə edilə bilib-bilməyəcəklərini təyin edə, eyni zamanda bu və ya digər qayda pozuntusu barəsində məlumat verə, digər istifadəçi hesablarını bloklaya biləcəklər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Azərbaycan gimnastları medal hesabını açdı




## Qrup komandamız Dünya Kubokunun gümüş mükafatçısıdır



Bakıda Milli Gimnastika Arenasında bədii gimnastika üzrə Dünya Kuboku yarışları davam edir. Xəbər verildiyi kimi, mötəbər turnirdə 31 ölkədən 126 gimnast medallar uğrunda mübarizəyə qoşulub. İkiillik fasilədən sonra azarkeşlərin yarışlarda iştirak etməsi, idmançıların gimnastikasevərlərin hərarətli alqış sədaları altında səhnədə nümayiş etdirdikləri biri-birindən maraqlı çıxışları Dünya Kuboku uğrunda turnirə daha da böyük həyəcan qatıb.







Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, doğma divarlar arasında çıxış edən Azərbaycan komandası üçün azarkeşlərin dəstəyi əsl bayram əhvali-ruhiyyəsi yaşadıb. Təmsilçilərimiz onları ürəkdən dəstəkləyən azarkeşlərə öz peşəkar, rəngarəng çıxışları, tükənməyən əzmkarlıqları ilə ən xoş anlar yaşadırlar.

Dünya Kubokunun birinci günündə fərdi və qrup hərəkətləri proqramında çoxnövçülük üzrə təsnifat mərhələləri keçirilib. Əvvəlcə gimnastlar fərdi növdə top və halqa ilə hərəkətləri, daha sonra qrup hərəkətləri proqramında 5 halqa ilə çıxışlarını nümayiş etdiriblər. Ölkəmizi fərdi çoxnövçülük proqramında gənclər arasında dünya çempionatının gümüş və bürünc mükafatçısı, Avropa çempionatının bürünc mükafatçısı Arzu Cəlilova və 4-cü İslam Həmrəyliyi Oyunlarının qalibi, Yay Universiadasının ikiqat gümüş mükafatçısı, Tokio Yay Olimpiya Oyunlarının iştirakçısı Zöhrə Ağamirova təmsil ediblər. Arzu Cəlilova halqa və topla hərəkətlərin cəminə görə çoxnövçülük üzrə təsnifat mərhələsini 63,050 xalla 3-cü pillədə başa vurub. Komandamızın digər üzvü Zöhrə Ağamirova isə hər iki hərəkətin (halqa və top) cəminə görə çoxnövçülük üzrə təsnifat mərhələsində 61,300 xalla 5-ci pillədə qərarlaşıb. Yekunda Arzu Cəlilova həm top, həm də halqa ilə kompozisiyalarda 3-cü yeri tutaraq finala adlayıb. Zöhrə Ağamirova isə halqa ilə icra etdiyi proqrama görə 4-cü olub və finala vəsiqə qazanıb.

Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Yelizaveta Luzan, Darya Sorokinadan ibarət qrup hərəkətləri üzrə komandamızın üzvləri 5 halqa ilə hərəkətlərin icrasına görə 33,050 xalla təsnifat mərhələsində ikinci olublar. Bu gün komandamız medallar uğrunda mübarizə aparacaq.

Dünən - yarışların ikinci günündə isə gimnastlar fərdi proqramda lent və gürzlərlə, qrup hərəkətləri proqramında isə 3 lent və 2 topla çoxnövçülük yarışlarında çıxışlarını davam etdiriblər. Əvvəlcə Arzu Cəlilova və Zöhrə Ağamirova lentlə kompozisiyada ustalıqlarını nümayiş etdiriblər. Təsnifat proqramının yekununda Arzu Cəlilova 29,750 xalla dördüncü nəticə göstərib və finalda medal uğrunda yarışmaq imkanı qazanıb. Zöhrə Ağamirova isə 27,600 xalla 12-ci pillədə qərarlaşıb. İlk üçlükdə bolqarıstanlı gimnast Boryana Kaleyn (29,950 xal), israilli idmançı Darya Atamanova (29,950 xal) və İtaliya gimnastı Sofiya Rafaelli (29,900 xal) qərarlaşıblar.

Sonra gürzlərlə təsnifat proqramı icra olunub. Yarışın yekununa görə Zöhrə Ağamirova 30,400 xalla 5-ci pillədə yer alıb və finala vəsiqə qazanıb. İlk üçlükdə italiyalı Sofiya Rafaelli (31,650 xal), Latviya təmsilçisi Yelizaveta Polstyanaya (30,850 xal) və daha bir italyan gimnastı Milena Baldassarri (30,600 xal) qərarlaşıblar. Digər gimnastımız Arzu Cəlilova 26,650 xalla 18-ci yeri tutub.

Mütləq birincilikdə Sofiya Rafaelli (125,150 xal, İtaliya) qızıl, Boryana Kaleyn (124,750 xal, Bolqarıstan) gümüş, Milena Baldassarri (121,550 xal, İtaliya) isə bürünc medallara sahıb olublar. Arzu Cəlilova çoxnövçülükdə altıncı yeri tutub (119,450), Zöhrə Ağamirova isə 119,300 xalla yeddinci pillədə qərarlaşıb.

Axşam proqramında Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət qrup hərəkətləri üzrə Azərbaycan komandası 3 lent və 2 topla öz kompozisiyasını icra edib. Gimnastlarımızın təsnifat mərhələsində çıxışı hakimlər tərəfindən 30,600 xalla qiymətləndirilib. Bu nəticə ilə qrup komandamız ikinci pillədə qərarlaşıb və bu gün keçiriləcək final yarışında qələbə uğrunda mübarizəyə qoşulacaq.

Son məlumata görə, Azərbaycan gimnastları medal hesabını açıb - qrup komandamız çoxnövçülükdə 63,650 xalla Dünya Kubokunun gümüş mükafatçısı olub. Qızıl medala İtaliya (64,600 xal), bürünc medala isə İsrail (63,150 xal) komandası layiq görülüb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# 3 ay ərzində 1 milyona yaxın sorğu!

## Fasiləsiz çalışan "Azercell"in Əlaqə Mərkəzi müştəri məmnuniyyətini 93 faizə çatdırıb

Azərbaycanda innovativ, dünya standartlarına uyğun müştəri xidməti sistemi modelini quran və müştəri məmnuniyyətinin artırılmasını hədəfləyən "Azercell Telekom" MMC bu istiqamətdə fəaliyyətini davam etdirir. "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" kimi səslənən şirkətin yeni məqsədi rahat və innovativ həllər vasitəsilə abunəçilərin həyat keyfiyyətini yaxşılaşdırmağa fokuslanır. Hazırda "Azercell" müraciətlərin vaxtında və effektiv formada cavablandırılmasını, eləcə də müştərilər tərəfindən irəli sürülən bütün təklif və şərhlərin diqqətlə araşdırılmasını təmin edir.

Qeyd edək ki, müasir dövrün tələbatına uyğunlaşan və hətta bir addım öndə olaraq ən yeni tendensiyaları tətbiq edən "Azercell" rəqəmsal kanallar üzərindən göstərdiyi xidmət çeşidinin genişləndirilməsinə xüsusilə diqqət ayırır. Təkcə son 3 ay ərzində şirkətə onlayn kanallar vasitəsilə 250 000-dən çox müraciət daxil olub və onlardan təxminən 38 000-i sosial şəbəkələrdən ünvanlandırılıb. Hazırda "Azercell"in müştəri xidmətləri "Feysbuk", "İnstaqram", "Tvitter", LinkedIn və "Yutub" platformalarında fəaliyyət göstərir.

"Azercell Telekom" MMC cari ilin birinci rübü ərzində Əlaqə Mərkəzinə daxil olan zənglərin statistikasını da açıqlayıb. Bildirilir ki, ötən il "Azercell"in Əlaqə Mərkəzinə 1 milyona yaxın zəng daxil olub və həmin zənglərin 98 faizi cavablandırılıb. Bu müraciətlərin təxminən 28 000-i "Azercell" Premium dəstək xəttinə, 34 000-i isə Korporativ müştərilərə xidmət göstərən Telefon Mərkəzinə ünvanlandırılıb.

Şirkətin Əlaqə Mərkəzinin müştəri məmnuniyyəti səviyyəsi 93 faizdən çox olub.

Ümumilikdə Telefon Mərkəzinə daxil olmuş müraciətlərin ortalama cavablanma müddəti təxminən 2,5 dəqiqə təşkil edib. Müraciətlərin məzmununa gəlincə, fərqli kanallar vasitəsilə daxil olan sorğular əsasən internet paketləri, nömrə ilə bağlı əməliyyatlar, tarif və kampaniyalara aid məlumatlar, balans və ödəmə məsələləri ilə əlaqədar olub.

Qeyd edək ki, istifadəçilərə ən yaxşı müştəri təcrübəsi bəxş etmək məqsədilə "Azercell Telekom" MMC tərəfindən işlənib hazırlanmış "Kabinetim" tətbiqi də abunəçi sorğularının həlli istiqamətində atılmış ən böyük addımlardan biridir. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi üzərindən onlayn çat vasitəsilə "Azercell" müştəri xidmətlərinə müraciət etmək və xidmətlərə qoşulmaq da mümkündür.

"Azercell" müştəri xidmətləri sahəsində həyata keçirdiyi yenilikləri ilə hər zaman seçilib. Şirkət 1998-ci ildə ölkədə ilk dəfə olaraq 24/7 rejimində fəaliyyət göstərən Telefon Mərkəzi, 2009-cu ildə isə Gəncədə ilk Regional Telefon Mərkəzini yaradıb. Bu sahədə ölkəmizdə örnək olan şirkət fəaliyyət dövrü ərzində "ISO 10002:2018 Keyfiyyətin İdarə Olunması /Müştəri Məmnuniyyəti /Müəssisələrdə Şikayətlərə Baxılmasına dair təlimatlar standartına uyğunluq" sertifikatına, eləcə də "ISO 10004:2018: Keyfiyyətin idarə olunması/Müştəri məmnuniyyətinin monitorinqi və ölçülməsi üzrə təlimatlar" və "ISO 18295-1:2017: Əlaqə Mərkəzlərinin idarə edilməsi sahəsində uyğunluq"sertifikatlarına layiq görülmüşdür.

Xatırladaq ki, "Azercell"in Telefon Mərkəzi ilə 7/24 rejimində çalışan *1111 qısa nömrəsi, eləcə də 012-4904949 (Fakturasız Xətt abunəçilər üçün)və 012-4905252 (Fakturalı Xətt abunəçilər üçün) şəhər nömrələri vasitəsilə əlaqə saxlamaq mümkündür.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!








«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 5737
Sifariş 1080
Qiyməti 40 qəpik